## Azərbaycan və Türkiyə prezidentləri Şuşada birgə nahar ediblər



İyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.

AZƏRTAC

## Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı kompozisiya təqdim olunub







**İyunun 15-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Musiqi irsi və Qarabağ atları Cıdır düzündə” adlı musiqili kompozisiya təqdim edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanım Əminə Ərdoğan musiqili kompozisiyaya baxıblar.

Musiqili kompozisiyada Azərbaycan Atçılıq Federasiyasının təqdim etdiyi Qarabağ atlarının möhtəşəm çıxışının müşayiəti ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının, Azərbaycan Dövlət Rəqs ansamblının, “Mirvari” rəqs ansamblının və Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin rəqsləri, “Natiq” ritm qrupunun ifaları təqdim olunub.

(davamı 8-ci səhifədə)



# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

## Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiya təqdim olunub







(əvvəli 7-ci səhifədə)

Proqramda Azərbaycanın və Türkiyənin xalq və bəstəkar mahnıları səslənib.

Tədbir zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ən qədim at cinslərindən olan "Zəfər" adlı Qarabağ atı və "Xarıbülbül" kompozisiyası hədiyyə edilib. "Xarıbülbül" kompozisiyasında Qarabağın rəmzi sayılan iki xarıbülbül gülü birləşərək Azərbaycan ilə Türkiyə arasındakı əbədi dostluq və qardaşlıq münasibətlərini təcəssüm etdirir.

Şuşada təşkil olunan tədbirin qonaqlarına, həmçinin Heydər Əliyev Fondunun "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusu hədiyyə olunub. Topluya ədəbiyyat, musiqi, memarlıq sahələrini, xalq sənətkarlığını və xalçaçılıq sənətini əks etdirən ayrı-ayrı nəşrlər daxildir. Qonaqlara, həmçinin Şuşa səfəri ilə bağlı xatirə medalları təqdim edilib.

**AZƏRTAC**





## Ali qonağın şərəfinə









**İyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə nahar verilib.**

AZƏRTAC xəbər verir ki, sonra xatirə hədiyyələri təqdim olunub.

**AZƏRTAC**

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edib



*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Milli Məclisdə olub.*

*AZƏRTAC xəbər verir ki, ali qonağı Milli Məclisin sədri Sahibə Qafarova qarşılayıb.*

*Əvvəlcə təkbətək görüş keçirilib.*

*Təkbətək görüşdən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentdə çıxış edib.*

### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı





–Azərbaycan Milli Məclisinin hörmətli sədri.

Əziz millət vəkilləri, xanımlar və cənablar.

Sizləri - müzəffər ölkənin parlamentinin bütün üzvlərini Türkiyədəki 84 milyon qardaşınızın adından bir millət, iki dövlət anlayışı ilə sevgi və bəxtiyarlıqla salamlayıram. Xoşbəxtəm, çünki Can Azərbaycandayam. Xoşbəxtəm, çünki Qarabağı azad etmiş qardaş Azərbaycanın Milli Məclisində sizlərlə birlikdəyəm. Xoşbəxtəm, çünki müstəqilliyinin otuzuncu ilinə çatan Azərbaycandayam. Qarabağın azad edilməsi Azərbaycanın müstəqil keçən otuz ilinin ən önəmli hadisəsidir.

Bu Zəfərlə Qafqazda qanayan bir yara qapanmış, bölgədə davamlı sülh və sabitlik üçün böyük fürsət yaranmışdır. Qafqazdakı sülh və sabitlikdən təkcə Azərbaycan deyil, Ermənistan da daxil olmaqla, bütün bölgə ölkələri, hətta bütün dünya qazanacaq. Biz də azərbaycanlı qardaşlarımızla bölgənin tamamilə inkişafı, rifahın yüksəlməsi, sabitliyin möhkəmlənməsi üçün üzərimizə düşəni yerinə yetirməyə bütün səmimiyyətimizlə hazırıq.

Geridə qoyduğumuz otuz ildə - Qarabağda yaşanan böhranlı dövrdə kimlərin əlinə nə keçdiyi, kimlərin bu işdən qazanclı çıxdığı, kimlərin də itirdiyi çox yaxşı bilinir. Canı yananlar, qanı tökülənlər, acı çəkənlər, maddi və mənəvi olaraq itirənlər ancaq Qarabağda yaşayan insanlardır. Asan deyil, otuz il. Mənim azərbaycanlı qardaşlarım öz məskənlərindən təəssüf ki, otuz ildir köçkün düşüblər. O torpaqlar işğal altında idi. İşğal altındakı həmin torpaqlar otuz il sonra, çox şükür, yenidən sahiblərinə qovuşdu.

Qarabağda otuz ildir davam edən münaqişənin həll olunmamasına müşahidəçi qalanlar, daha doğrusu, münaqişənin davam etməsi üçün səy göstərənlər daim qazananın tərəfində olublar. Davamlı sülhə gedən yolun bölgədəki bütün xalqların və dövlətlərin qarşılıqlı etimada əsaslanaraq inkişaf etdirəcəkləri əməkdaşlıqdan keçdiyinə inanırıq.

Böyük bir liderlik göstərərək bu Zəfəri və sülhü Azərbaycana qazandıran Azərbaycan Ordusunun Ali Baş Komandanı və Azərbaycan Prezidenti hörmətli qardaşım İlham Əliyevi bir daha təbrik edirəm. Liderlərinin arxası ilə Qarabağda Zəfər qazanmaq üçün tək yumruq, tək ürək olan, milli birlik və bərabərlik hisslərini ən yüksək səviyyədə nümayiş etdirən Azərbaycan xalqını təbrik edirəm. Gözlərini qırpmadan Vətən üçün, Qarabağ üçün, Qarabağın azadlığı üçün qəhrəmancasına mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm. Şəhidlərimizin hər birinə Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı verirəm.

Bu müqəddəs Vətən müharibəsi dövründə Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanında yer almışdır. Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, bütün dünya bilsin ki, İnşallah, sabah da yanında olacağıq. Necə ki, Balkan müharibəsi zamanı Azərbaycanın Dövlət Himninin sözlərinin müəllifi Əhməd Cavad azərbaycanlı gənclərlə birlikdə Osmanlı ordusunun sıralarında döyüşübsə, necə ki, Çanaqqalada Azərbaycandan gələn igidlərlə Anadolunun dəliqanlıları birlikdə mübarizə aparıb, birlikdə şəhadətə ucalıb zəfər qazanıblarsa, necə ki, Qafqaz İslam Ordusunun aslanları - Nuru Paşanın əsgərləri o gün azərbaycanlı qardaşlarımızın yardımına gəlibsə, biz də bu gün və gələcəkdə bir və bərabər olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir.

Hörmətli qardaşlarım, Nuru Paşanın Qafqaza gəldiyi dövrdə ermənilər 12 mindən çox türkü, müsəlmanı qətlə yetirmişdilər. Qafqazda tarixin qara səhifələrinə yazılacaq bir qətliam yaşanmışdır. Türk millətinə hər cür iftira atanlar, əvvəlcə, buralara, Qafqaza, Azərbaycana baxmalıdırlar. Həm də təkcə yüz il əvvələ deyil, otuz il bundan əvvəl Qarabağda yaşananlara, Xocalıda yaşananlara baxmalıdırlar. Sonra vicdanları imkan verərsə, bizə yönəltdikləri ittihamları otuрub onlarla ayrıca danışarıq. Amma onların gözləri var, görməz, qulaqları var, eşitməz. Ürəkləri onsuz da duyğularını itirib. Qarabağı, Azərbaycanın işğal altındakı torpaqlarını otuz il ərzində yaxıb-yıxanları, gedərkən də geridə qalan hər şeyi yandıranları görməyənlər azadlıq mübarizəsinə mane olmaq üçün səfərbər oldular. İndi gəlsinlər, Füzulini görsünlər. Bu yerlərin hər tərəfi dağıdılmış, yandırılmış, tar-mar edilmişdir. Gəlsinlər, Qarabağı görsünlər. Hər şey ortadadır. Dünən yol boyunca buraların halını gördük. Oraları nə hala salıblar. Buraları necə bombalayıb, yandırıb gediblər. Onlar gələrkən işğalçı, gedərkən isə tarmaredici idilər.

Təkcə bu davranış belə Qarabağın kimin Vətəni olduğunu göstərmək üçün kifayətdir. Azərbaycanlılar otuz il əvvəl Qarabağdan çıxmaq məcburiyyətində qalanda heç bir yeri dağıtmadılar, heç bir evi yandırmadılar. Çünki insan öz Vətənini dağıda bilməz, öz Vətənini yandıra bilməz. Amma Qarabağ onların Vətəni olmadığı üçün hər şeyi yandıraraq, dağıdaraq getdilər. Onların yandırdıqları kəndləri, dağıtdıqları şəhərləri Azərbaycan indi yenidən inşa edir və İnşallah, buraları birlikdə inşa edəcəyik və yeni bir Qarabağ meydana gətirəcəyik.

Qardaşlarım, mədəniyyət ilə vandallıq arasındakı fərqi görmək istəyən gəlsin Qarabağda iki dönəm arasındakı fərqə baxsın. Qarabağ coğrafi baxımdan dünyanın ən gözəl bölgələrindən biri olmaqla yanaşı, mədəniyyət baxımından da ən zəngin yerlərindən biri idi. İnşallah, yenə elə olacaq. Türkiyə olaraq, İnşallah, bu prosesdə də qardaş Azərbaycanın yanında yer almaqda davam edəcəyik.

Əziz qardaşlarım, dünən qardaşım İlham Əliyev və heyətlərimizlə birlikdə Şuşada idik, azad Qarabağ torpaqlarında Azərbaycan bayrağının qürurla dalğalandığını görməyin sevincini bilavasitə yaşadıq. Şuşa Qarabağ xanlığının banisi Pənahəli xan dövründən bəri adətən təbii bir İncəsənət Akademiyası kimi, musiqinin, ədəbiyyatın, incəsənətin ən yüksək səviyyədə yaşadığı və yaşadıldığı şəhər olmuşdur. Pənahəli xanın, xüsusilə şeirləri bu gün də sevilərək oxunan veziri Molla Pənah Vaqifdən başlayaraq, Şuşa ədəbiyyatın mərkəzi xarakterini qorumuşdur. Qartal yuvası kimi qayaların üstündə səmaya yaxın qurulması ilə əlaqədar Şuşada mədəniyyətin, incəsənətin, ədəbiyyatın ilhamı daim bol olub. Bu şəhər dahi bəstəkar Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Rəşid Behbudovun və daha neçə-neçə incəsənət xadimlərinin, şairlərin yurdudur. Əhməd bəy Ağaoğlu kimi təkcə Azərbaycanda deyil, Türkiyə və türk dünyasında da fikirləri ilə söz sahibi olmuş mütəfəkkirlərin yurdu Şuşa bu gün bir daha mədəniyyətlə, - heç narahat olmayın, - dirçəlir.

Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi və geridə qoyduğumuz günlərdə Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı bu baxımdan dünyaya verilən açıq bir mesajdır. Vaqif poeziya festivalının da hazırlıqlarının davam etdiyini eşitməkdən məmnunam. Bu il Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı gələn il Türk dünyasının mədəniyyət paytaxtı olaraq görməkdən məmnunluq duyarıq. Türk dünyasının hər tərəfindən gələcək mədəniyyət və incəsənət əhlinin bu gözəl şəhərdə görüşməsi, Şuşanın qədim tarixinə verilən ən gözəl salam olacaqdır.

Əlbəttə, təkcə Şuşa və ya Qarabağ deyil, Azərbaycanın və türk dünyasının hər yeri böyük şairlər və incəsənət xadimləri yetişdirmişdir. Məsələn, bu il Nizami Gəncəvinin anadan olmasının 880-ci ildönümüdür. Əsrlər boyu şairlər onunla yarışmağa və ona çatmağa çalışıblar. "Avni" təxəllüsü ilə şeirlər yazan Fateh Sultan Mehmet xanın bu əsərində də eyni hissiyyata rast gəlinir:

*Bu kelam ile Nizami işidürse sözüni*
*İlteler sana hased Sa'di vü Selman bu gice.*

Bu il ayrıca Ahi Evranın anadan olmasının 850-ci, Əlişir Nəvainin anadan olmasının 580-ci, Hacı Bektaşi Vəlinin vəfatının 750-ci, Yunus Əmrənin vəfatının 700-cü ildönümüdür. Keçən il Fərabinin anadan olmasının 1300-cü ili idi. Dünyada bu qədər zəngin və yüksək mədəni dəyərləri olan millətlərin sayı çox azdır. Biz bu dəyərlərimizi həm yeni nəsillərimizə, həm də bütün dünyaya izah etməliyik. Hamısını da rəhmətlə yad edərək burada saydığım və saya bilmədiyim bütün şəxslər mədəniyyətimizin sütunları olduğu kimi, dünya mədəniyyətinin də dəyərləridir.

İnsanlıq onların əsərlərindəki hikmətlərin sirrinə vaqif olduqca dünyamızdakı məsələləri həll etmək asanlaşacaqdır. Keçmişdən gələcəyə quracağımız körpü ilə mədəniyyətimizi yenidən yüksəltmək, layiq olduğu yerə çatdırmaq bizim əlimizdədir. Birliyimizi, bərabərliyimizi, dostluğumuzu, qardaşlığımızı nə qədər gücləndirsək, birbirimizə nə qədər möhkəm sarılsaq, bu hədəfə o qədər tez nail olarıq.

Qardaşlarım, Qarabağ Zəfərinin Azərbaycana, Qafqaza və dünyaya gətirəcəyi faydalarının dəyəri zaman keçdikcə daha yaxşı dərk ediləcək. Bu Zəfərdən heç kim narahat olmasın. Çünki bu, fəlakətin deyil, inşanın, zülmün deyil, ədalətin, kobudluğun deyil, zərifliyin, müharibənin deyil, sülhün, qanın deyil, qəlbin Zəfəridir. Həqiqətən bu Qələbədən sonra görülən və görüləcək işlərə baxdıqda yaratdığımız mənzərənin necə canlanacağı görünəcək. Hər şeydən əvvəl Qarabağın hər yerinə sabitlik, əmin-amanlıq və ümid hakim olub. Evlərindən, yurdlarından otuz ildir ayrı düşən azərbaycanlı qardaşlarımıza evlərinə qayıtmaq yolu açılmışdır. İnşallah, sonrakı gəlişimizdə bu torpaqların insanlarının evlərinə yerləşdiyini görməyin sevincini yaşayacağıq. Onlara indidən bu müraciəti Azərbaycan parlamentindən mən də edirəm. Bir an əvvəl, İnşallah, evləriniz inşa edilir, ediləcək və oralara yerləşməyinizi biz də həsrətlə gözləyirik.

İşğalın səbəb olduğu davamlı münaqişə vəziyyətindən qaynaqlanan yorucu gərginlik ortadan qalxıb. İndi yollar sürətlə inşa edilir, su kəmərləri çəkilir, elektrik stansiyaları bir tərəfdən qurulur, bir tərəfdən açılır. Bunları gözlərimlə gördüm, ona görə söyləyirəm. Bir tərəfdən infrastruktur obyektləri tikilir. Biz də, inşallah, TOKİ-mizlə bölgədə məktəb, xəstəxana və buna bənzər bir çox əsərləri inşa etməyə çalışacağıq.

Naxçıvan ilə Bakını bir-biri ilə birləşdirəcək Zəngəzur dəhlizinin bölgəmizə gətirəcəyi rahatlığın və zənginliyin tərifi mümkün deyil. Bölgəmizdə və bütün dünyada zalımın zülmünün əbədi olmadığı, bir gün mütləq haqqın, ədalətin bərqərar olacağı hər kəsə məlumdur. Qarabağ, eyni zamanda, dünyanı öz siyasi və iqtisadi maraqlarının arenası olaraq görənlərin hesablarının pozulduğu yerdir. Üstəlik, bütün bu proseslər Azərbaycan ilə birlikdə Ermənistan üçün də yeni bir dövrün başlanğıcıdır. Məsələn, Zəngəzur dəhlizində fəaliyyətə başlayacaq dəmir yolu ilə ermənilər də rahatlıqla Moskvaya və bütün dünyaya çıxa biləcəklər və beləliklə özləri də özlərini saldıqları blokadadan xilas ola biləcəklər.

Qardaşımla birlikdə təklifimizi etdik. Nə idi təklifimiz? Gəlin, altı ölkə bir platforma formalaşdıraq: Rusiya, Türkiyə, Azərbaycan, İran, Ermənistan və Gürcüstan. Bu platforma ilə birlikdə artıq bölgədə bir sabitlik meydana gəlsin, bölgədə düşmənçiliklər ortadan qalxsın. Burada demək olar ki, təkcə Gürcüstanın bəzi özünəməxsus sualları var idi. Son Türkiyə səfərində cənab Baş nazirlə də bu məsələləri bir daha müzakirə etdim. Dedim, bu, Gürcüstanın da lehinə olacaq, bu addımı ataq. Bax, biz Ermənistan ilə aramızdakı narahatlıqları bilirik. Amma biz bütün bunlara baxmayaraq, azərbaycanlı qardaşlarımızın narahatlıqlarının da aradan qaldırılmasını istəyirik. Eyni qaydada sizin də Rusiya ilə problemlərinizin həllinə bu platforma töhfə verəcək. "Çalışaram" dedi. "Yaxşı olar" dedik.

Çünki bu bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə olaraq biz də lazımi addımları atacağıq. Türkiyə sərhədlərinin açılmasının Ermənistana verəcəyi faydalar saymaqla bitməz. Bu Zəfəri hər kəsin ortaq zəfərinə çevirmək bizim əlimizdədir. Bir daha Qafqazın boynuna kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri hamımız birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür" deyərək qlobal səviyyədə də aparırıq.

Mən buraya NATO-nun Zirvə toplantısından gəldim. NATO-nun Zirvə toplantısında da məhz bu məsələləri müzakirə etdik, bunları dəyərləndirdik. Çox şükür, səmərəli görüşlərlə buraya gəldik. Amma dünyanın problemləri bitmir, dünyada həll ediləcək hələ çox problemlər var. Amma dik dursaq, möhkəm dursaq, bir olsaq, bərabər olsaq, Allahın izni ilə bunları həll edərik. İnşallah, mədəniyyət günəşimizi yenidən ən yüksək zirvəyə qaldıraraq, sülhü və ədaləti bölgəmizdə və dünyada hakim edəcəyimiz günlər yaxındır. Çıxışımı böyük şair Bəxtiyar Vahabzadənin bu misraları ilə bitirmək istəyirəm:

*Bir ananın iki oğlu,*
*Bir ağacın iki qolu,*
*O da ulu, bu da ulu,*
*Azərbaycan, Türkiyə.*

*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir,*
*Azərbaycan, Türkiyə.*

Hamınızı sevgi ilə, məhəbbətlə salamlayıram. Salamat qalın.

**AZƏRTAC**

## Ulu öndər Heydər Əliyevin məzarını ziyarət




**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstəsi qoyub.**

AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömürgün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə gül dəstəsi qoyulub.

**AZƏRTAC**

## Şəhidlərin xatirəsinə ehtiram





**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 16-da Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə gül dəstəsi qoydu.

Prezident Rəcəb Tayyib Ərdoğan Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstəsi qoydu.

**AZƏRTAC**

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri

# Bakı Olimpiya Stadionunda Avropa çempionatının final mərhələsinin Türkiyə-Uels matçı keçirilib



*Azərbaycan və Türkiyə prezidentləri oyuna baxıblar*













**“Avro-2020”nin A qrupunda yer alan Türkiyə milli komandası iyunun 16-da Bakı Olimpiya Stadionunda Uels yığması ilə qarşılaşıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan oyuna baxıblar.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Avropa Futbol Federasiyaları Assosiasiyasının (UEFA) prezidenti Aleksander Çeferin ilə görüşüblər.

Oyun başa çatandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı yola saldılar.

AZƏRTAC



## Səfər başa çatdı

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 16-da başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

AZƏRTAC

# Prezident İlham Əliyevin İƏT-in Elm və Texnologiya üzrə ikinci Zirvə toplantısında videoformatda çıxışı təqdim olunub



*İyunun 16-da İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə onlayn formatda ikinci Zirvə toplantısı keçirilib.*

*AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.*

## Prezident İlham Əliyevin çıxışı

–Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Baş katib.

İslam Əməkdaşlıq Təşkilatının Elm və Texnologiya üzrə 2-ci Zirvə toplantısının təşkilinə görə Birləşmiş Ərəb Əmirlikləri hökumətinə və İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyinə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ailəsinin fəal üzvüdür və həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində üzv dövlətlərlə sıx əməkdaşlıq edir.

Son bir neçə il ərzində Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirləri səviyyəsində 10-a yaxın görüş keçirilib.

Azərbaycan hər zaman İslam ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində səylər göstərib. 2017-ci ildə 54 dövlətin iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməyimiz bunun növbəti təzahürü idi. Bununla yanaşı, biz, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin vətəndaşları üçün ölkəmizdə təhsil almaq imkanı verən təqaüd proqramına da başlamışıq.

Biz Ermənistanın hərbi təcavüzü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Azərbaycanın ədalətli mövqeyinin ardıcıl şəkildə dəstəklənməsini yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı tərəfindən 1994-cü il Kasablanka Zirvə görüşündən bu günə qədər Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən, ölkəmizin suverenliyi və ərazi bütövlüyünü dəstəkləyən 80-dən artıq qətnamə qəbul edilib. Bu mənada Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatının Təmas Qrupunun təsis edilməsi xüsusi qeyd edilməlidir. Azərbaycan da öz növbəsində hər zaman İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri dəstəkləyib, İslam ölkələri arasında daha güclü həmrəyliyin və əməkdaşlığın təmin edilməsi naminə səylər göstərib.

COVİD-19 pandemiyası dünya üçün misilsiz çağırışlar yaradıb. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Hərəkatın koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və 2020-ci ilin may ayında həmin tədbiri uğurla təşkil etmişdir. Biz, həmçinin 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsinin təşəbbüskarı olmuşuq.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib və koronavirusla əlaqədar 30-dan artıq ölkəyə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatına üzv olan bir sıra dövlətlərə humanitar və maliyyə yardımı göstərib.

"Peyvənd millətçiliyi", inkişaf etmiş və inkişafda olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı qeyri-bərabərlik bizi dərindən narahat etməkdə davam edir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0,3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.

Biz bir daha inkişaf etmiş ölkələri və beynəlxalq donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə zəruri maliyyə yardımı göstərməyə çağırırıq.

Bildiyiniz kimi, Ermənistan 30 ilə yaxın idi ki, ölkəmizin təqribən 20 faiz ərazisini işğal altında saxlayırdı. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə aparıb. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. Ermənistan Xocalı soyqırımını törədib. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamə, Qoşulmama Hərəkatının bəyannamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, ATƏT və digər beynəlxalq təşkilatların müvafiq qərarları münaqişənin həllinin hüquqi bazasını təşkil edirdi. Lakin Ermənistan beynəlxalq ictimaiyyətin tələblərinə məhəl qoymayaraq, torpaqlarımızı əbədi olaraq işğal altında saxlamağa cəhd edirdi. Ermənistan 2020-ci ilin iyul, avqust və sentyabr aylarında üç dəfə dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl ataraq günahsız mülki əhalinin qətlə yetirilməsinin və müharibənin alovlanmasının səbəbkarı oldu.

Ötən ilin sentyabr ayında Ermənistanın irimiqyaslı hərbi hücumuna cavab olaraq Azərbaycan əks-hücum əməliyyatına başladı və işğal altında olan ərazilərin böyük hissəsini azad etdi.

44 günlük Vətən müharibəsində tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci ilin 10 noyabr tarixində kapitulyasiya aktına imza ataraq Azərbaycanın işğal altında olan digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu.

Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinin icrasını təmin etdi.

Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi.

Biz müharibə zamanı İslam Əməkdaşlıq Təşkilatı tərəfindən nümayiş etdirilən qətiyyətli mövqeyi yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlarla çıxış edib. Xüsusilə mən müharibənin ilk günlərindən bizə siyasi dəstək ifadə edən Türkiyə, Pakistan və Əfqanıstana minnətdarlığımı bildirmək istəyirəm.

Ermənistan 30 illik işğal dövründə Azərbaycanın işğal olunmuş ərazilərindəki bütün mədəni və dini abidələrimizi məqsədli şəkildə dağıdıb. Ermənistanın işğalı altında olmuş ərazilərdə yerləşən 67 məsciddən 65-i yerlə-yeksan edilib, iki məscidə isə ciddi zərər dəyib və onlar təhqir edilib.

Mən həmkarlarıma bizim şəhər və kəndlərimizin işğaldan əvvəl və sonrakı vəziyyəti ilə bağlı qısa məlumat və fotoşəkillərdən ibarət təsviredici kitab göndərəcəyəm. Orada Azərbaycanın dini və tarixi abidələrinin tamamilə məhv olunması və darmadağın edilməsi öz əksini tapıb.

İslam Əməkdaşlıq Təşkilatı öz qətnamələrində Azərbaycanın keçmiş işğal altında olan torpaqlarında Ermənistan tərəfindən İslam tarixi və mədəniyyət nümunələrinin, ibadət yerlərinin dağıdılması və təhqir edilməsini qətiyyətlə pisləyib.

Fürsətdən istifadə edərək, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi cənab Yusif bin Əhməd əl-Osayminə aprel ayında ölkəmizə səfər etdiyinə və Qələbəmizlə bağlı səmimi təbrikinə görə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Baş katib vəzifəsində o, Azərbaycana altı dəfə səfər edib. Bu, onun ölkəmizə olan dəstək və ehtiramının təzahürüdür. Baş katib İslam Əməkdaşlıq Təşkilatının beynəlxalq nüfuzunun artması və üzv dövlətlər arasında həmrəyliyin möhkəmləndirilməsi işinə böyük töhfə verib.

Bu il İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi, İslam Əməkdaşlıq Təşkilatının Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı Təmas Qrupunun üzvləri, habelə ICESCO-nun nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edib və Ermənistanın İslam irsinə qarşı törətdiyi vandalizmin şahidi olub.

Biz Ermənistanın İslam ölkələri ilə münasibətlərini gücləndirmək cəhdlərini müşahidə edirik. Məscidlərdən donuz və inək tövləsi kimi istifadə etmiş və bununla da bütün İslam ümmətinin hisslərini təhqir edən ölkə müsəlman dövlətlərinin və müsəlmanların dostu ola bilməz. Bugünkü Zirvə toplantısının mövzusu elm və texnologiya olduğundan, vurğulamaq istərdim ki, ölkəmizin elmi və texnoloji potensialının gücləndirilməsi bizim başlıca prioritetlərimiz sırasındadır.

Azərbaycan beynəlxalq kosmik klubun üzvüdür. Bu gün bizim ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi üçün istifadə olunan üç peykimiz var.

Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək ölkə seçilib. Bu, beynəlxalq kosmik icma tərəfindən Azərbaycanın bu sahədə nailiyyətlərinin tanınmasının təzahürüdür.

Bu yaxınlarda Azərbaycanın növbəti onillik üçün sosial-iqtisadi inkişafına dair müəyyən etdiyim beş milli prioritet sırasında rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması da yer alır.

Hökumət innovasiyaların və startap ekosistemlərinin inkişafı ilə bağlı əməli addımlar atır.

Azərbaycan Ümumdünya İqtisadi Forumu ilə Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı saziş imzalayıb.

Mən işğaldan azad olunmuş bütün əraziləri yaşıl enerji zonası elan etmişəm. Biz bərpa və yenidənqurma işlərində ən müasir və innovativ texnologiyalardan istifadə edəcəyik. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiq olunacaqdır.

Biz qardaş İƏT dövlətlərindən olan şirkətlərin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma prosesində iştirakını görmək istərdik.

Sağ olun.

**AZƏRTAC**

# Prezident İlham Əliyevin Tvitterdəki səhifəsində Milli Qurtuluş Günü ilə bağlı paylaşım edilib

**Prezident İlham Əliyevin Tvitterdəki səhifəsində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə paylaşım edilib.**




AZƏRTAC xəbər verir ki, paylaşımda ümummilli lider Heydər Əliyevin bu sözləri yer alıb: "Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdir".

**AZƏRTAC**

# Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü münasibətilə Azərbaycan xalqını təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Milli Qurtuluş Günü münasibətilə paylaşım edib.**

**AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**

*"Əziz həmvətənlər!*

*Sizi Milli Qurtuluş Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram! Arzu edirəm ki, Azərbaycanın uğurlu inkişafı davamlı olsun, ölkəmizdə həmişə sülh, əmin-amanlıq, sabitlik, birlik və rifah hökm sürsün! Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!*

**AZƏRTAC**

*"Kommersant":*

# Türkiyə və Azərbaycan Cənubi Qafqazda yeni alyans yaratdı

**Türkiyə və Azərbaycan Cənubi Qafqazda yeni alyans yaratdı.**




AZƏRTAC xəbər verir ki, "Kommersant" qəzetində Serqey Strokanın məqaləsi dərc olunub. Materialda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağın rəmzi olan Şuşa şəhərinə səfərindən bəhs edilir.

Müəllif yazır: "Bu şəhərdə Türkiyə Prezidenti və onun azərbaycanlı həmkarı İlham Əliyev müttəfiqlik münasibətləri haqqında "tarixi bəyannamə" imzaladılar. Türkiyə lideri Ermənistan ilə münasibətləri normallaşdırmağa çağırdı və Cənubi Qafqazda Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan, Gürcüstan və İranın iştirakı ilə altıtərəfli əməkdaşlıq formatı təklif etdi".

Məqalədə qeyd edilir ki, Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyənin müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsini "tarixi əhəmiyyətli saziş" adlandırıb. Bu sənədin imzalanmasından əvvəl Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Co Bayden ilə ilk dəfə görüşüb.

Müəllif yazır: "Ankaraya Rusiyada istehsal edilən C-400 zenit-raket sistemlərinin satışı məsələsi barədə ABŞ-ın təzyiqinə uymayan Prezident Ərdoğan faktiki olaraq Ağ evin yeni rəhbərini Vaşinqton üçün xoşagəlməz reallıqla barışmağa və Türkiyəyə təzyiqi davam etdirməkdən çəkinməyə məcbur etdi. Co Bayden açıq-aşkar sülhpərvər mövqe tutaraq deyib: "Görüşümüz müsbət və səmərəli oldu. Əminəm ki, Türkiyə ilə Birləşmiş Ştatlar arasında həqiqi tərəqqiyə nail olacağıq". Rəcəb Tayyib Ərdoğan isə öz növbəsində qeyd edib ki, ABŞ ilə Türkiyə arasında "həlledilməz problemlər yoxdur". Ərdoğan NATO tərəfə barışdırıcı jest edərək, bu alyansı Aralıq Dənizindən Qara Dənizə, Avropadan Asiyaya qədər onun "təhlükəsizlik çətiri"nə ehtiyac duyulan bütün regionlarda fəal rol oynamağa çağırıb".

S.Strokanın fikrincə, Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri Türkiyə-Azərbaycan münasibətlərinə də yeni təkan verib.

Müəllif Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini sitat gətirir. Şuşa Bəyannaməsinin Azərbaycan - Türkiyə münasibətlərini ən yüksək səviyyəyə çatdırdığını qeyd edən Prezident Əliyev deyib: "Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".

Məqalədə Prezident Rəcəb Tayyib Ərdoğanın sözləri də sitat gətirilir. Ərdoğan regiondakı altı əsas dövləti cəlb etməklə Qarabağın bərpası işini fəallaşdırmağa çağırıb. Türkiyə Prezidenti deyib: "Altılı platformada Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun. Bu addımı atmaq üçün biz birlikdə hər cür fədakarlığa hazırıq. Cənab Putin eyni qaydada bu cür fədakarlığa hazırdır".

S.Strokanın sözlərinə görə Ermənistanda növbədənkənar parlament seçkilərinə saylı günlər qalmış və Cenevrədə Rusiya-Amerika sammiti ərəfəsində Türkiyə liderinin Azərbaycana səfəri İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni reallığı əks etdirməlidir.

Məqalədə deyilir: "İki liderin danışıqları Qarabağın ikinci ən böyük şəhərində - bu il may ayında Prezident Əliyevin "Azərbaycanın mədəni paytaxtı" elan etdiyi "azad edilmiş Şuşada" keçirmək qərarı Türkiyə Prezidentinin səfərinin regiondakı bütün aktorlara siyasi jestə və siqnal olmasını təsdiq etdi. Hazırda seçkiqabağı kampaniya ilə əlaqədar Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyanın əvvəllər nümayişkaranə səfərlər etdiyi Şuşanın itirilməsi həm Ermənistan cəmiyyəti üçün, həm də bu günlərdə hakimiyyət uğrunda həlledici döyüş aparan siyasətçilər üçün qeyri-adi dərəcədə ağrılı mövzu olaraq qalır".

Müəllif yazır ki, iyunun əvvəlində Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Ankaraya dövlət səfəri bu fonda Türkiyənin regionda liderlik iddiasında olmasını bir daha təsdiq etdi. S.Strokan xatırladır ki, Türkiyə lideri Gürcüstanın Baş naziri ilə görüşdə Azərbaycan ilə üçtərəfli əməkdaşlığın vacib olduğunu göstərib. Rəcəb Tayyib Ərdoğan deyib: "Türkiyə hər hansı üçtərəfli əməkdaşlığı dəstəkləyir, istər Gürcüstan-Azərbaycan-Ermənistan, istərsə də Gürcüstan-Azərbaycan-Türkiyə olsun".

**AZƏRTAC**

*İspan mətbuatı:*

# Türkiyə və Azərbaycan Şuşada Bəyannamə imzalayaraq müttəfiq olduqlarını təsdiq edirlər

**İspaniyada çıxan iqtisadiyyat və maliyyə jurnalının "elmundofinanciero.com" saytında, həmçinin "eldiario.es" xəbər portalında İspaniyanın EFE informasiya agentliyinin "Türkiyə və Azərbaycan Şuşada Bəyannamə imzalayaraq müttəfiq olduqlarını təsdiq edirlər" sərlövhəli məlumatı dərc edilib.**

AZƏRTAC xəbər verir ki, bu materiallarda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın erməni işğalından azad edilmiş Şuşa şəhərinə səfərindən bəhs edilir.

İspan mətbuatı yazır ki, iyunun 15-də Azərbaycan və Türkiyə Şuşa şəhərində birgə Bəyannamə imzalayaraq müttəfiqlik münasibətlərini təsdiq ediblər. Bu Bəyannamə Azərbaycan-Türkiyə münasibətlərini ən yüksək səviyyəyə çatdırıb.

Məqalələrdə iki dövlətin liderlərinin Şuşa Bəyannaməsi barədə sözləri sitat gətirilib. Onlar bildiriblər ki, bu Bəyannamə Azərbaycan ilə Türkiyənin həmişə birlikdə olacağını və bir-birinin təhlükəsizliyini dəstəkləyəcəyini sübut edir. Bildirilir ki, liderlər hərbi sahədə əməkdaşlıq və qarşılıqlı yardım məsələlərinə toxunub, Şuşada Türkiyənin Konsulluğunun açılması planını bəyan ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

Bildirilir ki, Türkiyə Prezidenti Azərbaycana səfəri çərçivəsində bu ölkənin parlamentində çıxış edəcək və Futbol üzrə Avropa çempionatı çərçivəsində Bakı Olimpiya stadionunda keçiriləcək Türkiyə-Uels matçına tamaşa edəcək.

**AZƏRTAC**

# 2010 Qələbə və inkişafa hədəflənən siyasət 2020

# ICESCO İslam ölkələri arasında əməkdaşlığın genişlənməsində maraqlıdır



**Ötən əsrin 90-cı illərinin əvvəllərindən başlayaraq bütün dünya “Qloballaşma nədir?” sualı üzərində düşünməkdədir. Qloballaşmanın tarixi əslində, onun heç də yeni bir proses olmadığını göstərir. Belə ki, bu proses indiyə qədər müxtəlif formalarda təzahür etmişdir.**

Mədəniyyətin qloballaşması geniş mənada dünya iqtisadiyyatının və informasiya texnologiyalarının inkişafının nəticəsi olaraq xalqların dünya dövlətləri sisteminə inteqrasiyasını, onlar arasında mədəni əlaqələrin inkişafını və qarşılıqlı mədəni irsini nəzərdə tutur. Mədəniyyətin qloballaşması dünya mədəni dəyərlərinin sintezini və yeni formada təşəkkülünü ehtiva edir. Bu halda qloballaşmanın dərəcəsindən asılı olmayaraq, öz kökümüzə bağlılığımızı itirməməliyik, çünki kökündən qopandan sonra bu yenilik daha böyük fəsad doğuracaqdır.

Bu gün İslam dünyası ölkələrinin qarşısında duran vəzifələrdən biri də İslam aləmində elmin, təhsilin, İslam aləminin zəngin mədəni irsinin qorunmasını təmin etməkdən ibarətdir. Bu baxımdan İslam Konfransı Təşkilatının İslam ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) son illərdəki fəaliyyəti yüksək dəyərləndirilir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə əməkdaşlıq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət daşıyır. Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İKT-yə üzv olmaq barədə müraciət etmiş, 1991-ci ilin dekabrında təşkilata üzv seçilmişdir. Həmin dövrdə ermənilərin işğalçılıq siyasətinə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan ölkəmiz üçün öz haqlı mövqeyinin İslam ümməti dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması çox vacib məsələlərdən idi. Artıq 1991-ci ildə İKT-nin nümayəndə heyəti problemi öyrənmək və münaqişəni sülh yolu ilə tənzimləmək imkanlarını araşdırmaq məqsədilə Azərbaycanda səfərdə oldu. O zaman İKT BMT, Ermənistan, Türkiyə və Rusiyanın nümayəndələri ilə problemlə bağlı müzakirələr apardı. Rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqe İKT-nin Ermənistan ilə bu məsələyə dair hər hansı məsləhətləşmələrinə son qoymuş və təşkilat çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İKT-nin yekdil və birmənalı mövqeyi formalaşmışdır.

1992-ci ilin sentyabrında BMT Baş Assambleyasının növbəti sessiyası zamanı İKT-yə üzv dövlətlərin xarici işlər nazirlərinin ənənəvi koordinasiya görüşünün yekun sənədində “Ermənistan-Azərbaycan münaqişəsinə dair” müvafiq maddə salınsa da, o dövrdə respublikamız üçün İKT-nin imkanlarından lazımi fayda əldə etmək, Azərbaycanın bu təşkilat çərçivəsində maraqlarını daha səmərəli qorumaq və ifadə etmək mümkün olmamışdır.

1994-cü ilin may ayından etibarən ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyi yanında Daimi nümayəndə səlahiyyətləri verildikdən sonra Əl-Riyaddakı səfirliyimiz vasitəsilə mənzil-qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən İKT Baş Katibliyi və onun müxtəlif qurumları, o cümlədən İslam İnkişaf Bankı ilə səmərəli iş aparılmağa başlanmışdır.

Son illər AR-İKT münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Şübhəsiz, təşkilata üzvlüyün ilk illərində müharibə şəraitində olan Azərbaycanın xarici siyasətinin başlıca məqsədi erməni təcavüzünün səbəb və məqsədləri, onun ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı olmuşsa da, İKT ilə əməkdaşlıq təkcə bu problemin həlli ilə məhdudlaşmamış, çoxşaxəli, qarşılıqlı maraq əsasında əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə keçirilmiş III fövqəladə Zirvə görüşündə iştirakı, onun təşəbbüsü ilə 2006-cı ilin iyununda Bakıda İKT Xarici İşlər nazirlərinin növbəti 33-cü konfransının keçirilməsi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin iyununda Bakıda “Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi” mövzusunda beynəlxalq forum və s. tədbirlər yuxarıda qeyd olunan siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər.

Bu əlaqələrin inkişafında Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyevanın xidmətləri böyükdür. Təsadüfi deyildir ki, Mehriban xanım Əliyeva 2006-cı il noyabrın 24-də ICESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.

İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş Konfransının Bakıda keçirilən XII sessiyasında da qarşılıqlı əlaqələr məsələsi müzakirə edilmişdi. Qeyd edək ki, təşkilatın ali qərarverici orqanı olan Baş Konfrans hər üç ildən bir toplanır. ICESCO-nun ümumi fəaliyyət strategiyasını müəyyən edən Baş Konfrans zamanı təşkilatın fəaliyyət sahələrinə aid olan məsələlərlə bağlı əlaqələndirmə və qiymətləndirmə həyata keçirilir, qurumun növbəti üç il üçün Fəaliyyət planı və büdcəsi təsdiqlənir.

Konfransı giriş sözü ilə açan Azərbaycan Prezidenti İlham Əliyev son illər ərzində ICESCO-nun nüfuzunun artdığını, ICESCO-nun dəstəyi ilə Bakı şəhərinin 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edildiyini və bütün bunların ICESCO-nun Azərbaycana, Azərbaycan mədəniyyətinə və bu gün Azərbaycanın İslam aləmində oynadığı rola verdiyi yüksək qiymətin ifadəsi olduğunu qeyd etdi. Ölkə başçısı sonra dedi: “ICESCO Azərbaycanı daim dəstəkləyir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində ICESCO daim Azərbaycanın mövqeyini, yəni haqq-ədaləti açıq şəkildə dəstəkləyir. Cənab əl-Tuveycrinin çoxsaylı çıxışlarında bu məsələ ilə bağlı birmənalı mövqe nümayiş etdirilir. Buna görə biz ICESCO-ya minnətdarıq, bütün müsəlman aləminə minnətdarıq”.

Azərbaycanın dinlərarası, mədəniyyətlərarası münasibətlərin inkişafına verdiyi töhfələrdən danışan Prezident İlham Əliyev ölkəmizdə ICESCO-nun bilavasitə məşğul olduğu sahələrin uğurla inkişaf etdiyini, mədəni abidələrimizin dövlət tərəfindən qorunduğunu, təhsilə böyük diqqət göstərildiyini, savadlılığın təxminən 100 faizə çatdırıldığını, elmin, yeni texnologiyaların, kosmik sənayenin sürətlə inkişaf etdirildiyini də diqqətə çatdırdı. 2015-ci ildə Bakıda keçirilmiş Avropa Oyunlarının mahiyyətindən danışan İlham Əliyev demişdir: “Birinci Avropa Oyunlarının müsəlman ölkəsində keçirilməsi, hesab edirəm ki, sadəcə olaraq idman məsələsi deyil. Bu, eyni zamanda, dediyim kimi, bizim multikulturalizmə, millətlərarası münasibətlərə verdiyimiz dəyərli töhfə olmuşdur. İki ildən sonra - 2017-ci ildə isə Bakıda İslam Həmrəylik oyunları keçiriləcəkdir. Bax, bu iki hadisə əslində Azərbaycanın hansı mövqelərə malik olduğunu əyani şəkildə göstərir”.

Həmin konfransda ICESCO-nun direktoru Əbdüləziz Osman əl-Tuveycri Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycanın dövlət ordeni olan “Dostluq” ordeni ilə təltif edildi.

Öz çıxışında rəhbərlik etdiyi təşkilatın təhsil, elm, texnologiyalar, mədəniyyət və ünsiyyət sahələrində qlobal elmi mərkəz kimi fəaliyyətindən danışan əl-Tuveycri ICESCO-nun 2016-2018-ci illər üçün tədbirlər planında üç strateji məqsədin qarşıya qoyulduğunu bildirdi. Qeyd etdi ki, bunlar gənclərin İslam aləmində davamlı inkişafa səfərbər olunması üzv dövlətlərin təhsil, elm, mədəniyyət və ünsiyyət sahəsində yürütdükləri siyasətdə keyfiyyətin, idarəçiliyin və bərabərliyin təşviqi, əsas diqqətin insan hüquqlarının, mədəniyyətin təbliğinə, sosial ədalətə və birgə yaşayışa hörmətlə yanaşılmasına yönəltməkdən ibarətdir. ICESCO-nun baş direktoru müasir dünyada və müsəlman aləmində baş verən hadisələrə də münasibət bildirərək dedi: “...Azərbaycan Respublikası işğal olunmuş Dağlıq Qarabağ ərazilərinin birmənalı olaraq azad edilməsinə nail olacaq və işğal altındakı torpaqlar heç vaxt düşmənə nəsib olmayacaq. Biz bu bəyanatı tərəddüd etmədən veririk... Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı bəşəriyyətə qarşı cinayətdir... Vaxt artıq çoxdan yetişib. Bu cür cinayətlərin qarşısı alınmalıdır”.

Konfransda həmçinin bildirildi ki, müzakirə olunan məsələlər müsəlman xalqlarının həyatında inkişafa doğru yeni pəncərə açacaq, qəbul ediləcək qərarlar isə İslam ölkələri arasında əməkdaşlığın daha dərinləşməsinə töhfə verəcəkdir.

**Zümrüd QURBANQIZI,**
**“Respublika”.**

# Multikultural mühitin möhkəmlənməsi dövlət dəstəyinin ifadəsidir

***Azərbaycanın tolerantlıq məkanı kimi beynəlxalq müstəvidə artan nüfuzu mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, bəşəri dəyərləri əsas götürən Prezident İlham Əliyev respublikamızda multikultural mühitin möhkəmlənməsi, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz töhfələrini verməkdədir. Ölkəmiz bütün dünyada sivilizasiyalararası, dinlərarası dialoq məkanı və mərkəzi kimi tanınır.***

Son on ildə Azərbaycan beynəlxalq və regional konfrans, forum, simpozium və beynəlxalq qurumların toplantılarına ev sahibliyi edib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, belə mötəbər tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın qədim dinlərarası ənənələrindən irəli gəlir: “Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır...”

Multikulturalizm dövlətimizin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasətidir. Azərbaycanın tolerantlıq ənənələrinin mədəni, siyasi, sosial mahiyyətinin araşdırılması, respublikadakı dini müxtəlifliyin tolerant əsaslarının elmi müstəvidə təhlili və qorunub saxlanılması, Azərbaycanın əldə etdiyi multikultural nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliği, tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanılmasına dəstəyin göstərilməsi də bu siyasətin əsas prioritet istiqamətlərindəndir.

Respublikamız çoxmillətli və çoxdinli bir ölkədir. Bu ölkənin milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilib. Respublikada dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində də müstəqillik əldə edildikdən keçən son illər ərzində dövlət çox mühüm və ciddi addımlar atmışdır. 1992-ci ildə “Dini etiqad azadlığı haqqında” Qanun qəbul edilmişdir və Azərbaycan Respublikasında vətəndaş hüququna malik olan hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir. Ölkədə dini etiqad azadlığının təmin edilməsi, din-dövlət münasibətlərinin tənzimlənməsi sahəsində də bir sıra islahatlar həyata keçirilir. Ulu öndər Heydər Əliyev 2001-ci il iyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsini yaratdı. Dövlət Komitəsinin əsas vəzifəsi dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməkdən ibarətdir. Hazırda respublika ərazisində 510-dan artıq dini icma qeydiyyatdan keçmişdir ki, bunlardan 32-si qeyri-islam təmayüllü dini icmalardır.

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Respublikada müxtəlif dini konfessiyalar fəaliyyət göstərsə də islam dini üstün mövqe tutur.

Ölkəmizin ərazisində xristianlıq yeni eranın ilk əsrlərində yayılmışdır. Burada ilk xristian icmalarının yaranması da bu dövrə təsadüf edir. Albaniyada xristianlığın yayılmasında bu dövr həvari dövrü adlanır və həvarilərdən Varfolomey və Faddeyin adları ilə bağlıdır. Həvari Faddeyin şagirdlərindən olan Yelisey Aqvan diyarının Kiş adlı yerində Qafqazda ilk xristian kilsəsini inşa etmişdir. 313-cü ildə Roma imperatoru Konstantin xristianlığa etiqad üzərindən qadağanı götürdükdən sonra Alban hökmdarı Urnayr xristianlığı dövlət dini elan etdi. Bu vaxtdan etibarən Azərbaycanda xristianlığın yayılmasının yunanpərəst dövrü başlanır. 4-5-ci əsrlərdə bölgədə ruhanilik və kilsə iyerarxiyası təşəkkül tapır, kilsələr tikilir. Xristianlıq pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif icmalarla təmsil olunmuşdur. Pravoslavlıq Azərbaycanda XIX əsrin əvvəllərindən etibarən rus çarizminin bölgədə yeritdiyi “köçürmə siyasəti” nəticəsində yayılmağa başlamışdır. Bakıda ilk pravoslav kilsəsi 1815-ci ildən fəaliyyət göstərir. 1895-ci ildə Müqəddəs Məryəmin Bakirə Hamiləliyi adlı kilsə, 1903-cü ildə isə Bakı qəbiristanlığında Müqəddəs Xaç kilsəsi tikilir. 1909-1912-ci illərdə Bakının gözəl memarlıq abidələrindən sayılan Müqəddəs Bakirə Məryəmin yeni kilsəsi inşa edilir. Sovet dövründə kilsə dağıdılmışdır. 1999-cu ildə Bakıda Roma-katolik icması yenidən bərpa olunmuş və 2001-ci ildə icma öz ibadət evini yaratmışdır. 2007-ci ildə Azərbaycan Hökuməti ilə Vatikan arasındakı razılığa əsasən, Bakıda Roma Katolik kilsəsi inşa edilmişdir.

2003-cü ildə alban-udi dini icması dövlət qeydiyyatına alınmışdır. Şəkinin Kiş kəndində inşa edilən və Qafqazda, eləcə də bütün dünyada ən qədim məbədlərdən biri sayılan Alban kilsəsi 2003-cü ildə əsaslı şəkildə bərpa olunaraq istifadəyə verilmişdir. 2006-cı ilin may ayında Qəbələ rayonunun Nic qəsəbəsində Müqəddəs Yelisey qədim Alban kilsəsinin yerində Cotari Alban-udi kilsəsinin açılış mərasimi keçirilmişdir. Alban-udi xristian dini etnosuna mənsub olan insanların sayı dünyada 10.000-ə qədərdir ki, onların 6000-i Azərbaycan ərazisində, o cümlədən 4.400-ü kompakt şəkildə Qəbələ rayonunun Nic kəndində yaşayır. Tarixən udilər bizim eradan əvvəl IV əsrdə türk qəbilələri ilə qohumluq əlaqəsində olaraq Qarabağda, Xəzərsahili torpaqlarda yaşamış, sonralar xristianlığı qəbul etmiş və bu dini Qafqaz Albaniyasında yaymışlar. Kiş kilsəsi (Şəki rayonu, Kiş kəndi) ilk xristian kilsəsi, “xristian kilsələrinin anası” hesab olunur. Çar Rusiyası tərəfindən Qarabağa köçürülən ermənilərin hiyləsinə uyan Rusiya çarı 1836-cı ildə fərman imzalayaraq Alban kilsəsini ləğv edir, Alban məbədləri, kilsəyə aid olan bütün avadanlıq və sənədlər erməni apostol kilsəsinə verilir. Bu şəraitdə udilər ya qriqorianlığı qəbul edib erməni olmalı, yaxud dinsiz, kimsəsiz “dərvişlərə” çevrilməli idilər. Lakin onlar misilsiz qəhrəmanlıq göstərib 160 ildən çox bir dövrdə öz dininə, adət-ənənələrinə, tarixi vətəninə sadiq qalmış, erməniləşməmiş, əksinə 1836-cı ildə həyata keçirilən tarixi ədalətsizliyi həmişə aradan götürməyə çalışmışlar.



Respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də Azərbaycan hökumətinin qayğısı ilə əhatə olunur. 2001-ci ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasında “Qafqazın dağ yəhudiləri” mövzusunda beynəlxalq seminar keçirilmiş, 2000-ci ilin sonunda isə dağ yəhudiləri dini icmasının sədri Semyon İxiilov “Şöhrət” ordeni ilə təltif olunmuşdur. 1990-cı ildən respublikamızda “Azərbaycan-İsrail” dostluq cəmiyyəti fəaliyyət göstərir. Bakıda nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın Əməkdar həkimi Solomon Qusman, birinci Qarabağ müharibəsinin Milli Qəhrəmanı Albert Aqarunov və digər tanınmış yəhudi şəxsiyyətlərinin yaşadıqları binalarda xatirə lövhələri qorunub saxlanılır. Azərbaycandakı yəhudilərə göstərilən ehtiramdan söhbət açarkən, “Krasnaya sloboda” qəsəbəsini də qeyd etmək lazımdır. Bura sovetlər məkanında yəhudilərin yığcam yaşadığı yerlərdəndir. Azərbaycanda sovet hakimiyyətinin qurulmasına qədər qəsəbədə 11 sinaqoq var idi. Sovet dövründə onlardan yalnız biri fəaliyyət göstərirdi. 1996-cı ildən sonra dövlət tərəfindən daha iki sinaqoq yəhudi icmalarına qaytarılmışdı. 2001-ci ildə ikimərtəbəli, altı gümbəzli sinaqoq binası bərpa olundu.

Azərbaycanda 3 yəhudi icmaları - dağ yəhudiləri, Avropa yəhudiləri (aşkenazi) və gürcü yəhudiləri icmaları mövcuddur. Dağ yəhudiləri hazırda ölkədəki yəhudi diasporu arasında çoxluq təşkil edir. Onların dili tat dilidir, lakin danışıqlarında çoxlu türk, fars və rus sözləri vardır. Məlumatlara görə, dağ yəhudilərinin Qafqaza gəlməsi e.ə. 1-ci əsrə aid edilir.

Qeyd edək ki, Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Azərbaycanda 19-cu əsrdən məskunlaşmağa başlamış Avropa yəhudilərinin əksəriyyəti Bakıda və Sumqayıtda yaşayırlar. Gürcü yəhudilərinin icması sayca kiçikdir. 1997-ci ildə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. Yəhudilər Azərbaycanda 2500 ildən artıqdır ki, məskunlaşmışlar. Onlar ölkəmizdə heç vaxt dini dözümsüzlüyə və ayrı-seçkiliyə məruz qalmamışdır.

Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Respublikada bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

**Bəybala BƏYBALAYEV,**
**“Respublika”.**

# Torpağına baş əyirik, ey Vətən!..



**Şəhidlər xiyabanında sıralanan şəhid məzarlarının önündən adi seyrçi kimi ötüb keçə bilmirsən. Xəyalın qanadları alıb o çağlara aparır səni. Tarixin qara səhifələri vərəq-vərəq çevrilir. Bu anda unudulmaz Əbdülhaq Hamidin qızıl kəlmələri yada düşür. Sanki o, dahi sərkərdənin müdrik deyiminin davamı olaraq yazmışdı: "Torpaq uğrunda ölən varsa, - Vətəndir!".**

Əsrlər boyu torpaq uğrunda şəhid olanlarımızın sayı bilinməz. Bu günədək də Vətənləşən doğma torpağımız məhz belələrinin qanı bahasına bizlərə ərməğandır. Bu misilsiz varidatı qorumaq istəyi idi ki, 1990-cı ilin yanvarında insanlarımız şəhidlik zirvəsinə yüksəlməyə can atdılar. Nə yaxşı ki, dünyada sən varsan Vətən! Üstündə dayandığımız torpaq bizimdir. Və bu torpaq millətimizin, azərbaycanlıların mövcudluğunun, varlığının təsdiqidir.

Mənim doğma dilim var və o, ulularımızın bizlərə misilsiz varidatıdır. Bayrağım, himnim, sərhədlərim və bir də onları qoruyan güclü ordum var! Milləti-millət, xalqı-xalq, dövləti-dövlət edən atributlarımız. Sənə qovuşmaq üçün gedən yol heç də asan olmadı. Xoşbəxtik!.. Alnına döyüş yazılan, hər sınaqdan zəfərlə çıxan, 30 illik torpaq nisgilinə 44 gündə son qoyan xalqın nümayəndəsiyik.

Bəşər tarixində Şərq intibahı kontekstində iki dəfə - XII və XX əsrlərdə intibah dövrünü yaşayan, Azərbaycan! Bu, heç də hər xalqa, məmləkətə nəsib olan səadət deyil. Biz bu misilsiz xoşbəxtliyə qovuşmuş xalqın təmsilçiləriyik.

Bir əsrdə iki dəfə azadlığına qovuşan, nəhayət sərkərdələrinin gücü, iradəsilə onu əbədi, dönməz edən, kimin-kim olduğunu dünyaya göstərən Azərbaycanın vətəndaşlarıyıq...

Bu gün rahat yaşaya biliriksə, böyük qələbəmizin sevinc payını dadırıqsa, dünya durduqca qəhrəman oğullarımıza - şəhidlərimizə, qazilərimizə, dövlətimizə, onun başçısı, Ali Baş Komandana, qeyrətli babalarımızın bizə əmanət qoyduğu yurd yerimizi qoruyanlara borcluyuq.

Dünyada elə xalqlar var ki, milli intibahı, yeniləşmə metodunu anlaya bilməmiş, düşüncə və elm kasıblığı ucbatından dolayı şablonçuluğu hələ də davam etdirməkdədir. Ona görə də o xalqlar tərəqqidə yol qət etmiş ölkələrlə müqayisədə xeyli geridə qalırlar. Bizim yenilənmə tariximiz isə indi dünyanı idarə edən böyük güclərin bir çoxunun tarixindən daha qədimdir. Əsrlər boyu müxtəlif dövlətlər qurmuş, mədəniyyətlər yaratmış xalqımız, nəhayət, keçən əsrin əvvəllərində Azərbaycanın unudulmayan ən şanlı bir gününü-1918-ci ilin 28 mayını müstəqillik günü olaraq yaşadı. Azərbaycanın istiqlal günü milyonlarla soydaşımızın sevinc günü, şəhidlərimizin iftixar günü, vətənimizin qamətini qaldıraraq dünyaya öz gözüylə baxdığı fərəh günü, ağzıdualı ağsaqqallarımızın, ağbirçək nənələrimizin əllərini səmaya yüksəldərək böyük Yaradana həmd günü idi...

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Əlbəttə, müstəqillik bir millətin ümid üfüqlərinin genişlənməsi, mənəvi səfalətlərdən qurtulması, ruhani rəzalətdən uzaqlaşmasıdır və bu mənada xalqımız da illərin boşluqlarını doldurmağa çalışdı. Müstəqil Azərbaycan dövləti milli ayrıseçkiliyi, təfriqəçilik ənənələrini, məzhəb ayrılığını rədd edən, milli bütövlüyü, bütün vətəndaşların siyasi hüquqlarını, mədəni haqlarını təsdiqləyən inkişafı isə mənəviyyata bağlı elmdə gördü. Bu inkişafsa çox qısa zamanda azad seçkisindən milli ordusuna, beynəlxalq əlaqələrə qədər hər bir sahəni əhatə etdi. Lakin iki yaşına çatmadan bolşevik hücumuna məruz qaldı və devrildi. Ancaq xalqımız "Bir kərə yüksələn bayraq, bir daha enməz" kəlamını özünə əbədi şüara çevirdi. Nəhayət, Sovet imperiyasının süqutunu münasib zaman kimi dəyərləndirərək 1991-ci ildə yenidən istiqlal marşını oxumaq şərəfinə nail oldu.

Təbii ki, bu illəri böyük bir ağrı, Qarabağ dərdi ilə yaşamalı olduq. Ölkə başçısı İlham Əliyev hakimiyyətə gəlişinin ilk illərindən Qarabağ düyününü beynəlxalq qanun çərçivəsində, sülh yolu ilə açmağa ciddi səy göstərirdi. Eyni zamanda müstəqilliyin kövrək addımlarını möhkəmləndirməyə, güclü dövlət yaratmağa çalışırdı. Nəhayət, Prezident İlham Əliyev xalqın iradəsinə, dövlət ətrafında sıx birliyinə arxalanaraq Qarabağ problemini müharibə ilə yoluna qoydu: 44 gün ərzində Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi, tarixi qələbə qazanaraq Qarabağı işğaldan azad etdi: "Dağlıq Qarabağ Azərbaycanın rayonlarından biridir, ona ayrıca status verilməsi qeyri-mümkündür"- deyən Ali Baş Komandan düşmənin bu arzusunu da gözündə qoydu. 30 il əsarətdə qalan Vətənin azadlığı yolunda şəhidlər verdik. Tökülən qanlar hesabına o torpaqlarda bayrağımızı ucaltdıq. Şəhid oğullarımız, qazilərimiz sübut etdi ki, bayrağımız sadə bir əsgi parçası deyil və onlar tökülən qanlarıyla onun hər bir rəngini əbədiləşdirdilər.

*Şuşamızın, Qarabağımızın azad edilməsi, Natəvanın, Üzeyirin, Bülbülün yurd-yuvasına qaytarılması ilə tariximizin yeni, möhtəşəm bir mahnısı - Qarabağ nəğməsi yarandı!*




Şuşanın işğalından sonra güllələnən, sonra sökülərək Ermənistana aparılıb bir müddət "əsir saxlanılan", nəhayət ulu öndər Heydər Əliyevin ciddi səyi nəticəsində vətənə gətirilən dahi Üzeyirin, Bülbülün, Xan qızı Natəvanın heykəlləri öz yerinə qaytarıldı. Heykəl güllələmək, onu deşik-deşik etmək mənəvi-əxlaqi eybəcərliyin, qəddarlıq və vəhşiliyin ən rəzil örnəyidir ki, bu murdarlıq da bütün dünya xalqları içərisində yalnız ermənilərə məxsusdur. Şuşamızın, Qarabağımızın azad edilməsi, Natəvanın, Üzeyirin, Bülbülün yurd-yuvasına qaytarılması ilə tariximizin yeni, möhtəşəm bir mahnısı-Qarabağ nəğməsi yarandı!

Qarabağın işğaldan azad olunması - tarixi həqiqətin zəfər nəğməsidir və bu nəğmənin müəllifi Azərbaycan ordusu, yenilməz Azərbaycan xalqı, baş qəhrəmanı Ali Baş Komandan İlham Əliyev, leytmotivi isə onun "Qarabağ Azərbaycandır!" şüarıdır...

Mayın 11-də Şuşanın Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalı o gün dünyaya əbədi bir mesaj oldu. Onu qayıdış, ləyaqət, birlik bayramı adlandıran dövlət başçısı: "... Bu il uzun fasilədən sonra birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq...".

Həmin gün Zəfər nəğməmizin səsi bütün dünyada eşidildi. Eşitmək istəməyənlər də eşitməyə məcbur oldu, ikili standartla yaşayan dünyanın kar qulaqlarını batırdı. Qürurluyuq, çünki, bu gün dünyaya Günəş kimi doğan Azərbaycanın övladlarıyıq! Günəşin əbədiliyinə isə şübhə yoxdur... Nə qədər varıq, torpağına baş əyirik, ey vətən!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# "Böyük Qayıdış"ın sevinc əks-sədası

## *Otuz illik həsrətə qırx dörd gündə qovuşan arzular*

Otuz ilə yaxın göz yaşları gündüzlər ürəklərinə, gecələr üzlərinə axan, torpaqları erməni vandallarının işğalında olan insanlar o arzuların həsrəti ilə yaşayırdılar. Nəhayət, o həsrətə, o göynərtilərə son qoyulub. Qarabağ torpaqlarına yeni nəfəs gəlib, yenidən bu ocaqlar əsarətdən qurtulan qucaqlarını doğma övladlarına açıb. O qucağın istisinə tələsənlər bu gün respublikamızın müxtəlif guşələrində məskunlaşıblar. Ordumuzun rəşadəti, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, qüdrətli siyasəti sayəsində qırx dörd gündə qazanılan qələbə ilə işğaldan azad olunan torpaqlarda indi geniş miqyasda quruculuq, tikinti işlərinə başlanıb. Qarabağın gözü, bütün dünyaya səs salan ən gözəl guşələrindən olan Ağdamdakı böyük canlanma, coşğunluq da bunu aydın göstərir. Bütün ölkə, o cümlədən öz doğma ocaqlarından didərgin düşənlər bu coşqunluğa, qaynarlığa, işgüzarlığa hamılıqla qoşulub. Bir sözlə, işğaldan azad olunan Qarabağ torpaqlarına başlanan "Böyük Qayıdış"ın doğurduğu sevincin əks-sədası hər yandan eşidilir. Aşağıda bu sevincli günləri yaşayan Ağdam sakininin ürək sözlərini təqdim edirik.

**Tahir Məmmədov, Ağdam Rayon İcra Hakimiyyətinin Oğuz rayonunda olan səlahiyyətli nümayəndəsi:**

- Bəli, bu sevincdən bütün məcburi köçkünlər kimi, biz ağdamlılara da böyük pay düşür. Biz hədsiz sevinirik, amma kədərlərimiz də olmamış deyil. Öz gözəlliyi, var-dövləti, bol sərvətləri ilə dünyanı heyran qoyan Qarabağımızda olan rayonlarımızın hamısının, o cümlədən sakini olduğum Ağdamın erməni vandalları tərəfindən başdan-başa darmadağın edilməsidir bizi kədərləndirən. "Böyük Qayıdış"a hədsiz sevinirik. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin böyük səyi ilə indi o torpaqlarda, o cümlədən Ağdamda aparılan quruculuq işləri bir daha göstərir ki, dövlətimiz öz qüdrətini, gücünü dünyaya nümayiş etdirir, öz cəsarətini, dönməzliyini əməli fəaliyyəti ilə təsdiqləyir. Demək olar, yerlə yeksan edilən Ağdam indi daha yaraşıqlı, daha möhtəşəm qurulur. Prezidentimiz Ağdamda olarkən etdiyi çıxışlarının hamısında bu fikirləri dönə-dönə vurğulamış, bu yerlərin yenə dünyanın ən gözəl məkanı olacağını bildirmişdir. Dövlət başçısının bu sözləri, bu diqqət və qayğısı bizim otuz il yanıb yaxılan ürəklərimizə böyük təskinlik gətirir, yeni qurulan Ağdamın sakinləri olacağımızdan böyük qürur duyuruq. Bunun üçün Oğuz rayonunda müvəqqəti məskunlaşan bütün ağdamlılar dövlət başçısına hədsiz minnətdarlıqlarını bildirir, öz sevgi və məhəbbətlərini ifadə edirlər.



Ağdamın o ürək göynədən görüntülərini televiziya ekranlarından gördükdə çox kədərlənmişəm. Şəhərin lap mərkəzində, Cümə məscidinin yanında, Musəvi küçəsi 28-dəki dördmərtəbəli binada yaşayırdıq. Biz oradan çıxanda uşaqlarımın birinin 1, digərinin 6 yaşı vardı. Elə o vaxtdan Oğuzdayıq. Burada bizim yaşamağımız, işləməyimiz, dolanışığımız üçün lazımi şərait yaradılıb. Həmişə oğuzlulardan, onun rəhbər qurumlarından yüksək diqqət və qayğı görmüşük. Müharibənin qələbəmizlə başa çatması xəbərinin bu rayonda da doğurduğu böyük sevincin əks-sədasını ifadə etməkdə çətinlik çəkirəm. Oğuzlular həm qələbəyə, həm də biz məcburi köçkünlərin otuz il ağlayan ürəklərinə gətirilən sakitliyə görə hədsiz sevinirdilər. Sevinirdilər ki, qüdrətli dövlətimiz dünyanın tanınan dövlət və siyasi xadimləri ilə bir sırada adı böyük qürurla çəkilən Prezidentimiz İlham Əliyev bir daha ölkəmizin gücünü dünyaya nümayiş etdirdi.

**Rasim AMANOV,**
**"Respublika".**

# AĞDAMLILARIN YURD HƏSRƏTİ SONA ÇATIR

**Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunan regionlara etdiyi səfərlərin hər biri xalqımıza yeniliklər bəxş edir.**



May ayının 28-də dövlət başçısının Ağdama səfəri zamanı bir neçə təməlqoyma mərasimində iştirak etməsi bunu sübut edir.

Lakin bu, tarixi bir səfər kimi, ağdamlıların yaddaşında əbədi qalacaqdır. Çünki 30 ildən sonra ağdamlıların ata-baba yurdlarına dönüşləri reallaşır.

Bu günlərdə yolumuzu ağdamlıların da yaşadığı Tərtər rayonunun Şıxarx qəsəbəsindən saldıq. Bu şəhərtipli qəsəbə dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə ermənilərin törətdiyi vəhşiliklər nəticəsində yurd-yuvasını tərk etməyə məcbur olan insanlar üçün qurulmuşdur.

Şıxarx müasir tələblərə tam cavab verən bir şəhərcikdir. 2018-ci ildə dövlət başçısı İlham Əliyev qəsəbənin açılışını etmişdir. Biz qəsəbədə yaşayan ağdamlılarla həmsöhbət olduq. Qəsəbədə əslən Ağdamdan olan 769 ailə evlə təmin olunmuşdur. 1955-ci ildə Ağdam rayonunun Əliağalı kəndində anadan olmuş ziyalı Tofiq Hacıyev bizimlə səmimi söhbət etdi. O, ömrünün 45 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Hazırda Tərtər rayon Sarvan Quliyev adına Şıxarx 2 nömrəli tam orta məktəbinin direktoru vəzifəsində çalışır. T.Hacıyevlə söhbət zamanı bildirdi ki, Ağdam işğal olunanadək doğma kəndində pedaqoji sahədə çalışıbdır. Ağdamdan çıxanda 4 nəfər ailə üzvü olmuş, indi isə ailəsi 7 nəfərdən ibarətdir.

2017-ci il 28 noyabr tarixində Şıxarx qəsəbəsinin açılışında dövlət başçısının dediyi "çox yaxın zamanlarda hamı öz doğma ata-baba yurdlarına qayıdacaqdır və buna tam əmin ola bilərsiniz", fikri Tofiq müəllimin yaxşı yadındadır.

Bəli, bu gün dövlət başçımız öz vədini yerinə yetirdi. Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu mənfur düşməni iti qovan kimi qovaraq müqəddəs torpaqları işğaldan azad etdi. Dövlət başçısı İlham Əliyevin 28 may tarixində doğma Ağdama səfəri zamanı ona Ağdam şəhərinin baş planı təqdim olundu. Həmin vaxt efirdə təməlqoymanı izlədikdə bütün ağdamlılar kimi, mənim də sevincimi sözlə ifadə etmək mümkün deyildi. O anda qeyri-ixtiyari olaraq gözlərimdən sevinc yaşları axdı.



Prezident ictimaiyyət nümayəndələri ilə görüşü zamanı dedi: "İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntını uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpaqlarımızdan qovacağıq və buna nail olduq".

Tofiq müəllim qeyd elədi ki, Ağdamda icra olunacaq layihələrdə təhsilin inkişafına da xüsusi diqqət yetirilir. Rayonda Qarabağ Universitetinin yaradılması, eyni zamanda 15 təhsil müəssisəsinin tikintisi də yer almışdır. Ağdamda təhsilin, incəsənətin, mədəniyyətin və insanların inanc yerlərinin bərpası üçün genişmiqyaslı infrastruktur layihələr həyata keçiriləcəkdir.

Hazırda qəsəbədə bizə verilən evlər geniş, işıqlı, bir sözlə bütün standartlara cavab verir. Əgər bizə dünyanın ən gözəl məkanında bundan yaxşı evlər verilsə belə, Ağdam torpağı bizim üçün ən müqəddəs bir məkandır. Çox böyük səbirsizliklə doğma torpağımıza dönəcəyimizi gözləyirik. İnanırıq ki, bu qayıdış çox yaxın zamanlarda baş verəcəkdir.

Qəsəbədə yaşayan ağdamlılar cəhd edirdi ki, bizimlə həmsöhbət olsunlar. Rayonun Maqsudlu kənd sakini Məmmədov Saleh qəsəbədə ailəsi ilə birlikdə 2 otaqlı evlə təmin olunmuşdur. O, deyir ki, Ağdamdan çıxanda cəmi 13 yaşım var idi. Elə bilirdim ki, 2-3 günə evimizə qayıdacağıq. Lakin bu qayıdış çox uzun çəkdi. Qayğısız uşaqlıq və yeniyetməlik illərimin keçdiyi Maqsudlu kəndini vəhşi ermənilər tamamilə dağıtmışlar. S.Məmmədovun oğlu hazırda hərbi xidmətdədir. Özü isə qəsəbədə çilingər işləyir.

Növbəti həmsöhbətimiz Ağdamın Şotlanlı kənd sakini Rizvan Əliyev oldu. O, qeyd etdi ki, Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğıdan hədsiz məmnunuq. 2 otaqlı gözəl evlə təmin olunmuşuq. Lakin doğulduğum Şotlanlı kəndinin quru torpağına da qayıtmağa razıyam. Dövlət başçımızın biz ağdamlılara yaşatdığı sevinc heç nə ilə əvəz oluna bilməz. Qeyd etmək lazımdır ki, Rizvan Əliyevin qardaşı 1993-cü ildə şəhid olmuşdur.

Şotlanlı kəndinin digər sakini Kamil Dünyamalıyev qəsəbəyə köçənədək Tərtər rayonunun İsmayılbəyli kəndində yol kənarında çiy kərpicdən tikilmiş kiçik bir tikilidə yaşadığını dedi. 2018-ci ildən yeni qəsəbədə 3 otaqlı, şəraitli evlə təmin olunmuşdur. Onun 2 qardaşı 1992-ci ildə Ağdərədə gedən şiddətli döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmışdır. K.Dünyamalıyev vurğuladı ki, torpaqlarımızın, o cümlədən Ağdamın işğaldan azad olunması ilə şəhidlərimizin qisası alındı, onların ruhu indi şaddır.

Ağdamlılar əmindirlər ki, güclü iqtisadiyyata malik olan Azərbaycan dövləti işğaldan azad olunan torpaqları, o cümlədən Ağdamı da əsl cənnətə çevirəcəkdir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# ADA Universitetində "Azərbaycanın Avratlantik məkanın sülh və təhlükəsizliyə töhfəsi" mövzusunda konfrans keçirilir





**ADA Universitetində "Azərbaycanın Avratlantik məkanın sülh və təhlükəsizliyə töhfəsi" mövzusunda konfrans keçirilir.**

AZƏRTAC xəbər verir ki, konfrans Latviyanın Azərbaycanda səfirliyi, NATO-nun Azərbaycanda əlaqələndirici səfirliyi və ADA Universiteti tərəfindən təşkil olunub.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Latviyanın Azərbaycandakı səfiri Dainis Qarants, NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiyada xüsusi nümayəndəsi Ceyms Apaturay, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqer, Latviyanın sabiq müdafiə naziri və Latviyanın NATO parlament assambleyasında nümayəndə heyətinin üzvü Raymonds Bergmanis, İtaliyanın tanınmış tədqiqat mərkəzi olan Beynəlxalq Münasibətlər İnstitutunda Cənubi Qafqaz üzrə tədqiqatçı Svante Kornell və digərləri çıxış ediblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan NATO ilə münasibətlərin inkişafı üzrə fəal təşəbbüslərlə çıxış edib. Azərbaycanla NATO arasında siyasi dialoq ən səmərəli mexanizmlərdəndir. Ölkəmiz təşkilatla əməkdaşlıq və dialoqun daha da genişlənməsini istəyir.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan NATO-nun regional sabitliyi, təhlükəsizliyi diqqətlə izləməsini və birbaşa müdaxilə etməməsini yüksək qiymətləndirir. Azərbaycan postmünaqişə dövründə regional əməkdaşlıqda maraqlıdır və Zəngəzur dəhlizi regionda əməkdaşlığın uğurlu nümunəsinə çevrilə bilər.

Azərbaycanın beynəlxalq təhlükəsizliyin təmin olunmasında NATO-nun rolunu alqışladığını vurğulayan Hikmət Hacıyev bildirib ki, ölkəmiz təşkilatla mövcud sazişlərin tərəfdaşlıq prinsiplərinə sadiqdir.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan beynəlxalq münasibətlərin inkişafına böyük əhəmiyyət verir. "Azərbaycan Qoşulmama Hərəkatından beynəlxalq sülh və təhlükəsizliyə töhfə vermək üçün istifadə edir. Biz xüsusilə COVİD-19-dan sonra yaranmış reallıqlar nəzərə alınmaqla, beynəlxalq münasibətlərdə sabitliyin təmin olunması üçün dəyərlərə, əməkdaşlığa diqqət veririk", - deyə Hikmət Hacıyev əlavə edib.

Amerika Birləşmiş Ştatlarının Azərbaycanda səfiri Örl Litzenberqer çıxışında ölkənin Əfqanıstandakı fəaliyyəti üçün hər cür dəstək göstərməyə hazır olduğunu bildirib. Litzenberqer qeyd edib ki, bu məsələdə ABŞ Azərbaycana logistik dəstək göstərmək, həmçinin təcrübə mübadiləsi aparmağa hazırdır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai Qarabağ münaqişəsinə toxunaraq vurğulayıb ki, tərəflər sülh danışıqlarına tezliklə başlamalıdır. O, əfqan və azərbaycanlı qaçqınların oxşar talelərinin olmasını, hər iki ölkənin vətəndaşlarının müharibə zonasındakı dağıntılardan əziyyət çəkdiyini bildirib.

Konfransda çıxış edənlər Əfqanıstanda sülhməramlı fəaliyyətinə görə Azərbaycana təşəkkür ediblər.

Tədbir çərçivəsində Azərbaycanda yaşayan əfqan qaçqınların əl işlərindən ibarət sərgi də təşkil olunub.





**AZƏRTAC**

# Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Şuşa Bəyannaməsinin imzalanması ilə əlaqədar bəyanat yayıblar

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar bəyanat yayıblar.**

**AZƏRTAC bəyanatı təqdim edir. Bəyanatda deyilir:**

"2021-ci il iyunun 15-də - tarixi Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi böyük tarixi və strateji əhəmiyyətə malikdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi bu Bəyannamə iki qardaş ölkə arasındakı bütün strateji əlaqələri ən yüksək səviyyəyə qaldırır. Azərbaycan-Türkiyə münasibətlərinin bu şəkildə inkişafı dostlarımızı sevindirir, ölkəmizin güclənməsini, rifahını və təhlükəsizliyini istəməyənləri isə məyus edir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirən Şuşa Bəyannaməsinin mühüm tarixi və strateji əhəmiyyət kəsb etdiyini bildiririk.

Bəyannamədə milli mənafelər baxımından siyasi, hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş və birgə fəaliyyətlərin təşviq edilməsi xüsusi yer tutur. Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, beynəlxalq hüquq kontekstində bu təhdid və ya təcavüzün aradan qaldırılması istiqamətində birgə fəaliyyət göstərilməsini dəstəkləyirik.

Şuşa Bəyannaməsində Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsini yüksək dəyərləndiririk.

Milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, iqtisadi əlaqələrə böyük töhfə verəcək, Azərbaycan ilə Türkiyəni birləşdirəcək Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri, həmçinin Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətinin əlaqələndirilməsi təşəbbüslərini alqışlayırıq.

Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən uca zirvəsinə yüksəlib. Xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər ortaq dəyərlərə, sıx bağlara malik olması ölkələrimizi həmişə bir-birinə yaxın edib, xalqlarımız sevincli, kədərli günlərdə daim bir-birinin yanında olub. Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal altındakı torpaqların düşməndən azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımızın hər bir nümayəndəsi və siyasi partiya üzvləri tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region ölkələri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri dünya dövlətləri üçün ən gözəl nümunədir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsini ölkələrimizin keyfiyyət baxımından yeni əlaqələrinin inkişafı və hər iki ölkənin gələcək birgə fəaliyyətinin vacib əsası hesab edir və bu yüksək strateji müttəfiqlikdə dövlətimizin yanında olduğumuzu bəyan edirik.

Yaşasın Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı!

**1. Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov**
**2. Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı**
**3. "Ana Vətən" Partiyasının sədri Fəzail Ağamalı**
**4. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev**
**5. Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa**
**6. Vəhdət Partiyasının sədri Tahir Kərimli**
**7. Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev**
**8. Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə**
**9. Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev**
**10. Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev**
**11. REAL Partiyasının sədri İlqar Məmmədov**
**12. Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağa-zadə**
**13. Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev**
**14. Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn**
**15. Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu**
**16. Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev**
**17. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev**
**18. Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə**
**19. Ağ Partiyasının sədri Tural Abbaslı**
**20. "Ədalət" Partiyasının sədri İlyas İsmayılov**
**21. Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov**
**22. Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev**
**23. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev**
**24. Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər**
**25. Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev**
**26. "Milli Vəhdət" Partiyasının sədri Yunus Oğuz**
**27. Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli**
**28. Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov**
**29. Azərbaycan Sosial Demokrat Partiyasının sədri Araz Əlizadə**
**30. Yeni Zaman Partiyasının sədri Musa Ağayev**
**31. Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova**
**32. Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev**
**33. Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov**
**34. "Birlik" Partiyasının sədri Xudadat Xudiyev**
**35. Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov**
**36. Azərbaycan Respublikaçılar Partiyasının sədri Sübut Əsədov**
**37. Azərbaycan Azad Respublikaçılar Partiyasının sədri Kamil Seyidov**
**38. Azadlıq Partiyasının sədri Əhməd Orucov**
**39. Azərbaycan Təkamül Partiyasının sədri Teyyub Qənioğlu**
**40. Azərbaycan Milli Demokrat Partiyasının sədri Tufan Kərimov**
**41. Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan**
**42. "Qorqud" Partiyasının sədri Firudin Kərimov**
**43. Milli Demokrat İdrak Partiyasının sədri Osman Əfəndi**
**44. Milli Konqres Partiyasının sədri İxtiyar Şirinov**
**45. Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu**
**46. Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimov**
**47. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev, Rauf Qurbanov**
**48. "Azərbaycan Mübarizləri" Partiyasının sədr müavini Səadət Müslümova".**

**AZƏRTAC**

*Leyla Abdullayeva:*

# Ermənistan XİN-nə üçtərəfli Birgə bəyanatların icrasına yönəlik addımlar atmalarını tövsiyə edirik



**Əvvəlcə qeyd etmək istərdik ki, qonşu ölkələrin rəhbərlərinin səfərini şərh etmək Ermənistan Xarici İşlər Nazirliyinin həddi deyil. Qeyd etdiyiniz açıqlamaya gəldikdə isə, hazırda Ermənistan XİN-də rəhbərliyin olmadığını nəzərə alaraq, bu qurumda qalanların və bu açıqlamanı hazırlayanların nəzərinə çatdırmaq istərdik ki, ölkə öz ərazilərini işğal edə bilməz, yalnız işğaldan azad edər. Elə 44 günlük Vətən müharibəsi nəticəsində də Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və ərazi bütövlüyünü təmin etdi.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-in Ermənistan XİN-i Azərbaycan və Türkiyə prezidentlərinin Şuşa səfərini sülh və təhlükəsizliyə təxribat kimi qiymətləndirməsinə və "Türk-Azərbaycan təcavüzü" ifadəsini işlətməsinə münasibət bildirərkən ifadə edib.

Leyla Abdullayeva bildirib: "Ermənistan XİN-nə öz ölkələri də daxil olmaqla, üç ölkə liderləri tərəfindən imzalanmış Birgə bəyanatlarla yaxından tanış olmalarını, bu bəyanatların icrasına yönəlik addımlar atmalarını tövsiyə edirik. Ermənistanın illüziyalara söykənərək deyil, real vəziyyəti dərk edərək davranması gərəkdir. Azərbaycan və Türkiyə prezidentlərinin Şuşada imzaladığı Birgə Bəyannamə də məhz sülh və təhlükəsizliyin, yeni əməkdaşlıq imkanlarının təşviq edilməsinə yönəlib".

**AZƏRTAC**

# Azərbaycan PATA-nın beynəlxalq tədbirlərinə ev sahibliyi etməyə hazırdır

**Azərbaycan Asiya-Sakit Okean Turizm Assosiasiyasının (PATA) təşkilatçısı olduğu beynəlxalq tədbirlərə ev sahibliyi etməyə hazırdır.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid iyunun 15-də Asiya-Sakit Okean Turizm Assosiasiyasının (PATA) Baş icraçı direktoru Liz Ortiquera ilə keçirilən onlayn görüşdə deyib.

Florian Zenqstşmid Azərbaycanın PATA-ya üzvlüyünün növbəti illərdə də davam etdirilməsinin planlaşdırıldığını və təşkilatın fəaliyyətində geniş iştirak ediləcəyini bildirib.

Xanım Liz Ortiquera beynəlxalq assosiasiya olaraq Azərbaycanın Asiya və Sakit Okean regionu üzrə marketinq fəaliyyətinə dəstək göstərmək niyyətində olduqlarını qeyd edib.

Qeyd edək ki, Azərbaycan Turizm Bürosu PATA-ya 2019-cu ildən etibarən üzvdür.

Beynəlxalq turizm təşkilatı olan PATA Asiya və Sakit Okean regionu üzrə qarşılıqlı təcrübə mübadiləsi və əməkdaşlıq imkanları yaradaraq üzv dövlətlərin turizminin inkişafına dəstək vermək məqsədini daşıyır.

Dünya üzrə 95 dövlət təşkilatı, 27 beynəlxalq hava yolu şirkəti, hava limanı və kruiz təşkilatı, 108 qonaqpərvərlik şirkəti, 68 təhsil müəssisəsi və yüzlərlə turizm şirkəti daxil olmaqla, ümumilikdə 800-dən çox üzvə malik olan təşkilat 1951-ci ildən etibarən fəaliyyət göstərərək beynəlxalq turizm platforması rolunu oynayır.

**AZƏRTAC**

*Operativ Qərargah:*

# İyunun 21-dən daha bir sıra ölkələrin vətəndaşlarının Azərbaycana səfər etməsinə icazə veriləcək

**İyunun 21-dən daha bir sıra ölkələrin vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə səfər etməsinə icazə veriləcək.**

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatında bildirilir. Məlumatda deyilir:

"Ölkəmizdə həyata keçirilən sistemli tədbirlər, həmçinin uğurlu vaksinasiya proqramı nəticəsində Azərbaycanda epidemioloji vəziyyət yaxşılaşmaqda davam edir.

Bununla əlaqədar, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq, 10 iyun tarixindən epidemioloji vəziyyəti sabit olan bir sıra ölkələrin vətəndaşları üçün hava yolu ilə Azərbaycan Respublikasının ərazisinə səfərlərdə yumşalmalar tətbiq edilib.

Vaksinasiyanın əhatəlilik dairəsinin daha geniş olduğu ölkələrdə epidemioloji vəziyyətin davamlı surətdə yaxşılaşdığını nəzərə alaraq, iyunun 21-dən aşağıda qeyd olunan ölkələrin vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə səfər etməsinə icazə verilir:

-ABŞ
-Bəhreyn
-Birləşmiş Ərəb Əmirlikləri
-Böyük Britaniya
-İsrail
-Macarıstan
-Qətər

Qeyd olunan ölkələrin vətəndaşlarının Azərbaycan Respublikasına səfər etməsi üçün aşağıdakı tələblər gözlənilməlidir:

-yaşı 18-dən yuxarı olan sərnişinlərin tam vaksinasiya olunması və ya COVİD-19 xəstəliyindən sağalması barədə müvafiq ölkənin verdiyi rəsmi sənədin (COVİD Pasport) və uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVİD-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən rəsmi sənədin təqdim olunması;

-1 yaşdan 18 yaşadək olan sərnişinlərin uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVİD-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən rəsmi sənədin təqdim olunması.

Yaşı 1 yaşdan aşağı olan uşaqlar üçün COVİD pasport və PCR test nəticələrinə dair sənədlər tələb olunmur.

Azərbaycan Respublikasına birbaşa uçuşlar icra edən bütün aviadaşıyıcılar yalnız müvafiq tələblərə cavab verən sərnişinləri qeydiyyata almalıdırlar.

Azərbaycan ərazisinə daxil olarkən sərhəd nəzarətindən keçdikləri zaman müəyyən edilmiş tələblərə cavab verməyən sərnişinlər ölkə ərazisinə buraxılmır və aviadaşıyıcının hesabına həmin reyslə geri qaytarılır".

**AZƏRTAC**

# AZƏRTAC və Anadolu agentlikləri arasında əməkdaşlıq yeni müstəviyə keçir





**İyunun 15-də qardaş Türkiyənin aparıcı Anadolu Agentliyinin baş direktoru Serdar Karagöz AZƏRTAC-da olub.**

Əvvəlcə Serdar Karagöz və AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov Kəlbəcərdə mina partlayışı nəticəsində həyatlarını itirən AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimova və Azərbaycan Televiziyasının operatoru Sirac Abışova həsr olunan guşəni ziyarət edərək şəhid jurnalistlərin xatirəsini ehtiramla yad ediblər.

Agentlik rəhbərlərinin görüşündə AZƏRTAC və Anadolu arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi məsələləri müzakirə olunub. Qeyd edilib ki, iki qardaş ölkə olan Azərbaycan və Türkiyə hazırda bütün sahələrdə əməkdaşlığı dərinləşdirmək yolunu seçib. Buna uyğun olaraq, iki ölkənin agentlikləri arasında əməkdaşlıq da yeni müstəviyə keçir. AZƏRTAC və Anadolu agentliklərinin çoxillik münasibətlərinin genişləndirilməsi müasir çağırışlara birlikdə daha tutarlı cavab vermək imkanları açır.

"Bu gün tarixi gündür. Azərbaycanda 15 İyun - Milli Qurtuluş Günü qeyd olunur. Eyni zamanda, Şuşada Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın tarixi görüşü keçirilib, iki ölkə arasında müttəfiqlik haqqında Birgə Bəyannamə imzalanıb. Bu, ölkələrimizin dünyaya nümunə olan qardaşlıq, dostluq, strateji tərəfdaşlıq münasibətlərinin daha bir göstəricisidir. Anadolu Agentliyi daim AZƏRTAC-a dəstək olub. Qırx dörd günlük Vətən müharibəsi zamanı Anadolu Azərbaycanın haqq səsini dünyaya çatdırdı və informasiya müharibəsində yanımızda oldu. Qlobal informasiya mənbəyi kimi özünü təsdiqləyən Anadolu ilə qardaşlıq və dostluq münasibətlərindən qürur duyuruq", - deyə Aslan Aslanov qeyd edib.

Azərbaycanın onlar üçün çox önəmli qardaş ölkə olduğunu vurğulayan baş direktor Serdar Karagöz deyib: "Ölkələrimizin aparıcı xəbər agentliklərinin eyni hədəflər naminə birgə çalışması hər iki tərəfə böyük uğur gətirə bilər. Anadolu Agentliyinin hədəfi informasiya istehsalçısı kimi dünyada birinci olmaqdır. Yerləşdiyimiz coğrafi mühit, malik olduğumuz imkanlar bunu deməyə əsas verir. Biz həm ikitərəfli, həm də beynəlxalq təşkilatlarda güclərimizi birləşdirməliyik. Azərbaycanın haqq savaşında Anadolu Agentliyi, TRT telekanalı bütün xəbərləri dünyaya birinci olaraq çatdırırdı. Zəfər xəbəri də Türkiyədə ilk olaraq Anadolu vasitəsilə yayıldı. Bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik. Əminəm ki, əməkdaşlığımızı dərinləşdirməklə daha böyük uğurlara imza atacağıq".

Görüşdə iki agentlik arasında təcrübə mübadiləsi məsələlərinə də diqqət yetirilib. Anadolunun "Xəbər Akademiyası"nda AZƏRTAC-ın əməkdaşlarının təlimlər keçməsi, agentliyin təcrübəli mütəxəssislərinin iştirakı ilə Bakıda ustad dərslərinin təşkili barədə razılıq əldə olunub. Həmçinin Türkdilli Xəbər Agentlikləri Birliyinin fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# ADA Universitetində keçirilən silsilə seminarlara ikinci qrup media nümayəndələri qoşulublar



**Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İxtisasartırma Proqramlarının birgə təşkilatçılığı ilə keçirilən "Mediada islahatlara doğru" mövzusunda silsilə seminarlar davam edir.**

AZƏRTAC xəbər verir ki, iyunun 16-da seminarlara ikinci qrup media nümayəndələri - çap, onlayn media və internet televiziyalarının təmsilçiləri qoşulublar.

ADA Universitetinin prorektor müavini Aygün Hacıyeva seminarın əhəmiyyətindən danışıb, iştirakçılara uğurlar arzulayıb.

Sonra Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov "Media haqqında" qanun layihəsi: yeni imkanlar və istiqamətlər" mövzusunda çıxış edib.

Qanun layihəsində yer alan müddəalar barədə media nümayəndələrinə ətraflı məlumat verən Ə.İsmayılov bildirib ki, yeni sənəd media sahəsində ictimai münasibətlər sistemini tənzimləyən yeni normativ hüquqi aktın hazırlanmasını nəzərdə tutur. Vurğulanıb ki, qanun layihəsinin əsas məqsədi bütün media subyektlərinin, o cümlədən yeni yaranmış onlayn media subyektlərinin də fəaliyyətinin və hüquqlarının müəyyən olunmasıdır.

Daha sonra seminar iştirakçıları ilə qanun layihəsi ətrafında müzakirələr aparılıb.

Seminar ADA Universitetinin İctimai və Beynəlxalq münasibətlər məktəbinin müəllimi Şəfəq Mehrəliyevanın "Müasir media mühitinə baxış" mövzusunda məruzəsi ilə davam edib.

Qeyd edək ki, seminarların təşkilində məqsəd müasir media mühitinə birgə nəzər salmaq, media sahəsində innovativ təcrübələri araşdırmaq və mövcud media nəzəriyyələrinə uyğun ölkədə media islahatları prosesinə təkan verməkdir. İyunun 14-dən iyulun 10-dək davam edəcək seminarlarda 75 media qurumunun rəhbər üzvünün iştirakı nəzərdə tutulub. Seminarlar zamanı iştirakçılar qarşısında həm yerli, həm də xarici, o cümlədən "Al Jazeera" və "Haber Global"ın mütəxəssisləri təcrübələrini bölüşəcəklər.

**AZƏRTAC**

# Leyla Əliyevanın təşəbbüsü ilə MDU-nun Nəbatat bağına Xarıbülbül gülü qələmləri verilib



**İyunun 16-da Rusiyanın Azərbaycan Gənclər Birliyinin (RAGB) sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskva Dövlət Universitetinin "Aptekarski oqorod" Nəbatat bağına Qarabağın rəmzi olan Xarıbülbül gülü qələmləri verilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Nəbatat bağının direktoru Aleksey Reteyum iştirak edib. O xatırladıb ki, bu güllər Nəbatat bağına RAGB tərəfindən verilib.

A.Reteyum deyib: "Biz Rusiyanın Azərbaycan Gənclər Birliyi ilə çoxdan əməkdaşlıq edirik. RAGB Nəbatat bağına bundan əvvəl də hədiyyələr edib. Qarabağın rəmzi olan bu nadir səhləblər təkcə Azərbaycanda bitir və bizə 6 nüsxə səhləb hədiyyə ediblər. Növbəti aprel ayında bu səhləblər Nəbatat bağının qonaqlarını sevindirəcəklər. Bu bitki üçün subtropik iqlim şəraiti lazımdır. Nəbatat bağının oranjereyası belə bir iqlim şəraitini təmin edə bilər".

RAGB-nin məsul katibi Ceyhun Hüseynov mərasimdə çıxış edib. O bildirib ki, RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə MDU-nun Nəbatat bağına Xarıbülbül gülü qələmləri verilməsi hər bir azərbaycanlı üçün əlamətdar hadisədir. C. Hüseynov deyib: "Xarıbülbül Qarabağın rəmzidir. Artıq aprel ayında arzu edən hər kəs Nəbatat bağına gələrək bu gülün açılmasına tamaşa edə biləcək.

**AZƏRTAC**



# Kənd təsərrüfatı naziri İnam Kərimov FAO-nun 42-ci sessiyasında çıxış edib

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 42-ci sessiyası davam edir. İki ildən bir keçirilən beynəlxalq tədbir bu il ilk dəfə olaraq onlayn formatda baş tutub. FAO-nun 42-ci sessiyasının açılış mərasiminə dünyanın müxtəlif ölkələrindən 119 nazir və nazir müavini olmaqla rekord sayda - 1300 nəfərdən çox iştirakçı qatılıb.**



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, "Qida və kənd təsərrüfatının mövcud vəziyyəti: kənd təsərrüfatı sisteminin qida sisteminə çevrilməsi: Strategiyadan fəaliyyətə" adı altında keçirilən iclas İtaliya Prezidenti Sergio Mattarella və Roma Papası Fransiskin tədbir iştirakçılarına müraciəti ilə başlayıb. Müraciətlərdə COVİD-19 pandemiyasının aqrar istehsal sistemlərinə təsirinə toxunulub, ərzaq təhlükəsizliyinin və yeni çağırışlara uyğun dayanıqlı inkişafın təmin edilməsinin vacibliyi vurğulanıb.

Açılış nitqində FAO-nun Baş direktoru Qu Donqyu COVİD-19 pandemiyasının bütün dünya üzrə ərzaq təhlükəsizliyi və qidalanma səviyyəsinə mənfi təsirlərini azaltmaq, qarşıda duran hədəflərə çatmaq üçün kompleks fəaliyyətin zəruri olduğunu qeyd edib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, Azərbaycan öz beynəlxalq tərəfdaşları ilə sıx əməkdaşlıq şəraitində COVİD-19 pandemiyasına qarşı qlobal mübarizə tədbirlərinə fəal şəkildə töhfə verir. Azərbaycan hökuməti pandemiyanın aqrar sahəyə və fermerlərin rifahına təsirini minimuma endirmək üçün operativ və lazımi tədbirlər görüb. 2020-ci ildə Azərbaycanda aqrar sahədə 2 faiz artım qeydə alınıb.

Diqqətə çatdırılıb ki, torpaqlarımız işğaldan azad edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağ bölgəsini yaşıl enerji zonası elan edib. Bu ərazilərdə kənd təsərrüfatı ən yaxşı texnologiya və təcrübələri özündə ehtiva edən "ağıllı kənd" konsepsiyasına əsasən inkişaf etdiriləcək. Bu hədəf FAO-nun müxtəlif ölkələrdə kəndlərin rəqəmsallaşma yolu ilə gələcəkdə "ağıllı kənd"ə çevrilməsi planına uyğun gəldiyindən Azərbaycan bu istiqamətdə sıx əməkdaşlığa hazırdır. Bununla yanaşı, digər strateji təşəbbüslərə qoşulan Azərbaycan beynəlxalq platformalarda da effektli əməkdaşlığı dəstəkləyir.

Konfransda iqlim dəyişikliyi, ətraf mühti qorunmaqla məhsuldarlığın artırılması, keyfiyyətli qida istehsalı, qlobal əməkdaşlıq çərçivəsində fundamental transformasiya yolu ilə dayanıqlı kənd təsərrüdatı sisteminin qurulması əsas müzakirə mövzularından olub. Tədbir iştirakçıları kənd təsərrüfatında elmi yeniliklər, innovasiya və rəqəmsal həllərin tətbiqinin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıblar.

**AZƏRTAC**

# Azərbaycan və Türkiyə gənclərinin Zəfər Forumu keçirilib






**İyunun 16-da Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondunun və Türkiyə Gənclər Fondunun (TÜGVA) birgə təşkilatçılığı ilə iki qardaş ölkə gənclərinin Zəfər Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, forum Türkiyə və Azərbaycan prezidentlərinin tarixi Şuşa səfərindən sonra sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmləndirilməsi və hər iki ölkə gəncləri arasında sıx əməkdaşlığın dəstəklənməsi məqsədilə təşkil olunub.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan Gənclər Fondu ilə Türkiyə Gənclər Fondu arasında sıx əməkdaşlıq mövcuddur. Məhz bu əməkdaşlığın nəticəsidir ki, ölkələrimiz arasında bu sahədə birgə tədbirlər və layihələr həyata keçirilir: "Əməkdaşlığımız bütün münasibətlərimiz kimi artıq səmimi dostluğa çevrilib. Dünən dövlətlərimiz arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. Artıq Azərbaycan və Türkiyə qardaş olmaqla yanaşı, həm də müttəfiq dövlətlərdir. Şübhəsiz, gənclər sahəsində fəaliyyət göstərən hər kəsin üzərinə də böyük məsuliyyət düşür. Belə ki, ortaq marağımızı bütün dünyaya çatdırmalıyıq".

Fərid Cəfərov qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı tarixi Zəfərə həsr olunan forumda hər iki ölkənin gənclər təşkilatları ilə yanaşı, Vətən müharibəsi qazilərinin də iştirakı tədbirin əhəmiyyətini daha da artırır. O, Türkiyə ilə daha böyük layihələrin həyata keçirilməsinin planlaşdırıldığını vurğulayıb.

Türkiyə Gənclər Fondunun (TÜGVA) baş direktoru Enes Eminoğlu Azərbaycana Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində gəldiyini və ölkəmizdə bir çox görüşlər keçirdiklərini vurğulayıb: "Bir çox görüşlərdə iştirak etmişik. Ötən gün Şuşada olduq. Bütün bunlar çox tarixi və unudulmaz günlərdir. Biz Tərtər, Bərdə və Gəncəyə səfər etdiyimiz zaman tezliklə Şuşaya, eyni zamanda, işğaldan azad olunmuş Qarabağa getmək arzularımızı ifadə etmişdik. Arzularımız həyata keçdi. Şuşa Bəyannaməsi ilə Şuşada Türkiyənin baş konsulluğu açılacaq. Azərbaycan üçün çox dəyərli olan Şuşa ümumilikdə türk dünyasının da mədəniyyət paytaxtı olacaq".

Zəfər Forumunda iştirakdan məmnunluğunu bildirən Enes Eminoğlu forumun əhəmiyyətini xüsusi vurğulayıb.

Vətən müharibəsi qaziləri Mobil Əhmədzadə və Elnur Ələkbərov, aparıcı gənclər təşkilatlarının rəhbərləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Zəfərdə Türkiyə dövlətinin və xalqının, o cümlədən gənclərinin fəal dəstəyinin və postmünaqişə dövründə əməkdaşlığın əhəmiyyətindən danışıblar. Onlar ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan dostluq və qardaşlıq münasibətlərinin gənclər sahəsində də müxtəlif layihə və proqramlarla daha da möhkəmləndirilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

Çıxış edənlər Azərbaycan və Türkiyənin daim çətin anlarda bir-birinin yanında olduqlarını vurğulayaraq, xalqımızın Vətən müharibəsindəki Qələbəsinin həm Azərbaycan, həm də Türkiyə gəncləri arasında sonsuz coşqu və qürur hissi ilə qarşılandığını qeyd ediblər.

Forumda qardaş ölkələrimizin gəncləri ikitərəfli münasibətlərin sürətlə inkişaf etdirilməsinə görə dövlət başçılarına minnətdarlıqlarını ifadə ediblər. Həmçinin Azərbaycan və Türkiyə gənclərinin qələbənin şərtləndirdiyi yeni dövrün reallıqlarına uyğun olaraq bütün platformalarda ortaq fəaliyyət göstərmələrinin vacibliyi qeyd olunub.

Dövlətlərimizin başçılarının ötən gün imzaladıqları tarixi Şuşa Bəyannaməsinin əhəmiyyətini qeyd edən natiqlər bununla bir milləti təmsil edən iki dövlətin qardaşlıq bağlarının daha da möhkəmləndiyini vurğulayıblar. Onlar bəyannamədə də qeyd edildiyi kimi, gənclərimiz arasında əlaqələrin daha da dərinləşdirilməsi, əməkdaşlığın genişləndirilməsi üçün səylə çalışacaqlarını bildiriblər. Forum iştirakçıları Azərbaycan həqiqətlərinin beynəlxalq informasiya platformalarında təbliği məqsədilə iki ölkənin gənclərinin bundan sonra da birgə və əlaqələndirilmiş şəkildə fəaliyyət göstərəcəklərini vurğulayıblar.

Foruma Əskişəhər və Gəncə şəhərlərindən onlayn qaydada fəal gənclərin səsləndirdikləri Yunus Əmrənin və Nizami Gəncəvinin şeirləri, eləcə də Əməkdar artist Zaur Əmiraslanovun "Çırpınırdın, Qara dəniz" mahnısını ifa etməsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Bu gün Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə həssaslıqla yanaşan ölkələrdəndir. Bu, hər şeydən öncə Azərbaycan iqtisadiyyatının dayanıqlığına xidmət edən amildir. Təsadfi deyil ki, Azərbaycan BMT-nin 2030 Gündəliyinə nail olmaq istiqamətinə sadiqliyini nümayiş etdirən ölkələr sırasındadır. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT-nin Azərbaycan hökumətinə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalamışdır. Eyni zamanda Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərini milli səviyyədə sürətləndirmək üçün atıla biləcək konkret siyasət və proqramlaşdırma addımlarını əks etdirən MAPS (2030 Gündəliyi naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) missiyasını həyata keçirən ilk ölkələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyilə Ermənistanın işğalı altında olan Qarabağ işğaldan azad edildi. Xalqımızın Vətən Müharibəsində qazandığı möhtəşəm zəfər regionumuzda tamamilə yeni reallıqları yaratmaqla yanaşı, Azərbaycanın və bütövlükdə regionumuzun dayanıqlı inkişafı üçün yeni perspektivlər də açır. Ölkə iqtisadiyyatının 1/5-nin milli iqtisadi dövriyyəyə daxil olması və regional iqtisadi əməkdaşlıq üçün yaranan yeni imkanlar bunu deməyə əsas verir. İşğaldan azad olunmuş ərazilərimizdə "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin işlənməsi və reallaşdırılması, yaşıl enerji və müasir enerjiyə qənaət texnologiyalarından istifadə, təbii resursların istehsal proseslərinə cəlb olunmasında yüksək ekoloji standartların tətbiqi, yeni nəqliyyat dəhlizlərinin açılması kimi strateji məsələlərin elmi cəhətləri də bu gün Azərbaycan iqtisadçılarının gündəmində olan əsas mövzulardandır. Təşkil olunan müzakirələrdə bu məsələlərə də geniş yer verildi, həm elmi, həm də praktiki əhəmiyyət kəsb edən nəticələr canlı yayımlanaraq, geniş ictimaiyyətə, elm cameəsinə təqdim olundu.

Burada təqdim edilən elmi məruzələr, gənc tədqiqatçıların peşəkar inkişafına xidmət etməklə yanaşı, iqtisadi siyasət tövsiyələri baxımından da ölkəmiz üçün çox faydalı olacaq.

Bütün bu göstərilənlər rəqəmsal və innovasiyalı iqtisadiyyatımızın özəllikləri nəzərə alınmaqla, konfransda əsas müzakirə mövzuları sırasında özünə yer tutmuşdu. Bu özəlliklər isə sənaye inqilabları, idarəetmədə informasiya texnologiyalarından geniş istifadə, ağıllı şəhər (kənd) və yaşıl iqtisadiyyat, innovasiya mədəniyyətinin formalaşması, risklər və onların xüsusiyyətləri, korporativ sosial məsuliyyət, yeni maliyyə alətləri, elektron ticarət və süni intellektin imkanları qismində ciddi müzakirə obyekti olublar.

Konfrans hələ də davam edən pandemiya şəraitində keçirildi. Bu gün dünyada baş verən pandemiya və onun yaratdığı sosial-iqtisadi problemlər, bir daha dayanıqlı inkişaf konsepsiyasının aktuallığını sübut edir və bu istiqamətdə axtarışları intensivləşdirir. Bütün bu fərqliliklər III beynəlxalq konfransda müzakirə mövzularının da seçilməsini şərtləndirmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qarabağın bərpası ilə bağlı verdiyi tövsiyələr, o cümlədən "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji" kimi yeni inkişaf modellərini nəzərə alaraq, konfransı təşkil etdik. Seminarlar "Ağıllı və dayanıqlı şəhərlər", "Azərbaycanda postmüharibə dövründə məşğulluq və investisiyalar", "Gəncə timsalında şəhərlərin brendləşməsi", "Müasir dünyada rəqəmsal iqtisadiyyat", "Blokçeyn texnologiyalar və rəqəmsal valyutalar", "IV Sənaye inqilabı", "Sosial biznes və sosial sahibkarlığın iqtisadiyyata təsirləri", "Azərbaycanda elektron ticarət və elektron ixracat perspektivləri", "Yaşıl şəhərlər və yaşıl inkişaf perspektivləri", "Akademik uğurun formulası" kimi mövzuların müzakirəsinə həsr edilmişdi.



Konfrans günlərində təşkil olunan müzakirələrdə gələcəyin dünyasında mühüm rola sahib olan "ağıllı şəhərlər"in əhəmiyyəti, onların perspektivləri, Azərbaycanda tətbiq istiqamətlərinin müzakirəsi ilə başlayan "workshop"lar çərçivəsində şanlı ordumuzun zəfəri ilə yekunlaşan 44 günlük Vətən Müharibəsindən sonrakı dövrdə işğaldan azad olunmuş bölgələrdə məşğulluq və investisiya məsələləri müzakirə olundu, təkliflər səsləndirildi, eləcə də dövlətin bu istiqamətdəki siyasəti təhlil edildi. Daha sonra regional inkişafda, turizm və iqtisadi potensialın artırılmasında mühim rola sahib olan şəhərlərin brendləşməsinə Gəncə şəhəri nümunəsində baxılmış, Azərbaycanda şəhər brendləşməsi və Gəncənin gələcək inkişafı üçün mühüm təkliflər səsləndirildi. Müasir dünyamızın ən aktual mövzularından biri olan rəqəmsal iqtisadiyyat, onun günümüzdə təsirləri, istifadə istiqamətləri və ölkəmizdə tətbiqi ilə bağlı müzakirələr aparıldı və təkliflər səsləndirildi. Bununla yanaşı, rəqəmsallaşmanın yaratdığı imkanlardan biri də blokçeyn texnologiyasının tətbiqi və istifadə sahəsinin böyüməsi, rəqəmsal valyuta bazarlarının genişlənməsi mövzusu da əsas müzakirə mövzularından oldu. Bu gün bütün dünyanı öz cənginə alan pandemiya şəraiti bütün iqtisadi bazarlara, o cümlədən daşınmaz əmlak bazarına da təsirsiz ötüşmədi. Pandemiyanın daşınmaz əmlak bazarlarına təsirləri ABŞ, Hong Kong, Niderland və Azərbaycandan olan investisiya mütəxəssislərinin iştirakı ilə müzakirə olundu, postpandemiya dövrü üçün investisiya mühiti ilə bağlı təhlillər aparıldı və fikirlər səsləndirildi. Ölkəmizdə zaman keçdikcə daha da inkişaf etdirilən istiqamətlərdən biri də sosial sahibkarlıq və sosial biznesdir. Sosial biznes və sosial sahibkarlıq haqqında "workshop"da bu sahədə tədqiqatçı, mütəxəssis və sosial biznes təşəbbüskarı olan xanımların iştirakı ilə müzakirələr aparıldı. IV sənaye inqilabı, bu inqilabın maliyyə və real sektor üçün nələri vəd etdiyi, gündəlik məişət həyatımıza təsiri ilə bağlı xarici və yerli tədqiqatçılarının iştirakı barədə geniş məlumat verildi. Bundan əlavə, "yaşıl şəhər" layihələri, bu şəhərlərin gələcək dünyamız üçün önəmi, inkişaf perspektivləri və yaşıl şəhərlərlə bağlı ölkələr tərəfindən atılması lazım olan addımlar haqqında BMT, UNEP, Dünya Bankı, Yaponiyanın TEPSCO şirkətinin nümayəndələrinin iştirakı ilə maraqlı müzakirələr təşkil olundu. Konfransın son günündə isə Nizami Gəncəvi əsərlərində iqtisadiyyat və idarəetmə ilə bağlı fikirlər təhlil olunaraq, şairin əsərlərinə iqtisadi prizmadan yanaşma göstərildi. Konfransın son "workshop"unda tədqiqat metodları, elmi tədqiqatların keyfiyyətinin artırılması, doktorantura təhsilində dissertasiya mövzusunun seçilməsi, nüfuzlu elmi jurnallarda tədqiqatların çap olunması ilə bağlı xarici professorlar tərəfindən gənc tədqiqatçılara tövsiyə xarakterli məlumatlar verildi.

Bu il Prezident İlham Əliyev Respublika Günü münasibətilə Azərbaycan xalqına təbriklərini işğaldan azad edilmiş Ağdamdan ünvanladı və Ağdamın Baş Planını Ağdamdan olan ziyalılarla müzakirə və təsdiq etdi. Ağdamın Baş Planı Ağdamı dünyada bənzəri olmayan şəhərə çevirəcək. Bu Baş Planda Qarabağ Universitetinin yaradılması da nəzərdə tutulmuşdur. Bununla bağlı konfransda təklifimiz səsləndirildi.

Ağdamda yaradılacaq Qarabağ Universitetini IV sənaye inqilabının tələblərini nəzərə alaraq, gələcəyin Azərbaycanını, yəni rəqəmsal Azərbaycanı quracaq, Azərbaycanın rəqəmsal transformasiyasını təmin edə bilən insan kapitalı formalaşdıracaq universitet kimi görürük.

Magistr və doktorantların növbəti IV beynəlxalq konfransın Ağdamda, "Smart universitet", rəqəmsal təhsil rəqəmsal elm kimi mövzulara həsr edilməsi yaxşı olardı.

**Fariz ƏHMƏDOV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru, dosent.**

17 İyun Tibb İşçilərinin Peşə Bayramı Günüdür



**Son on ildə Azərbaycan səhiyyəsinin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tibbi texnologiyaların tətbiqi, kadr islahatları və aparılan digər tədbirlər onu dünyanın qabaqcıl ölkələrinin səviyyəsinə çıxmağa imkan yaradıb. Tibb müəssisələrinin təmir və bərpası, vətəndaşların müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi səhiyyə sahəsində aparılan islahatların əsas istiqamətlərini təşkil edir.**

# Bakı Sağlamlıq Mərkəzi çoxprofilli tibb müəssisəsidir



Azərbaycan Respublikasının ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən hər il iyunun 17-də ölkəmizdə tibb işçilərinin peşə bayramı qeyd olunur.

Əhalinin sağlamlığı keşiyində ləyaqətlə dayanan nüfuzlu səhiyyə müəssisələrindən biri də paytaxtdakı Bakı Sağlamlıq Mərkəzi, çoxprofilli tibb ocağıdır. Burada tibbin əsas istiqamətləri üzrə xalqımıza beynəlxalq standartlara uyğun xidmət göstərilir, sağlamlıq mərkəzi nəinki Azərbaycanda, eyni zamanda Cənubi Qafqazda böyük nüfuza malik olan bir şəfa ocağına çevrilmişdir.

Bakı Sağlamlıq Mərkəzinin direktoru Asiman Həsənovla söhbət edərkən o, peşə bayramı günündə mərkəzin fəaliyyəti ilə bağlı qürurla danışdı:

- Mərkəz 2018-ci ildən fəaliyyət göstərir. Bura 3 korpusdan ibarətdir. Mərkəzin açılışında Prezident İlham Əliyev iştirak etmiş və 1000 nəfərdən çox tibb işçisi çalışan bu müəssisənin kollektivinə lazımi tövsiyələr vermiş, əminliklə bildirmişdir ki, ağxalatlı ömür keşikçiləri insanların sağlamlığını ləyaqətlə qoruyub saxlayacaqlar.

Bakı Sağlamlıq Mərkəzi müasir tibb avadanlıqları ilə təchiz olunmuşdur. Burada peşəkar səhiyyə işçiləri çalışır. Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, əhalinin sağlamlığının etibarlı təminatı diqqət mərkəzindədir.

Sağlamlıq mərkəzinin yaradılmasında əsas ali məqsəd insanlara yüksək səviyyəli tibbi xidmət göstərilməsidir. Statistik rəqəmlərdən göründüyü kimi, təcrübəli həkimlər tərəfindən həyata keçirilən əməliyyatlar, göstərilən tibbi xidmətlər nəticəsində minlərlə vətəndaş sağlamlığına qovuşmuş və şəfa tapmışdır.

Mərkəzin direktoru, Azərbaycan səhiyyəsinin inkişafında böyük xidmətləri olan Asiman Həsənov sözünə davam edərək vurğuladı ki, başçılıq etdiyi tibb ocağında 3000 əməliyyat ediləcək qədər tam təchiz olunmuş Kardiocərrahiyyə şöbəsi, qadınlar üçün özəl hazırlanmış və dizayn edilmiş Qadın Mərkəzi, 2 angioqrafiya cihazına malik olan Kardiologiya şöbəsi, Təcili xidmət şöbəsi, Nevrologiya, Qaraciyər Xəstəlikləri Mərkəzi, uşaq cərrahiyyəsi, ortopediya-travmatologiya, urologiya, plastik cərrahiyyə, fizioterapiya və reabilitasiya, endokronologiya, tibbi laboratoriya, oftalmologiya, qan mərkəzi və müasir tələblərə cavab verən digər şöbələr mövcuddur.

Mərkəzdə xarici ölkələrdəki tibb müəssisələri ilə sıx əlaqələr yaradılmışdır. Şübhəsiz ki, bu əməkdaşlıq öz uğurlu nəticələrini verir, səhiyyədə elmin son nailiyyətlərindən səmərəli istifadə olunur.

Mərkəzdə Moskva Dövlət Universitetinin Bakı filialı ilə sıx əlaqələr möcvuddur. Tələbələr tədris proyektlərində fəal iştirak edirlər.

Artıq bir ildən çoxdur ki, COVİD-19 dünyanı cənginə almışdır. Qeyd etmək lazımdır ki, pandemiya əleyhinə tibb müəssisəsində məqsədyönlü işlər aparılır, tibb işçiləri xəstəliyə qarşı profilaktik tədbirlər həyata keçirir və əhali arasında geniş maarifləndirmə işləri aparırlar. Vaksinasiya olanların sayı isə durmadan artır.

Mərkəzin əməkdaşları minlərlə xəstənin müalicəsində iştirak etmiş, pandemiyaya yoluxanlar üçün xüsusi şöbələr açılmışdır.

Qeyd etmək lazımdır ki, 2020-ci ilin sentyabrında erməni daşnakları Azərbaycan ərazisinə hücuma keçmiş, təxribat törətmişlər. Vətən müharibəsi 44 gün davam ertmiş, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti sayəsində Müzəffər Azərbaycan Ordusu erməni ordusunu darmadağın etmiş, "Dəmir Yumruq" Paşinyanın və onun quldur dəstəsinin başına zərbə ilə endirilmiş, 30 ilə yaxın bir vaxtda işğal altında olan ərazilərimiz faşist xislətli erməni terrorçularından azad edilmişdir.

Vətən müharibəsində şəhidlərimiz, yaralılarımız olmuş, çoxsaylı məğrur oğullarımız, qazilərimiz Bakı Sağlamlıq Mərkəzində müalicə almış, mərkəzin əməkdaşları müalicə dövründə ikiqat səylə çalışmış, ölkə başçısının tapşırıq və tövsiyələrini ləyaqətlə yerinə yetirmişlər.

İnsanlar Bakı Sağlamlıq Mərkəzinə inam və ümidlə gəlir. Burada çalışan həkimlər ordusu xəstələrin müayinə və müalicəsinə maksimum səy göstərir, ağxalatlıların şəfalı əlləri yüzlərlə ağır vəziyyətdə olan insanı ölümün pəncəsindən xilas edir, neçə-neçə ailəyə sevinc payı bəxş edirlər. Elə bunun nəticəsidir ki, mərkəzin kollektivi tibb işçilərinin peşə bayramında iftixar hissi keçirirlər...

**Qədir ASLAN,**
**"Respublika".**

**İsmayıllılılar bu ünvanı, mərkəzi xəstəxananın yerləşdiyi məkanı özləri üçün inam, ümid və sağlamlıq ocağı kimi tanıyırlar. Hər gün, hər ay onlarla, yüzlərlə, minlərlə insan bu ocağa gəlir, oradan şəfa tapıb, yaşamaq, yaratmaq arzusuna qovuşur. Əlbəttə, bu istək və arzular orada çalışan ağxalatlı insanların, həkim və orta tibb işçilərinin peşəkarlığı, qayğıkeşliyi, Hippokrat andına sadiqlikləri sayəsində mümkün olur.**



# İsmayıllının peşəkar səhiyyə işçiləri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 2018-ci ilin dekabr ayının 20-də ölkəmizdə Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin - TƏBİB-in yaradılması sayəsində şimal-qərb bölgəsinin digər 23 rayonu kimi, İsmayıllıda da səhiyyə bu istiqamət üzrə — yəni, əhaliyə tibbi sığorta ilə xidmət göstərir. Bu günlərdə rayonun sözü gedən kollektivinin işi ilə yaxından tanış olarkən öyrəndik ki, burada səhiyyənin yeni istiqamətdə fəaliyyəti üçün lazımi imkan və şərait yaradılmış, daha peşəkar, işgüzar, eyni zamanda, bacarıqlı idarəetmə qabiliyyətinə malik kollektiv formalaşmışdır. Kollektivə tələbkar, eyni zamanda, həkim kimi rayonda hamının hörmətini qazanan **Vidadi Rəhimov** direktor təyin olunmuşdur. Direktor söhbətinin önündə bildirdi ki, rayon mərkəzi xəstəxanası publik-hüquqi şəxsi 101 çarpayılıq mərkəzi xəstəxananı, 7 ailə sağlamlıq mərkəzini, 7 həkim, 21 tibb məntəqəsini əhatə edir. Həkim və tibb işçilərinin fəaliyyəti ilə qısa tanışlıq üçün bir neçə şöbəyə baş çəkdik, 20 çarpayılıq terapiya, 25 çarpayılıq cərrahiyyə, 15 çarpayılıq uşaq şöbələrində ürəkaçan səliqə-sahman, müalicə olunan xəstələrə göstərilən diqqət və qayğı ilə qarşılaşdıq. Xəstələrdən eşitdiyimiz ancaq bu sözlər oldu:

- Sağ olsunlar, xidmət də yaxşıdır, qayğı da, tibbi sığorta hamımızın ürəyindəndir. Həkimlər də, tibb işçiləri də öz andlarına layiq xidmət göstərirlər.

Məlumat aldıq ki, buradakı digər şöbələrdə də işlər bu cür yaxşı vəziyyətdədir. Publik-hüquqi direktor və bizimlə birlikdə olan baş həkim Nərgiz Rəhimova söhbət əsnasında bildirdilər ki, tibbi sığortaya keçməklə əlaqədar binada ümumi, sığortanın təşkili və innovasiya, xəstə xidmətləri, dəstək xidmətləri və digər şöbələr də yaradılmışdır.

Qeyd edək ki, mərkəzi xəstəxananın fəaliyyətində, xidmətin təşkilində əvvəlki primitiv formalardan əsər-əlamət qalmayıb. Əsas girişdə yerləşdirilən qeydiyyat şöbəsində ağxalatlı qızların öz iş bölgülərinə uyğun vətəndaşlara xidməti, onların müraciət etdikləri sahələr üzrə istiqamətləndirmələri, fəaliyyətlərinə uyğun təyin olunan digər işçilərin tapşırıqlara çox həssaslıqla yanaşmaları da diqqətdən yayınmır. Diqqətçəkən əsas məsələlərdən biri bütün mərtəbələrdə, şöbələrdə təmizliyə, səliqə-sahmana ciddi riayət olunması, foyelərin, palataların qarşılarının səhiyyənin qayda-qanunlarına uyğun formalaşdırılmasıdır. Nəinki rəhbərlik, hər bir həkim və tibb işçisi bu məsələlərə nəzarətçidir. Direktor Vidadi Rəhimov bildirdi ki, baş həkim Nərgiz Rəhimova bütün bu məsələləri bir an olsun nəzarətsiz qoymur.

Tibbi sığortaya keçilməsi xidmətin səmərə və keyfiyyətini artırdığına görə bu ünvana üz tutan insanların sayı da çoxalıb. Əvvəllər daha çox Bakıya, digər yerlərə üz tutan xəstələr, indi rayon mərkəzi xəstəxanasına, eyni zamanda, ailə sağlamlıq mərkəzlərinə, həkim və tibb məntəqələrinə müraciət edirlər. Bu, 94 həkimin, 312 nəfər orta, 314 nəfər kiçik tibb işçisinin səmərəli əməyinin, xəstələrə olan qayğıkeşliyinin, bir də yaradılan təminat və təchizatın nəticəsidir. Rayon mərkəzi xəstəxanasının ambulator pasiyentlərinin sayı 2020-ci ildə 57240 nəfər olmuşdursa, 2021-ci ilin beş ayında bu göstərici 30 minə yaxınlaşmışdır. Digər sahələr üzrə göstəricilərin də əvvəlki ildəkinə nisbətən yüksək olacağı gözlənilir.

Mövcud vəziyyət, işin təşkili xidmətin səviyyəsi ilə tanışlıq, bəzi vətəndaşlarla olan söhbətlərimiz deməyə əsas verir ki, İsmayıllıda icbari tibbi sığortanın tətbiq olunduğu gündən əhalinin böyük hissəsinə sığorta xətti ilə yüksək səviyyədə tibbi xidmət göstərilmişdir. On beş nəfərə açıq ürək əməliyyatı, 34 nəfərin ürək damarlarına stent qoyulması, 23 nəfərə gözlərində müalicə və əməliyyat, 2 nəfərə bud-çanaq oynaqlarında müxtəlif əməliyyatlar üçün göndərişlər verilməsi və həmin xəstələrin sağalaraq evlərinə qayıtmaları da qayğının parlaq təzahürüdür.

Artıq ikinci ildir dünyanı cənginə alan COVİD-19 xəstəliyinə qarşı mübarizə respublikamızın hər yerində olduğu kimi, İsmayıllı rayonunda tələb olunan qaydada davam edir. Direktor Vidadi Rəhimov bu barədə söhbət düşəndə dedi:

-Bununla əlaqədar hər şeydən öncə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə rayonumuzda Modul tipli xəstəxana binası tikilmişdir. Həmin xəstəxanada indiyə kimi 713 nəfər xəstəyə xidmət olunmuşdur. Rayonumuzun tibb işçiləri koronavirus xəstəliyinə qarşı fədəkarlıqla mübarizə aparmış, mövcud imkanlardan maksimum səviyyədə istifadə edib həmin xəstələrin yaxşı müalicə olunub sağalmasına nail ola bilmişlər. Neçə vaxtdır başlanan vaksinasiya tədbirləri də uğurla davam etdirilir. Bu günə kimi rayon üzrə 30,2 min nəfər peyvənd olunmuşdur. 11,5 min nəfərdən çox vətəndaşa ikinci doza vurulmuşdur.

İsmayıllı rayonunun səhiyyə işçiləri 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsinin elə ilk günündən arxa cəbhədə müsəlləh əsgər olmuş, öz Hippokrat andına sadiqliklərini bir daha yüksək əzmkarlıq və peşəkarlıqla davam etdirmişlər. Müharibənin gedişində yararlanan hərbi qulluqçular rayondakı modul tipli xəstəxananın, həmçinin, mərkəzi xəstəxananın palatalarında yüksək səviyyədə müalicə olunmuşlar. Rayonun həkim və tibb işçiləri gecəli, gündüzlü bu xəstələrin xidmətində olmuş, lazım gələn bütün tibbi xidmətlərin göstərilməsi üçün əllərindən gələni əsirgəməmişlər.

- Biz bununla kifayətlənməmişik, - deyə direktor Vidadi Rəhimov Vətən yolunda, ermənilərin doğma Qarabağ torpaqlarından qovulub çıxarılması uğrunda döyüşlərdə yaralanan İsmayıllı igidlərinin xidmətində olmağı unutmadıqlarından söhbət açdı. Döyüşlərdə şəhidlik zirvəsində özünə əbədi məskən salan, İsmayıllı balalarının ailələrinə baş çəkmək, onların tələb, istək və arzularını təmin etmək üçün öz imkanlarını maksimum səviyyədə səfərbər etdiklərini söylədi. Bildirdi ki, şəhid ailələri, qazilər bir gün olsun unudulmur və heç vaxt yaddan çıxmayacaq da.

Vidadi həkim bir məsələni də xatırlatdı ki, şəhidlərdən birinin - Ruslan Tağıyevin anası Lətifə Tağıyeva xəstəxananın tibb bacısıdır. Xəstəxanamızın da daxili imkanı hesabına şəhid Ruslanın valideynlərinin yaşadıqları Ərəstun Mahmudov küçəsində evlərinin yaxınlığında xatirə bulağı tikilib istifadəyə verilmişdir.

İsmayıllının ağxalatlı ömür keşikçiləri peşəkar, işgüzar, qayğıkeşdir. Hamı bu amalla çalışır, andlarına sadiqlik göstərir. Baş həkim Nərgiz Rəhimova bu barədə söhbət düşəndə Firudin Ağayevin, Fuad Cəbrayılovun, Kübra Ağayevanın, Fikrət Osmanovun, Əlpaşa Qəribovun, Habil Vəliyevin, Elman Xəlilovun, Malik Əliyevin adlarını çəkdi və dedi ki, kollektivin bütün üzvlərinin bir amalı var: əhaliyə nümunəvi xidmət göstərməklə iqtisadiyyatı getdikcə möhkəmlənən, gözəlliyi günbəgün artan İsmayıllıya daha çox dəstək olmaq.

**Rasim AMANOV,**
**"Respublika".**



**Son illər Azərbaycan səhiyyəsinin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tibbi texnologiyaların tətbiqi, köklü kadr islahatları və aparılan digər tədbirlər onu dünyanın qabaqcıl ölkələrinin səviyyəsinə çıxarmağa imkan yaradıb. Tibb müəssisələrinin təmir və bərpası, vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təmin olunması, onların müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində aparılan islahatların əsas istiqamətlərini təşkil etmişdir.**

**Ulu öndərimiz Heydər Əliyev xalqın sağlamlıq məsələlərinə daim taleyüklü məsələ kimi yanaşmış, bu sahənin cəmiyyət həyatında həlledici rol oynadığını dəfələrlə vurğulamışdır. Ümummilli lider səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm, prioritet sahə kimi qiymətləndirərək deyirdi: "Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir".**

# Ölkəmizdə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması prioritet istiqamətlərdəndir

Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində müstəqillik dövründə ölkəmizdə səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmək mümkün oldu. Onun bilavasitə rəhbərliyi ilə ölkənin səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görüldü, islahatlar aparıldı. Bu işdə ilk növbədə səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması daim diqqət mərkəzində saxlanılırdı. Həmin məqsədlə ölkəmizdə səhiyyənin qanunvericilik bazasını gücləndirən bir sıra qanunlar, o cümlədən "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında", "Tibbi sığorta haqqında" və s. qanunlar işlənib hazırlandı və Milli Məclis tərəfindən qəbul edildi. Azərbaycan ərazisində QİÇS və vərəm xəstəliklərinin yayılmasının qarşısını almaq üçün milli proqramlar işlənib hazırlandı.

Heydər Əliyevin prezidentliyi dövründə səhiyyəmizin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də xeyli iş görüldü, o cümlədən bir sıra tibb müəssisələrində təmir-tikinti işləri aparıldı, bəzi səhiyyə ocaqları yeni avadanlıq və cihazlarla təchiz edildi. O illərdə bu sahədə ən diqqətəlayiq hadisələr-Azərbaycan Tibb Universitetinin yeni korpusunun istifadəyə verilməsi və müasir dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxananın açılışı isə ümummilli liderin Azərbaycan xalqının sağlamlığına göstərdiyi qayğının ən parlaq təcəssümü oldu.

Beləliklə, tərəddüd etmədən deyə bilərik ki, ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də yeni iqtisadi sistemə uyğun olaraq həyata keçirilən islahatlar, inkişaf və tərəqqi Heydər Əliyevin adı ilə bağlıdır. Səhiyyəmizin inkişafı yolunda ulu öndərin xalqının hər bir nümayəndəsinin gələcəyini düşünərək gördüyü işlər öz dəyəri, böyüklüyü ilə əvəzsizdir.

Heydər Əliyevin səhiyyənin inkişafı üzrə tədbirlər kompleksinin əsas məqamlarından biri mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilməsi idi. 1970-ci illərdə bir sıra bölgələrdə tibb müəssisələri yararsız binalarda yerləşirdi. 1970-1980-ci illərdə respublikada bir çox mühüm səhiyyə obyektləri inşa edildi. Təkcə uşaq poliklinikalarının sayı 1970-1975-ci illərdə 150-dən 185-ə çatdı. Yeni istifadəyə verilən səhiyyə müəssisələri arasında Uroloji Kliniki Xəstəxana, neyrocərrahiyyə, toksikologiya, yanıq mərkəzləri kimi tibb ocaqları var idi. Elmi-Tədqiqat Oftalmologiya və Elmi-Tədqiqat Onkologiya institutları üçün yeni binalar da o zaman tikilməyə başladı.

Müasir səhiyyə müəssisələri müvafiq yüksək səviyyəli kadr potensialının olmasını da tələb edirdi. Həkimlərin və orta tibb işçilərinin çatışmazlığını aradan qaldırmaq üçün Heydər Əliyevin təşəbbüsü ilə ilk növbədə Azərbaycan Tibb İnstitutuna və tibb məktəblərinə tələbə qəbulu artırıldı, tibbi kadrlara ehtiyac olan ucqar bölgələrdən gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Bununla da rayonların səhiyyə müəssisələrində kadr çatışmazlığı tədricən aradan qalxmağa başladı.

Tibbi kadrların kəmiyyət artımı ilə yanaşı, onların keyfiyyəti də böyük əhəmiyyət daşıyırdı. Səhiyyənin inkişafında əsas amillərdən biri olan kadrların təkmilləşməsi sahəsində bir-biri ilə qarşılıqlı surətdə bağlı olan iki məsələ-səhiyyə müəssisələrində çalışacaq yüksəkixtisaslı tibb personalının və təbabət sahəsində elmi tədqiqatlar aparacaq gənc alimlərin hazırlığı qarşıda vəzifə kimi dururdu. Bu məqsədlə həm Bakıda ali təhsilin keyfiyyətinin yüksəldilməsinə, həm SSRİ-nin qabaqcıl tibb təhsili müəssisələrində həkim kadrlarının hazırlığına, həm də tibb elminin inkişafına, gənc azərbaycanlı alimlərin İttifaq səviyyəli tibb ocaqlarında öz elmi fəaliyyətlərini davam etdirməsinə böyük əhəmiyyət verilirdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə qabaqcıl elm mərkəzlərində tədqiqatlar aparan, dissertasiyalar müdafiə edən həmin insanlar sonralar tibb elmimizin fəxri kimi səhiyyəmizin inkişafına dəyərli töhfələr verdilər.

Əbədiyaşar liderimiz səhiyyə sisteminin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsinə mövcud tibbi obyektlərin abadlaşdırılması, yeni səhiyyə müəssisələrinin yaradılması, əhalinin kütləvi dispanser qeydiyyatına alınması və sahə həkimlərinin işinin fəallaşdırılması məsələlərindən başlayıb. Dahi rəhbər Heydər Əliyev ölkəmizdə sağlamlıq zonaları və istirahət evlərinin yaradılmasına, abadlaşdırma işlərinin aparılmasına, mövcud səhiyyə ocaqlarının profilinin genişləndirilməsinə ciddi əhəmiyyət verirdi. Həmin dövrdə rayonlarda, xüsusən ucqar dağlıq və dağətəyi bölgələrdə səhiyyənin inkişafına xüsusi diqqət yetirilirdi. Ötən əsrin 70-ci illərinin əvvəllərində həmin rayonlarda ixtisaslı həkimlərin, xüsusən kardioloq, onkoloq, ginekoloq, ftiziatr, nevropatoloq, sanitar həkim və epidemioloqların, orta ixtisas təhsilli tibb işçilərinin və şəfqət bacılarının çatışmazlığı kəskin hiss olunurdu. Bu problemin həlli üçün, ilk növbədə, Tibb İnstitutuna tələbə qəbulunun sayı artırıldı, ucqar yaşayış məntəqələrindən gələn abituriyentlər üçün güzəştlər tətbiq edildi. Bu, bilavasitə dahi şəxsiyyətin öz təşəbbüsü idi. Məhz bu təşəbbüs sayəsində bölgələrin səhiyyə müəssisələrində kadr çatışmazlığı aradan qaldırıldı. 1993-cü ildə böyük dövlət xadimi Heydər Əliyevin ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra bütün sahələr kimi, səhiyyə də yeni inkişaf mərhələsinə qədəm qoydu, ilk növbədə, bu sahənin qanunvericilik bazası təkmilləşdirildi, əhalinin sağlamlığının qorunması işini yaxşılaşdırmaq məqsədilə geniş islahatlar proqramı hazırlandı. Tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni səhiyyə ocaqlarının yaradılması əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına imkan verdi.

Bütün dünyanı cənginə almış koronavirus pandemiyası ilə mübarizədə Azərbaycan həkimləri böyük fədakarlıq və əzmkarlıq göstərirlər. Öz həyatlarını təhlükə altına qoyaraq gecə-gündüz insanların sağlamlığının keşiyində dayanan həkimlərimiz xüsusi karantin dövründə fəaliyyətləri əsl qəhrəmanlıqdır. Həkimlərimizin bu fədakarlığı haqqında Prezident İlham Əliyev bütün tədbirlərdə öz müsbət fikirlərini ifadə etmişdir. Prezident İlham Əliyev həkimlərin fəaliyyətini, fədakarlığını bir daha yüksək qiymətləndirərək çıxışlarının birində demişdir: "Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər". Ölkə başçısı İlham Əliyevin yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında 18 mart 2020-ci il tarixli Sərəncamı da Prezident tərəfindən səhiyyə işçilərinin əməyinə verilən daha bir qiymətdir. "Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır" - deyə bildirən Prezident İlham Əliyevin pandemiya ilə mübarizə aparan həkimlərimizə, tibb işçilərinə verdiyi yüksək qiymət, böyük dəyər, xüsusilə də onların əməyini ayaq üstə alqışlaması bu gün hər bir Azərbaycan vətəndaşı üçün nümunədir.

44 gün davam edən Vətən müharibəsində döyüş cəbhəsində yaralanan hərbçilərə tibbi xidmət göstərmiş həkimlərimizin peşəkar və vətənpərvərliklə dolu fədakar fəaliyyəti yüksək qiymətləndirilməlidir. Belə ki, Vətən müharibəsində digər hərbi qulluqçularla yanaşı, tibb işçiləri də böyük qəhrəmanlıq və şücaət göstərmişlər. Vətən müharibəsində yaralı hərbçilərimizi döyüş meydanından çıxararkən şəhidlik zirvəsinə ucalan Arəstə Baxışova 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist olaraq çalışıb. 2019-cu il iyulun 12-dən isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində operator vəzifəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yüzlərlə yaralı hərbçilərə döyüş meydanındaca tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub.Qeyd edək ki, müharibə zamanı 159 hərbi tibb işçisi yaralanıb. Onlardan 42 həkim, 37 feldşer və 26 sanitar şəhidlik zirvəsinə ucalıb. Yaralıların müalicəsi və tibbi təminatı müharibənin ilk günlərindən Prezident, Silahı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəxsən nəzarəti altında olmuşdur.

Son illər tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. İndi tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin və layiqli davamçısı İlham Əliyevin göstərdikləri qayğı sayəsində Azərbaycanda tibb elmi və tibb təhsili, eləcə də, səhiyyənin digər bütün sahələri üzrə çox sanballı, yüksək səviyyəli milli kadrlar yetişib və onlar da öz peşəkarlıq məktəblərini yarada biliblər.

Bu gün digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də ulu öndərin siyasi kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı ümummilli lider Heydər Əliyevin başlıca həyat prinsipi olan xalqa, millətə xidmət və sədaqət amalını yaşadır. Məhz onun rəhbərliyi altında Heydər Əliyev siyasəti, gələcəyə istiqamətlənmiş strateji inkişaf kursu davamlı surətdə irəliləyir və Azərbaycanın uğurlarının əsasını təşkil edir.

İnanırıq ki, peşə bayramlarını yüksək nailiyyətlərlə qeyd edən tibb işçiləri bundan sonra da səhiyyəmizin inkişafına öz töhfələrini verəcəklər.

**M.MİRZƏ,**
**"Respublika".**






# Şimal rayonlarında taxıl biçini

**Havaların əlverişli keçməsi və göstərilən yüksək aqrotexniki xidmətin nəticəsidir ki, Şimal bölgəsinin özəl və dövlət təsərrüfatlarında bol taxıl yetişdirilmişdir. Yetişdirilən məhsulun vaxtında və itkisiz yığılması üçün əlaqədar müəssisələr tərəfindən vaxtında hazırlıq tədbirləri görülmüşdür.**

Bu barədə **"Aqroservis" ASC-nin Xaçmaz Regional Nümayəndəliyinin direktoru Rafiq Tağıyev** məlumat verərək deyir: Regional nümayəndəlik Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarını əhatə edir. Biçinə hazırlıq məqsədilə bu rayonların hər birində nümayəndəliyin və Dövlət Aqrar İnkişaf mərkəzlərinin qərargahı yaradılmış, biçinə çıxacaq texnikaların sayı dəqiqləşdirilmişdir. Xaçmaz rayonunda "Aqroservis"ə məxsus 10 ədəd, özəl təsərrüfatlara məxsus 23 ədəd taxılyığan kombayn mövcuddur. Bunların hamısı biçinə tam hazır vəziyyətə gətirilmişdir. Bundan başqa, "Aqroservis" ASC-nin Quba rayonunda 12 ədəd, Qusar rayonunda 11 ədəd, Şabran rayonunda 10 ədəd, Siyəzən-Xızı rayonlarında 11 ədəd kombaynı vardır. Mövcud bütün kombaynlar biçinə tam hazır vəziyyətdədir. Onu da qeyd edim ki, ərazidə taxıl sahələrinin həcmi kifayət qədərdir. Təkcə Xaçmaz rayonunda cari ildə 21936.3 hektar sahənin taxılı biçiləcəkdir. Bu taxıl sahələrinin 14910 hektarı buğda, 6426,3 hektarı isə arpa bitkisidir. Bu rayonda olan əkin sahələrinin taxılını yığmaq üçün "Aqroservis" ASC-nin Xaçmaz Regional Nümayəndəliyinin 10 ədəd müasir tipli taxılyığan kombaynı biçinə tam hazırdır.

"Aqroservis" ASC-nin respublika üzrə tərtib etdiyi dislokasiya planına uyğun bu rayonda biçin başlayana qədər kombaynlar Aran rayonlarına biçin aparmaq üçün ezam olunmuşlar. Hazırda "Aqroservis" ASC-nin Xaçmaz Regional Nümayəndəliyinin 10 ədəd taxılyığan kombaynı Salyan, Sabirabad, Kürdəmir və Hacıqabul rayonlarında taxıl biçini aparırlar. Bu ildən işə operativ nəzarət etmək və işin təşkilini sürətləndirmək üçün bütün taxılbiçən kombaynlar "Aqroservis" ASC tərəfindən GPS qurğularla təmin olunmuşdur. GPS sistemi kombaynların hərəkətinə nəzarət etməklə işin operativ təhlil olunmasına yaxından kömək edəcəkdir. Aran zonasında taxıl biçini kampaniyasında iştirak edən kombaynlarımız yaxın günlərdə sahələrimizdə biçinə başlayacaqlar.

Bu günlərdə xidmət etdiyimiz rayonlarda kütləvi taxıl yığımına başlanacaqdır.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**



# Qazaxda barama tədarükü



**Son illər ölkəmizdə ixracyönümlü sahə olan baramaçılığın kənd yerlərində məşğulluğun təmin edilməsində mühüm rol oynaması nəzərə alınaraq bölgələrdə bu sahənin inkişafına dövlət dəstəyi daha da gücləndirilib. Ölkə başçısının "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında imzaladığı 27 noyabr 2017-ci il tarixli Sərəncamına əsasən bölgələrdə baramaçılığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılır.**

Ölkə Prezidentinin baramaçılığın və ipəkçiliyin inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələr Qazaxda da uğurla icra olunur. İpəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi rayonda ənənəvi sahələrdən olan baramaçılığın dirçəldilməsinə öz müsbət təsirini göstərir.

Qazaxlı kümçülər tərəfindən artıq altıncı ildir ki, ipəkqurdu bəslənilir. Cari mövsümdə 4,4 ton yaş barama istehsalı nəzərdə tutulub. Bu məqsədlə Qax Damazlıq İpəkçilik Stansiyasından gətirilən 110 qutu baramaqurdu kəndlər üzrə barama yetişdirən kümçülərə paylanılıb.

Qarşıya qoyduqları məqsədə çatmaq üçün böyük səylə çalışan kümçülər artıq barama tədarükünü həyata keçirirlər. Kümçülər növbəti dəfə öz məhsullarını "Azəripək" MMC-yə təhvil veriblər. 11 iyun tarixinə kimi 1645 kq barama məhsulu tədarük olunub.

Qazax Dövlət Aqrar İnkişaf Mərkəzində kümçülərin baramanı təhvil vermələri üçün hər cür şərait yaradılıb.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Torpağa düşən tər xeyir-bərəkət gətirər



**Ölkəmizin Mərkəzi Aran hissəsində ən münbit, bərəkətli torpaqlardan Saatlı rayonunun qismətinə də pay düşüb. Əslində torpağın münbitliyi əsas şərt deyil. Əsas şərt bu torpağın qədrini bilən, necə deyərlər, onun nazı ilə oynamağı, əkib-becərməyi bacaran, bu işə könül verən insanlardır. Uzun illər boyu Saatlı rayonunun iqtisadiyyatına, əhalisinə bələd olan adam kimi deyə bilərəm ki, bu bölgənin sakinləri sözün əsl mənasında torpağa bağlı insanlardır. Son dərəcə zəngin diyar olan ölkəmizdə hər bölgənin özünəməxsus məşğuliyyət sahələri var. Saatlıda əhalinin əsas işi-gücü əkinçilik, maldarlıq, torpaq işidir. Bu rayonda ən böyük qayğı pambıqda çıxışın alınması, taxılda vegetasiya dövrünün vaxtında əmələ gəlməsi, suvarma üçün Arazdan götürülən suyun bolluğu, yaxud qıtlığı və bu sayaq işlərdir.**





Çox uzaq keçmiş deyil. Bir neçə il bundan əvvəl kəndin əsas strateji məhsulu olan pambıqçılıq demək olar ki, gözdən düşdü. İllər boyu əhaliyə çörək-ruzi qismət edən "ağ qızıl"a maraq azaldı. Və illər boyu bu sahədə zəngin təcrübə qazanan insanların ad-sanı unuduldu, son dərəcə xeyirli əkinçilik növü arxa plana keçdi. Belə bir vaxtın özündə də Saatlı fermerləri dədə-baba peşəsindən əl çəkmədilər. Düzdür, çətinliklər saysız-hesabsız idi; təchizat, texnika yararsız hala düşmüşdü, dərman preparatları tapılmırdı, ən əsası istehsal olunan mahlıcı realizə etmək müşkülə çevrilmişdi.

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının təşəbbüskarı və yaradıcısı olan dövlət başçımız cənab İlham Əliyev aqrar sahədə iqtisadiyyatın aparıcı sahələrindən biri kimi pambıqçılığın inkişafını prioritet adlandırdı. "Ağ qızıl"ın taleyinə gün doğdu. Ölkə Prezidentinin müxtəlif rayonlarda pambıqçılarla keçirdiyi görüşlər, onun məsləhətləri, sərəncam və göstərişləri ilə sahənin inkişafına dövlət dəstəyi pambıqçılığın yenə də strateji məhsul olduğunu günün reallığına çevirdi. Əksər rayonlar bu işə sıfır nöqtədən başlamalı olduqları halda, saatlılılar dayanıb-durmayan "ağ qızıl" əkinini daha şövqlə davam etdirdilər. Son 4-5 ildə pambıqçılıqda əldə olunan göstəriciləri əks etdirən cədvəllərdə Saatlı rayonu birinci yeri götürür.

Bu xatırlama təsadüfi deyil. Saatlı rayonunun fermerləri hər il olduğu kimi, cari ildə də torpağa alın təri axıdıb bol məhsul istehsal etmiş və etməkdədirlər. Özü də təkcə pambıqçılıqda deyil, müxtəlif sahələrdə... Tarlalarda bol taxıl yetişdirilmişdir. 29. 400 hektarda payızlıq əkin üçün şum vurulmuş, 6635 hektarda arpa, 14. 190 hektarda buğda olmaqla 20. 825 hektarda payızlıq taxıl əkini aparılmışdır. Artıq bir neçə gündür ki, sahələrdə taxıl biçininə start verilmişdir. Qısa müddət ərzində 3883 hektar arpa sahəsi biçilmiş, məhsuldarlıq hər hektardan 36, 1 sentner olmuşdur. Saatlı Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru **Ağa Əsədovdan** aldığımız məlumata əsasən, taxıl biçinini tez və itkisiz başa çatdırmaq üçün bütün imkanlar var. Belə ki, biçinə 55 taxılbiçən kombayn cəlb olunmuş, buğda biçininə əlavə 4-5 kombaynın gətirilməsi nəzərdə tutulmuşdur.

Pambıq əkini əvvəlki illərdə olduğu kimi yenə əsas məhsul istehsalı sahəsi hesab olunur. Rayonda pambıqçılıqla 4 şirkət məşğul olur. Şirkətlər 3091 istehsalçı fermerlə müqavilə bağlamışlar. Nəzərdə tutulan 13. 950 hektar sahəyə qarşı 14. 295 hektar sahədə pambıq əkilmişdir. Sahələrdən tam çıxış alınmış və fermerlər 2-ci becərmə işlərinə start vermişlər. 3 nəfər fermer 19, 19 hektar sahədə şəkər çuğunduru əkmək üçün müqavilə bağlamış, taxıl biçinindən sonra 1300 hektar sahədə qarğıdalı plantasiyası salmaq nəzərdə tutulmuşdur.

Saatlı fermerləri ölkəni keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək barədə irəli sürülən çağırışlara əməli işlə cavab verirlər. Rayonda istər mal-qaranın, istər davarların baş sayı ildən-ilə artır. Rayon üzrə ümumilikdə 67. 765 baş iribuynuzlu, 115. 608 baş xırdabuynuzlu heyvan, 1732 arı ailəsi, 378. 253 baş quş saxlanılır. Heyvandarlıqda baytarlıq təbabətinin imkanlarından geniş istifadə olunur. Cari ilin birinci rübündə süni mayalanma




yolu ilə 1225 baş cins buzov alınmışdır. 1720 baş heyvan süni yolla mayalanmışdır. Barama istehsalında da uğurlu göstəricilər var. Bu il 130 kümçüyə 130 qutu barama təhvil verilmiş, 3 tondan artıq məhsul tədarük edilmiş və bu iş davam etdirilir.

Sadalanan rəqəmlər Saatlı fermerlərinin gərgin zəhməti sayəsində əldə olunmuş, torpağa axıdılan alın təri xeyir- bərəkət gətirmiş, var-dövlətə çevrilmişdir. Hər rəqəmin arxasında narahat günlər, qarşıya çıxan problemlərin həlli istiqamətində atılan addımlar, görülən işlər dayanır. Belə problemlərdən biri Saatlı rayonu ərazisinə daxil olan suvarma suyunun normadan az olmasıdır. Lakin saatlılılar bu problemin də yaxın vaxtlarda aradan qaldırılacağına əmindirlər. 44 günlük müharibə zamanı işğaldan azad etdiyimiz torpaqlarımızda Suqovuşan kimi iri su dəryaçalarımız mövcuddur. Bundan əlavə, Xudafərin Su Anbarından istifadə imkanları işə düşdükdən sonra Arazda su bolluğu yaranacaq ki, bu da bir çox problemin müsbət həlli deməkdir.

**T.HÜSEYN,**
**"Respublika".**

# Meşələr bizim yaşıl sərvətimizdir

**Xalqımızın ümummilli lideri Heydər Əliyev 26 dekabr 2001-ci ildə ölkədə meşələrin bərpa edilməsinə dair fərman imzalamışdır. Bu fərmanın icrası ilə əlaqədar Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Meşələrin bərpa edilməsinə və artırılmasına dair" hazırladığı Milli Proqramın layihəsi 18 fevral 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmişdir. Proqrama əsasən ölkəmizin regionlarında meşələr bərpa edilmiş və yeni meşəliklər salınmışdır. Azərbaycan Respublikasının Hirkan meşələrinin YUNESKO-nun Ümumdünya İrs Siyahısına birgə nominasiya şəklində daxil edilməsi ilə əlaqədar işlər davam etdirilir.**



Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin İdarə Heyətinin sədri Mirsalam Qənbərov görülən işlər haqda məlumat verərək dedi: -BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) təşkilatı ilə birlikdə beynəlxalq ekspertlər cəlb olunmaqla "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair Milli Meşə Proqramı" layihəsi və onun həyata keçirilməsi üçün Fəaliyyət Planı hazırlanmışdır.

Meşə ilə örtülü ərazilərin dəqiqləşməsi məqsədilə meşələrin inventarlaşdırılması işləri davam etdirilmişdir. Bu işdə kosmik texnologiyaların imkanlarından istifadə edilir. Meşəsalma fəaliyyəti ilə bərabər, meşələrin mühafizəsi tədbirləri də gücləndirilmişdir. Regionların qazlaşdırılması və ictimaiyyət arasında aparılan təbliğat hesabına qanunsuz ağac kəsilməsi halları azalmışdır. 2020-ci il ərzində 68 min 740 kubmetr oduncaq tədarük olunmuşdur.

Görülən işlər nəticəsində son illər 10 min 382 hektar sahədə meşəbərpa, 9 min 660 hektar sahədə təbii bərpa, 722 hektar sahədə isə əkin və səpin üsulu ilə aparılmışdır. Bu tədbirlərdə 875 min 533 ədəd ting və 2 ton 683 kiloqram palıd toxumu istifadə edilmişdir. Tinglik sahələrində 1 milyon 388 min 770 ədəd ting yetişdirilmiş, 9 hektar sahədə səpin işləri aparılmış, 7 hektar sahədə böyütmə və kökləndirmə şöbələri yaradılmış, həmçinin 51 ton 829 kiloqram toxum tədarük olunmuşdur. Dövriyyədə olan 11 min 467,3 hektar meşə əkinlərindən 2 min 83 hektar sahə örtülü meşəyə (meşə fonduna aid olan ərazi) keçirilmişdir. Aqrobağların salınması məqsədilə 1358,23 hektar ərazi müqavilə əsasında icarəyə verilmişdir.

Həmçinin qeyri-meşə fondu torpaqlarında 125 hektar sahədə yaşıllıqlar salınmış, 389 min 28 ədəd ağac əkilmişdir. 1004 kiloqram qiymətli ağac və kol cinslərinin toxumları (badam, zeytun, Eldar şamı, sərv, tuya, oleandr, tut, arizona sərvi və s.) tədarük edilərək səpilmiş, kökləndirmə sahələrində zeytun, nar, oleandr olmaqla cəmi 350 min ədəd çilik basdırılmışdır.

Tingliklərdə il ərzində səpilmiş müxtəlifcinsli ağac və kol toxumlarından və basdırılmış çiliklərdən müxtəlif meyvə, dekorativ və meşə cinslərinin ting və toxmacarları, o cümlədən badam, nar, zeytun, Eldar şamı, sərv, tut və s. yetişdirilmişdir. Ümumilikdə, rayon icra hakimiyyətlərinə 650 min 24 ədəd tut tingləri, yaşıllaşdırma və bağsalma məqsədilə vətəndaşlara və digər qurumlara 353 mindən çox müxtəlifcinsli əkin materialı əvəzsiz olaraq verilmişdir.

Qeyri-meşə fondu torpaqlarında, o cümlədən magistral avtomobil yollarının mühafizə zolaqlarından kənarda yerli bitmə şəraitinə uyğun və introduksiya olunmuş ağac və kol bitkilərindən istifadə etməklə yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması istiqamətində yaşıllıq ərazilərinin sahəsi 4 min 373 hektara çatdırılmışdır.

Şəhərsalma sahəsində dövlət siyasətinin tərkib hissəsi olaraq, yaşayış məntəqələrinin yaşıllaşdırma normalarını müəyyən etmək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 yanvar 2018-ci il tarixli 1 nömrəli Qərarı ilə "Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi normaları" təsdiq edilmişdir. Bu normalara əsasən "yaşayış məntəqələrinin layihələndirilməsi zamanı yaşıllıq sahəsi ayrılmış ərazinin minimum 40 faizini" və "əhalinin mövcud məskunlaşdığı məhəllələr yenidən layihələndirilərkən yaşıllıq sahəsi həmin ərazinin minimum 25 faizini təşkil etməsi" qəbul edilmişdir. Bu baxımdan, Abşeron yarımadasında 2013-2020-ci illər üzrə yaşıllaşdırma dinamikası orta hesabla illik 0.02% artımla aparılmışdır ki, bu göstərici müəyyən olunan normalara çatmaq üçün kifayət etmir.

Bakı şəhərində son illər davam edən irihəcmli tikintilər, əhali artımı, şəhər infrastrukturunun sürətlə böyüməsi, atmosferə buraxılan zərərli qazlar ekoloji təhlükəsizliyin təmin olunması baxımından yaşıllıq sahələrinin genişləndirilməsi öz aktuallığını saxlayır. Paytaxt ərazisində yaşıllıqların ümumi sahəsi təxminən 14 min hektar və ya adambaşına 6.64 kvadratmetr təşkil edir. Bakı və ətraf ərazilərin torpaq və iqlim şəraitini, sürüşməyə meyilliyini və əhalinin sıxlığını nəzərə alaraq, 8 min 400 hektar ərazidə əlavə ağac və kol bitkilərindən ibarət yaşıllıq massivlərinin salınması və bu ərazilərdə müvafiq suvarma sistemlərinin qurulması nəzərdə tutulmuşdur.

Xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi və bioloji müxtəlifliyin qorunması istiqamətində aparılan işlər davam etdirilir. Ölkəmizdə ümumi sahəsi 892 min 874.7 hektar olan xüsusi mühafizə olunan təbiət əraziləri, o cümlədən 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir.

Salınmış yaşıllıqların suvarılmasını dayanıqlı şəkildə təmin etmək məqsədilə tullantı sularından istifadə olunması genişləndirilir. Hazırda Hövsan aerasiya qurğusundan, Badamdar qəsəbəsindən keçən magistral kanalizasiya kəmərinin üzərində qurulmuş təmizləyici qurğudan istifadə etməklə suvarılır. 2020-ci ildə ETSN-in Xəzər Dənizi Suyunun Duzsuzlaşdırılması İdarəsində 1 milyon 145 min 629 kubmert dəniz suyu qəbul edərək, 493 min 723 kubmetr su duzsuzlaşdırılmışdır. İstehsal edilmiş sudan əsasən tinglik sahələrinin və salınmış yaşıllıqların suvarılmasında istifadə olunmuşdur.

İDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Yaşıl Marafon" kampaniyasında dövlət qurumları, özəl şirkətlər, media təmsilçiləri, könüllülər və vətəndaş cəmiyyəti nümayəndələri xüsusi fəallıq göstərib.

İctimaiyyətin və tərəfdaşlarımızın dəstəyi ilə yaz mövsümündə respublikanın meşə fondu ərazilərindəki açıq sahələrdə 400 mindən artıq meşəcinsli ağac əkilib, meşəbərpaya kömək məqsədilə 4 tondan çox toxum səpilib. Eyni zamanda vətəndaşlara, icra hakimiyyətlərinə, dövlət və özəl təşkilatlara Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tinglik sahələrində yetişdirilən 121 mindən çox müxtəlifcinsli ağac tingi paylanılıb.

Ötən illərlə müqayisədə builki yaz ağacəkmə kampaniyasında ictimaiyyətin dəstəyini daha çox hiss etdik. İDEA İctimai Birliyinin təşəbbüsü ilə başladılan "Yaşıl Marafon" kampaniyası çərçivəsində keçirilən ağacəkmə tədbirləri ilk gündən ictimaiyyət tərəfindən geniş maraq və böyük coşqu ilə qarşılandı. Bu təşəbbüsə qoşulmaq üçün demək olar ki, cəmiyyətin bütün təbəqələrindən müraciətlər daxil oldu.

Ağacəkmə tədbirləri bütün regionlarda payız mövsümündə də davam etdiriləcək və ilin sonunadək 1 milyondan çox ağacın əkilməsi nəzərdə tutulub.

**Kamil İSMAYILOV,**
**"Respublika".**



# SOSİAL həyat

Qəbələ:



# Xatirələrdən silinməz insan

**Keçdiyi həyat yolunun qiyabi səyahətinə çıxanda bu tarixlərin hər birinin bir kitab qədər əhəmiyyətli olduğunu görürsən. Çünki hər bir tarixin kökündə, mayasında, qayğıkeşliyin, işgüzarlığın, zəhmətə qatlaşmağın, hər kəsə olan mehribanlığın, səmimiliyin, lazım gələndə məqsədyönlü prinsipiallığın təntənəsini hiss edirsən. Adını eşidib üzünü görməyənlərdən də, özü ilə çiyin-çiyinə çalışanlardan da, bir süfrədə oturub duz-çörək kəsdiyi adamlardan da haqqında soraqlaşanda ancaq bu cavabları eşidirsən: ürəyi daim eli, obası üçün döyünən, hamının xoş günlərinə sevinən, dərdinə, qəm qüssəsinə dərindən heyfslənən, dəstək olan, ən əsası da dövlətə, dövlətçiliyə sədaqətli insan idi.**

Mən özüm "Respublika" qəzetində müxbirlik fəaliyyətinə başlayandan Qəbələnin Icra Hakimiyyətində onunla tanışlığımın ilk günlərindən bu deyilənlərin canlı şahidi olmuşam. Rayon icra hakimiyyəti başçısının birinci müavini kimi mətbuat işçilərinə çox həssas, qayğıkeş idi. "Respublika" qəzetinin ən fəal oxucusu və təbliğatçısı olmasından qürurlanırdı. Dəyərli məsləhətlərindən, təkliflərindən, lazım gələndə göstərdiyi köməkliklərdən çox bəhrələnmişəm.

Mətləbdən çox uzaqlaşmayıb 1935-ci ildə Qəbələ rayonunun Xırxatala kəndində anadan olan, Şəkidəki ikiillik Müəllimlər İnstitutunu qurtarandan sonra bir müddət riyaziyyat müəllimi kimi fəaliyyət göstərən, sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qiyabi yolla ali təhsil alan, ictimai fəallığına, idarəetmə qabiliyyətinə görə rayonda rəhbər vəzifələrə irəli çəkilən mədəniyyət şöbəsinin müdiri, bir neçə ildən sonra rayon icra hakimiyyəti başçısının birinci müavini təyin olunan Əhmədiyyə Məmmədovun dövlətə, dövlətçiliyə xidmət etdiyi bəzi məqamları xatırlatmaq yerinə düşər.

Müəllim işlədiyi, məktəb direktoru olduğu illərdə gənc nəslin yüksək keyfiyyətlə təlim tərbiyə almasında, gələcəyin əsil fədakar dayaqları kimi yetişməsində, rayon mədəniyyət şöbəsinə rəhbərliyi illərində Qəbələnin qədim tarixinin daha dərindən öyrənilib təbliğ olunmasına, mədəniyyət müəssisələrinin dövrün tələblərinə uyğun fəaliyyətlərinin canlandırılmasına, mədəniyyət sahəsindəki istedadların tapılıb ortaya çıxarılmasına da qayğısı ilə seçilib. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi və iqtisadi strategiyasının daha firavan sabaha aparacağına möhkəm inanan Əhmədiyyə müəllim 1993-cü ildə Yeni Azərbaycan Partiyasının Qəbələdə ilk özəyinin yaradılmasına nail olub və ömrünün sonunadək bu partiyanın yerli təşkilatının sədri vəzifəsini daşıyıb. Böyük nüfuz və inam, hörmət sahibi idi. Vətəndaş məmur ünsiyyətindən söhbət düşəndə həmişə bu fikri vurğulayırdı ki, icra hakimiyyəti hər kəs üçün inam, ümid ünvanıdır. Heç kim bu ünvandan naümid ayrılmamalıdır.

Əhmədiyyə Məmmədovun ayrı-ayrı tədbirlərdə Qarabağ torpaqlarının erməni vandallarının əsarətində olmasından və Heydər Əliyev siyasətinin bu işğala gec-tez son qoyacağından bəhs edən söhbətlərinin iştirakçısı olmuşam. Milyonlardan biri kimi, onun da ruhu arzuladığı günə qırx dörd günlük müharibədə Azərbaycan ordusunun rəşadəti, Ali Baş Komandan İlham Əliyevin səyi, iradəsi, dəmir yumruğu ilə qazanılan qələbəyə qovuşdu.

Haqqında söhbət açdığımız Əhmədiyyə Məmmədov sovet dövrünün bir çox bürokratçılıqları ilə də, doxsanıncı illərin əvvəllərində respublikada hökm sürən xaos vəziyyətlərlə də üzləşib. Amma heç vaxt öz əqidəsindən dönməyib, dövlətin, dövlətçiliyin keşiyində mərdliklə dayanıb. Bir sözlə, ayların, illərin fırtınasından ömrü ömür kimi yaşamağıyla mərdliklə çıxıb. Bu kimi keyfiyyətlərinə, həm də öz dövləti vəzifəsini, Vətənə xidmətini ləyaqətlə yerinə yetirdiyinə görə 2006-cı ildə Azərbaycan Respublikası Prezidenti Ilham Əliyevin sərəncamı ilə III dərəcəli "Vətənə xidmətə görə" medalı ilə təltif edilmişdir.

İllərin əks sədası, sadəlikdən qidalanan bir ömür sahibinin dövlətə, dövlətçiliyə sədaqətini onunla eyni illərdə bir yerdə çalışanlar da ürəkdən gələn səmimi sözlərlə belə ifadə etdilər:

**Sədaqət Bayramova - Qızıl Aypara Cəmiyyəti Qəbələ Rayon Təşkilatının sədri:**

—Uzun illər mən də rayonda rəhbər vəzifələrdə çalışmışam. O vaxtkı komsomol məktəbində oxuduqdan sonra partiya, sovet təşkilatlarında müxtəlif vəzifələr daşımışam. Əhmədiyyə müəllimlə çalışdığım illərin xatirələri mənim üçün daha əzizdir. Çünki ondan həmişə qayğıkeşlik, dəyərli ağsaqqal məsləhəti, təcrübəli rəhbər, işçiyə xas olan köməklik görmüşəm. Məncə o, dövrünə görə bizim hamımız üçün bir məktəb idi və biz o ocaqdan yetərincə bəhrələnmişik. Bu gün də o, qəlbimizdə yaşayır, heç vaxt da unudulmayacaq.

**Varis Yaqubov, təqaüdçü:**

—Qayğıkeş rəhbər işçi, sədaqətli dost, ağıllı məsləhətçi, hamımızı bu gündən sabaha nikbinliklə baxmağa ruhlandıran bir insan idi. Mən "Respublika" qəzetinin bu cür mövzuya müraciətini alqışlayıram.

Bu xoş ifadələrlə dolu xatirələrin sayını artırmaq da olar. Bütün bunların hamısı Əhmədiyyə Məmmədov adlı bir ömür kitabına yazılan unudulmaz tarixlərdir. Bəlkə də oxuculara adi görünər bu tarixlər, hətta bəziləri bu cür tarixə malik insanların ölkəmizdə yüz minlərlə olduğunu söyləyərlər. Amma unutmayaq ki, bu cür mənalı ömür yolunu bu günümüzün fəallarına, sabahımızın etibarlı dayaqlarına tanıtmaq hamımızın borcudur.

**Rasim AMANOV,**
**"Respublika".**

# MÜƏLLİM ÖMRÜ

**Xoşbəxt yaşamaq hər kəsin arzusudur. Səadətə, xoşbəxtliyə qovuşmaq üçün hərə bir yol seçir. Əməyə, zəhmətə, biliyə, elmə söykənən yollar isə insanı daim ucaldır.**



Azad uşaq yaşlarından çətinliyin, əzab-əziyyətin, zəhmətin nə olduğunu gözəl bilib. Atası Ağadadaşın 12 nəfərlik ailənin dolanışığı üçün gecə-gündüz zəhmətə qatlaşması, anası Xalisənin onunla birgə ailə qayğılarını çəkməsi Azadın uşaq yaddaşında dərin iz buraxıb. Üzləşdiyi çətinlikləri ruhdan düşməyib yoluna qoyması, çoxlu uğurlar qazanması onun ailə ənənələrinə sadiqliyindən qaynaqlanır.

Azad Abdullayev 1961-ci il may ayının 26-da Astara şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 1977-ci ildə Astara şəhər 1 saylı tam orta məktəbini bitirib. Müqəddəs müəllim peşəsini seçib. Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsinin məzunudur.

1982-1984-cü illərdə həqiqi hərbi xidmətdə olub. Ordu sıralarında bərkdən-boşdan çıxıb. Əmək fəaliyyətinə Astara rayonunun Şahağacı kənd tam orta məktəbində ingilis dili müəllimi kimi başlayıb. Bacarığını, işgüzarlığını, təşkilatçılıq qabiliyyətini nəzərə alıb onu Seləkəran kənd əsas məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini təyin ediblər.

1990-cı ildə qabaqcıl, səmərəli pedaqoji fəaliyyətinə görə rayon təhsil şöbəsində metodist vəzifəsinə irəli çəkilib. 1993-cü ildə isə təzə fəaliyyətə başlayan Astara Pedaqoji Kollecində müəllim, sonra metodist kimi fəaliyyətini davam etdirib.

1997-ci ildə kollecin tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin edilib. Təhsil ocağında tədrisin keyfiyyətinin yüksəldilməsində, müəllim kadrlarının hazırlanmasında səmərəli işi, uğurları ilə diqqəti cəlb edib. Rayon və respublika mətbuatında onun nümunəvi, qabaqcıl iş təcrübəsi barədə yazılar dərc olunub. Elmi jurnallarda 10-dan çox məqaləsi çap olunub. Təhsil problemləri, metodik işlərin və pedaqoji təcrübənin təşkili məsələləri haqqında yazdığı məqalələr maraqla qarşılanıb. Təhsillə bağlı keçirilən treninqlərdə fəal iştirak edərək sertifikatlar qazanıb. Dəfələrlə Astara Pedaqoji Kolleci, Astara Rayon İcra Hakimiyyəti və Təhsil Nazirliyi tərəfindən fəxri fərman və mükafatlara layiq görülüb.

2012-ci ildə təhsil sahəsində uzun illər səmərəli fəaliyyətinə görə Azad Abdullayev Təhsil Nazirliyinin kollegiya qərarı ilə "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilib. Bilik Fondu ilə "Azərbaycan müəllimi" qəzeti redaksiyasının birgə keçirdiyi "Ən yaxşı yazı" müsabiqəsində II dərəcəli diploma layiq görülüb. Hazırda kollecdə ixtisası üzrə müəllim işləyir.

Azad müəllim hansı vəzifədə işləməsindən asılı olmayaraq ömrünün 40 ilini həsr etdiyi müəllim peşəsinin şərəfini, nüfuzunu həmişə qoruyub. Halal zəhmətlə dolanıb. Kollektivdə, cəmiyyət arasında böyük hörmət, ad-san qazanıb.

Xeyirxahlığı, nəcib əməlləri ilə tanınan Azad müəllim Astara Pedaqoji Kollecdə də sayılıb-seçilir, sevilir. Zəngin təcrübəsini həvəslə gənclərə öyrədir, onlardan heç vaxt köməyini əsirgəmir.

Azad müəllim ötən illərə fəxarətlə, qürurla baxır. Qazandığı hörmət, məhəbbət və nüfuz onun üçün daha qiymətlidir. Ömür kitabının hər səhifəsi maraqlı və yaddaqalandır. O, həm də gözəl ailə başçısıdır. Övladları Aqşin iqtisadçı, Şəbnəm psixoloqdur. Hər ikisi ailə ənənələrini sədaqətlə davam etdirir.

Azad müəllimi daha fərəhli, sevinc dolu aylar, illər gözləyir. Yeni, daha böyük uğurlar, nailiyyətlər qarşıdadır.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

# Uşağı sevindirmək böyük xeyirxahlıqdır



**Artıq bir neçə gündür ki, ölkəmizdə "Hədiyyə karvanı" layihəsi uğurla davam edir. Layihə çərçivəsində Türkiyənin Uşaq Oyunları və İdman Klubları Federasiyasının əməkdaşları tərəfindən Vətən müharibəsində həlak olan şəhidlərimizin ailələri ziyarət olunur və onların övladlarına hədiyyələr təqdim edilir. "Hədiyyə karvanı" növbəti görüşünü Kürdəmir rayonunda davam etdirdi. Vətən müharibəsi şəhidlərinin ailələri, o evlərdə böyüyən körpə balalar bu ziyarətdən məmnun qaldılar.**

Görüşlərdə Kürdəmir Rayon İcra Hakimiyyətinin, Kürdəmir regional ASAN Xidmətinin və "YAŞAT" Fondunun əməkdaşları da iştirak etdilər.

Şəhid ailələri şəhidlərimizə, onların övladlarına olan hörmət və ehtirama, ailələrinə göstərilən diqqət və qayğıya görə tədbirin təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

—Bu dünyada ən böyük xeyirxahlıq uşaq sevincidir. Kimsə bir körpənin üzündə xoş təbəssüm yaradırsa savab iş görür, şəhid ailələrinə göstərilən xeyirxahlığa bu sözlərlə minnətdarlıq ifadə olundu.

Qeyd edək ki, Türkiyənin Uşaq Oyunları və İdman Klubları Federasiyasının əməkdaşları "Hədiyyə karvanı" layihəsi çərçivəsində artıq bir neçə müddətdir ki, respublikamızın digər rayonlarında da olublar, onlara Azərbaycanla bərabər qardaş Türkiyə Respublikasının adından öz dəstəklərini ifadə ediblər.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# "Könüllü qonaq" ahıl və tənhaları ziyarət edir





**Gənclik illəri axtarış, təşəbbüs, yaradıcılıq notları ilə ömrə gözəllik gətirir. İnsan bu yaşda hansı xeyirxah, yaddaqalan əməl sahibi olursa, ömrün sonrakı illərində saysız-hesabsız xatirələrlə baş-başa olur.**

Sosial şəbəkələrdə Şirvan Gənclər Evi Sosial Xidmət Müəssisəsinin "Könüllü qonaq" adlı son dərəcə maraqlı bir layihəyə start verdiyini eşitdik. Gənclər ömrün ahıllıq çağlarını yaşayan, qayğıya, köməyə ehtiyacı olan tənha insanların evinə qonaq gedir, mənzildə yır-yığış edir, təmizlik aparır, həyət-bacada səliqə-sahman işi görürlər. Başqa cür də ola bilir. Ömrün ötən çağlarını şərəfli əməyə həsr edib ad-san qazanan insanlar var ki, qoca yaşda kimlərləsə görüşüb söhbət etməyə, xatirələr danışıb keçmişlərini yad etməyə ehtiyac duyurlar. "Könüllü qonağın" - Azərbaycanda məşhur qazma ustası kimi şöhrət qazanıb dövrün ən hörmətli titullarına - Əmək Qəhrəmanı adına layiq görülmüş, Azərbaycanın və SSRİ Ali Sovetinin deputatı olmuş Akif Əmənovla görüşü hamıya xoş təsir bağışladı. Akif Əmənovun heç bir maddi kökməyə ehtiyacı olmasa da, bu görüş onun üçün mənəvi cəhətdən əhəmiyyətli oldu.

Razılıq hissilə deməliyik ki, "Könüllü qonaq" belə görüşlərin sayını artırmaqdadır. Növbəti görüşü Şirvan Gənclər Evi Sosial Xidmət Müəssisəsi - Şirvan Şəhər İcra Hakimiyyəti, Şirvan Gənclər və İdman İdarəsi ilə birlikdə xüsusi qayğıya ehtiyacı olan tənha insanlara həsr edib. Şəhərin Füzuli küçəsində tənha yaşayan Zeynəb Əliyeva, S.Zeynalov küçəsində yaşayan Fizzə Xəlilova evə gəlib onlara baş çəkən qonaqları xoş üzlə qarşılayıblar. Gənclər ilk növbədə hər iki qadının ehtiyacını öyrənib və bu ehtiyacı ödəməyə çalışıblar. Sonra mənzildə və həyət-bacada təmizlik, səliqə-sahman yaradıb, kiçik təmir işlərinə əl yetiriblər. Gənclərin qonaq gəldiyi gün Fizzə nənənin 91 yaşı tamam olub. Onun ad günü təbrik edilib.

Hər iki tənha qadın gənclərə təşəkkür edib, onlara gələcək fəaliyyətlərinə xeyir-dua veriblər.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

# Xüsusi qayğıya ehtiyacı olan xəstələrə dövlət dəstəyi

**Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra ölkədə bütün sahələr üzrə əsaslı dönüş yarandı. Müdrik şəxsiyyətin uzaqgörənliyinin və böyük əməyinin bəhrəsi kimi genişmiqyaslı işlərin nəticəsi olaraq səhiyyənin inkişafı da möhkəm təməllər üzərində quruldu.**



Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev əhalinin sağlamlığının qorunması istiqamətində mühüm əhəmiyyətli tədbirlərin həyata keçirilməsinə nail oldu. Yeni istifadəyə verilən, təmir və bərpa olunan səhiyyə ocaqlarına dünyanın inkişaf etmiş ölkələrindən tibbi avadanlıq və ləvazimatlar gətirildi və xəstəxanalar dünya standartlarına uyğunlaşdırıldı. Hazırda səhiyyə ocaqlarında elə bir şərait yaradılıb ki, insanlar xəstəxanalara böyük inamla gedir və müalicə olunur. "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı", "Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı", "Xroniki böyrək çatışmazlığı üzrə Dövlət Proqramı" və "Onkoloji xəstəliklərin həyati vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı" uğurla icra olunur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada 250 milyondan artıq talassemiya daşıyıcısı və təxminən 300 min talassemiya xəstə vardır. Azərbaycanda talassemiya xəstələrinin faiz göstəriciləri dünya ölkələri ilə müqayisədə xeyli dərəcədə yüksəkdir. Xəstəlik əsasən Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşən Şəki, Zaqatala, Qəbələ, Quba, Göyçay və Ağdaş rayonlarında geniş yayılıb. Azərbaycanda doğulan hər 500 uşaqdan biri ağır formalı talassemiyalı xəstədir. Talassemiya irsi qan xəstəliyidir. İki talassemiya xəstəlik daşıyıcısı evləndikdə onların övladlarında inkişaf edir. Daşıyıcılar anadan olandan ömürlərinin sonuna kimi bu əlaməti özlərində saxlayırlar.

Qeyd edək ki, talassemiyalı uşaqların əsas müalicəsi onlara bütün ömürləri boyu hər ay qan köçürülməsindən ibarətdir. Bununla yanaşı, xəstələrin daxili orqanlarında toplanan və onların fəaliyyətini pozan dəmir artığının aradan qaldırılması üçün dəmirqovucu dərmanlardan da istifadə olunur. Lakin müntəzəm müalicə almayan xəstə uşaqlarda ürək-damar çatışmazlığı, qaraciyər xəstəliyi, endokrinal pozuntular inkişaf edir və belə uşaqlar 10 yaşına çatmadan dünyasını dəyişir. Ona görə də ailə qurarkən gələcəyi, övladların sağlamlığını, taleyini düşünmək lazımdır.

İnkişaf etmiş Qərbi Avropa ölkələrində bu proses artıq tətbiq olunur. Ölkəmizdə də nikahdan əvvəl insanların tibbi müayinədən keçməsinə həm bölgələrdə, həm də paytaxtda ehtiyac var. İstər qadın, istərsə də kişidə bəzən elə problem olur ki, məhz həmin iki insan ailə qurandan sonra ortaya çıxır. Talassemiyanın ailələrə vurduğu maddi və mənəvi ziyanlar da böyük olur. Ona görə də əvvəldən tibbi müayinələrin aparılması çox önəmlidir.

Son illərdə bir sıra qeyri-hökumət təşkilatlarının iştirakı ilə talassemiyalı xəstələrin aşkarlanması və müalicəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Respublika Talassemiya Mərkəzinin yaradılması nəticəsində bu xəstələrin müalicəsinin müasir səviyyədə təşkili mümkün olmuşdur. Artıq talassemiyanın radikal müalicə üsulu olan sümük iliyi transplantasiyasının da həyata keçirilməsinə başlanmışdır.

Azərbaycanda xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların hemodializ müalicəsi artıq öz həllini tapmışdır. Respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 39 mərkəzdə üç mindən artıq xəstə hemodializ seansları və müvafiq dərman vasitələri ilə tam həcmdə pulsuz təmin olunurlar. Bu mərkəzlərdən 30-u bölgələrdə yerləşir. 2016-cı ildə Ağsu, Qusar, Göygöl rayonlarında yeni hemodializ şöbələri açılıb, bəzi mövcud mərkəzlərdə əlavə aparatlar quraşdırılıb. Qeyd etmək lazımdır ki, bu kateqoriya xəstələrə hazırda hemodializlə yanaşı, xəstəliyin radikal müalicə üsulu olan böyrəkköçürmə əməliyyatları da həyata keçirilir.

"Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi diabetin profilaktikası və bu xəstəlikdən əziyyət çəkən insanların müalicəsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır. Şəkərli diabet üzrə tədbirlər proqramı çərçivəsində hazırda 218 mindən çox şəkərli diabet xəstəsi davamlı olaraq insulin və digər şəkərsalıcı dərman preparatları, özününəzarət vasitələri ilə təmin edilmiş, bu xəstəlikdən əziyyət çəkən uşaqlar üçün 90 ədəd insulin pompası alınaraq onlara paylanmışdır.

Nazirlər Kabinetinin 11 noyabr 2016-cı il tarixli qərarı ilə "2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı" qəbul edilib. İnsanların sağlamlığı dövlətimiz üçün prioritet məsələdir. Qeyd olunan Proqram qanın bədxassəli xəstəliklərinin diaqnostikasının və müalicəsinin dövlət hesabına innovasion preparatlarla təminatına imkan yaratmışdır. "Onkoloji xəstələrin şiş əleyhinə əsas praparatlarla təminatı üzrə Tədbirlər Proqramı" qəbul edildikdən sonra bədxassəli şişlərlə mübarizə işində xeyli irəliləyiş əldə edilmişdir. Onkoloji xəstələrə yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazası ən müasir avadanlıqla, o cümlədən mobil diaqnostik komplekslə də təchiz edilmişdir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində son illər ərzində Azərbaycan səhiyyəsi xeyli inkişaf etmiş, xüsusi qayğıya ehtiyacı olan xəstəliklərə dövət dəstəyi artırılmışdır.

**Kamil İSMAYILOV,**
**"Respublika".**



**"Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# Gənclərə ərməğan Vətən

## *Müasir gəncliyimiz hərbi peşələrə yiyələnərək xalqımızın döyüş ənənələrini daha da zənginləşdirir*

Erməni faşizminə qarşı 44 günlük Vətən müharibəsi müasir Azərbaycan gəncliyinin vətənpərvərliyini, döyüş əzmini, mənəvi gücünü və hərbi məharətini bir daha bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandanın qətiyyətli rəhbərliyi ilə düşməni məğlub edib, diz çökdürən rəşadətli ordumuzun qəhrəman əsgər, gizir və zabitlərinin əksəriyyəti məhz gənclərdir. Onlar ölkəmizin dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə, ulu öndər Heydər Əliyevin həyata keçirməyə başladığı, Prezident İlham Əliyevin davam etdirdiyi ordu quruculuğu prosesində yetişib, hərbi işin sirlərini, müasir döyüş qaydalarını öyrənib, ən yeni silahlarla davranmaq, onları idarə etmək qabiliyyətinə yiyələniblər.

Böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində təkcə ailənin və təhsil sisteminin deyil, bütövlükdə cəmiyyətin üzərinə mühüm vəzifələr düşür. Ulu öndər Heydər Əliyev deyirdi: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Əminliklə deyə bilərik ki, nəticəsindən asılı olmayaraq, birinci Qarabağ müharibəsi, o dövrdə ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizənin önündə addımlayan, düşmənlə döyüşən igidlərin, şəhidliyə yüksələn qəhrəmanların vətənpərvərlik nümunəsi yeni nəslin tərbiyəsinə öz təsirini göstərməyə bilməzdi. Dövlət idarəçiliyində və hərbi quruculuqda yol verilən ciddi nöqsanlara, siyasi çaxnaşmalara və vahid komandanlığın olmamasına görə torpaqlarımız əldən getsə də, biz bir toplum olaraq, sınmadıq, əyilmədik, üstəlik, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətdə ruh yüksəkliyi, gələcək uğurlara, qələbələrə zəmin yarandı. Ulu öndər hərbi quruculuğa özünəməxsus yeni yanaşma göstərərək, qısa müddətdə mütəşəkkil ordunun təməlini qoydu, şəxsi heyətin ideya-mənəvi gücünü artırdı, döyüşçülərin və onların ailələrinin sosial müdafiəsini gücləndirdi. Məhz bu amillər hələ o vaxt Füzuli rayonunun onlarla yaşayış məntəqəsinin erməni işğalından azad edilməsinə səbəb oldu. Atəşkəsin elan edilməsi isə silahlı qüvvələrimizin gücləndirilməsi, ümumən, ölkəmizin hərtərəfli inkişafı üçün imkanlar açdı. Ulu öndərin, sonradan isə onun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət və genişmiqyaslı islahatlar nəticəsində ölkəmizin müdafiəsini və ərazi bütövlüyünün bərpasını, xalqımızın təhlükəsizliyini təmin etməyə qadir ordu formalaşdırıldı. Hələ 44 günlük Vətən müharibəsinədək nüfuzlu beynəlxalq reytinq təşkilatlarının apardığı araşdırmaya əsasən, Azərbaycan Ordusu dünyanın 50 ən yaxşı ordusu sırasında yer alırdı. Erməni faşizmi üzərində tarixi qələbə və onun əldə edilməsi üçün gerçəkləşdirilən "Dəmir yumruq" əməliyyatında tətbiq edilən texniki-taktiki yeniliklər ordumuza dünyada böyük rəğbət qazandırdı.

Təbii ki, hərbi əməliyyatların uğuru zabit kadrlarının biliyi və peşəkarlığı, şəxsi heyətin yüksək döyüş hazırlığı, fiziki və mənəvi-psixoloji keyfiyyətləri ilə birbaşa bağlıdır. Azərbaycanda ötən əsrin 70-ci illərindən başlayaraq peşəkar zabitlər nəslinin yetişdirilməsində Heydər Əliyevin misilsiz xidmətləri daim ehtiramla xatırlanır. Həmin dövrdə əsası qoyulan məşhur Naxçıvanski liseyi minlərlə azərbaycanlı yeniyetmənin hərbçi olmaq arzusunu gerçəkləşdirdi. Bu məktəbin yetirmələri müstəqil dövlətimizin ordu quruculuğuna çox böyük töhfələr veriblər və bu gün həmin ənənə davam edir.

Yeniyetmələrə və gənclərə hərbi-vətənpərvərlik hisslərinin aşılanmasının ilkin mərhələsi ümumtəhsil müəssisələrində çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisi ilə başlayır. Təlim prosesində şagirdlərə qanunlara hörmət, orduya rəğbət, vətənə xidmət, xalqa məhəbbət kimi hisslər aşılanır. Bakı Şəhəri üzrə Təhsil İdarəsindən əldə etdiyimiz məlumata görə, müvafiq tədris proqramı Nazirlər Kabinetinin təsdiq etdiyi "Gənclərin ibtidai hərbi hazırlıq əsasnaməsi"nə uygun olaraq hazırlanaraq, X və XI siniflərdə tədris edilir. Şagirdlər tədris ili boyu sıra hazırlığı, silahlar və atəş hazırlığı, taktiki hazırlıq, hərbi topoqrafiq biliklər, fövqəladə halların təsnifatı, ilkin tibbi yardım qaydalarını hərbi kabinetlərdə mənimsəyirlər. Hərbi kabinetlər bütün bölmələri əks etdirən tərtibat işləri və əməli məşğələləri keçmək üçün əyani vəsaitlər ilə təchiz olunub. Yuxarı sinif şagirdləri arasında 1996-cı ildən başlayaraq keçirilən, hər il yüz minədək məktəblini əhatə edən çoxməqsədli və maraqlı layihələrdən biri kimi "Şahin" hərbi-idman oyununun böyüməkdə olan gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə böyük müsbət təsiri var.

Ölkəmizdə hərbi işə maraq göstərən yeniyetmələrin xüsusi orta təhsil müəssisəsi seçmək imkanı daha da genişlənib. Hazırda Bakıda C.Naxçıvanski, Naxçıvanda H.Əliyev adına liseylər, Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbi uğurla fəaliyyət göstərir. Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar belə məktəblərin sayının artırılması məsələsini aktuallaşdırır.

Hərbi vətənpərvərliyin konkret hərbi peşəkarlıqla birləşdiyi ən mühüm mərhələ isə Silahlı Qüvvələrimiz üçün zabit kadrları hazırlayan ali hərbi məktəblərdir. Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsi, Daxli Qoşunların Ali Hərbi Məktəbi, Silahlı Qüvvələrin Hərbi Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası ixtisaslaşmış hərbi təhsil müəssisələri kimi fəaliyyət göstərərək, ordumuzun, silahlı qüvvələrimizin şəxsi heyətini peşəkar zabit kadrları ilə təmin edirlər.

Bunların arasında zəngin tarixi ənənələri olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi xüsusi yer tutur. Məktəbdə beynəlxalq təhsil standartlarına cavab verən tədris metodikası hərb elminin incəliklərini kursantlara tam aşılamağa imkan verir. 44 günlük Vətən müharibəsində məktəbin 600-ə yaxın hərbi qulluqçusu Qələbə uğrunda döyüşüb, onlardan 10 nəfəri şəhid olub, 23-ü isə yaralanıb. Şəhid olanlardan 5-i zabit-müəllim, 5-i isə IV kursdan müharibəyə göndərilən kiçik leytenantdır. Şəhid polkovnik Nudirəliyev Zaur İsmayıl oğlu ən yüksək - Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Məktəbin son kursunu bitirib, kiçik leytenant rütbəsində tağım komandiri kimi cəhbəyə yollanan, Şuşa uğrunda döyüşlərdə iştirak edərkən ağır yaralanaraq əsir düşən, 34 günlük məşəqqətli əsirlikdən sonra dövlətimizin başçısının qətiyyəti nəticəsində vətənə qayıdan, ayağının birini itirsə də, heç nəyə görə peşman olmadığını qürurla deyən qazi Mobil Əhmədzadə bu yaxınlarda jurnalistlərə müsahibə verərkən ali hərbi məktəbdə öyrəndiyi döyüş aparmaq bacarığına görə müəllim və zabit heyətinə minnətdarlıq bildirib. Torpaqlarımızın azadlığı uğrunda canından-qanından keçən gənc zabitlərin yetişdirilməsi hərbi təhsil müəssisələrimizin böyük uğuru, nailiyyətidir.

Fiziki və mənəvi cəhətdən sağlam hər bir azərbaycanlı gənc vətəni, xalqı, dövləti qorumağa daim hazır olmalıdır. Gənc vətənpərvərlərimizin 44 günlük Vətən müharibəsindəki qəhrəmanlıq səhifələri böyüməkdə olan nəsillərimiz üçün örnəkdir. Bu səhifələri daim vərəqləmək, onları dönə-dönə oxumaq, hər bir sonrakı nəslə çatdırmaq lazımdır ki, vətənimizin bütövlüyü qorunsun, bir daha heç kim torpaqlarımıza göz dikmək niyyətinə düşməsin.

**Möhtərəm RƏCƏBOVA,**
**"Respublika"**

# Ermənistanın məkr və yalanları onları məhvə aparır

**"Ermənilik xəstəliyi", yaxud da erməni məkri! Bu sözlər özündə nəyi ehtiva edir? Dünyanın bir çox siyasətçiləri, tarixçiləri, politoloqları erməni məkrinin mayasında dayanan vandalizmi, faşizmi, vəhşiliyi, yalanı, hiyləni, "erməni xəstəliyini" öz əsərlərində zaman-zaman açıb göstəriblər. Əsrləri adlayıb XXI yüzilliyə gəlib çıxmışıq, erməni məkri, erməni barbarlığı hələ də yaşayır, yaşadıqca da təkcə türk dünyasına yox, bütün bəşəriyyətə, insanlığa ciddi təhlükə törədir.**

"Böyük Ermənistan uğrunda" şüarı ilə pərdələnərək qan tökən ermənilər bu şüardan heç zaman imtina etmədilər, əksinə terror hərəkətlərini daha da genişləndirib Yer kürəsinin xalqlarına meydan oxumağa cəhd göstərirlər. Və bu, hələ də davam edir.

1886-cı ildə yaradılan "Qnçak" erməni təşkilatının proqramında göstərilirdi: "Hər hansı bir şəraitdə türkləri və kürdləri öldürməli, erməni satqınlarına da aman verməməli". Beləliklə, "Qnçak" erməni terror təşkilatı üç il ərzində 65 min türk və kürdün qətlinə nail oldu. Artıq 1890-cı illərdən Gürcüstan və Türkiyə ərazisində kütləvi qırğınlar törətməyə başlayan ermənilər Türkiyənin Diyarbəkir, Adana, Maraş, Kayseri şəhərlərindəki qanlı faciələrdən sonra "Daşnaksütyun" terror təşkilatının əsas ideoloqlarından biri O.Kaçaznuni bildirirdi: "Dənizdən-dənizə "böyük Ermənistan" yaratmaq ideyası erməni xalqının arzusu yox, tələbidir. Bunu erməni xalqı özünün və bütün bəşəriyyətin qarşısına çox ciddi tələb kimi irəli sürüb...".

1903-cü ildən artıq Azərbaycanda da ermənilər bu istiqamətdə fəaliyyətə başladılar. Hadisələrə erməni kilsəsinin nümayəndələri nəzarət edirdilər. 1905-ci ildə Bakıda, Şuşada, Qazaxda, Sırxavənddə, Gəncədə qırğın törədildi, yüzlərlə insan öldürüldü. 1906-cı ildə tayqulaq Andranikin Azərbaycan torpaqlarında, xüsusən Şuşada törətdiyi qanlı qırğınlarda yüzlərlə günahsız insanın həyatına son qoyuldu. 1915-ci ildə Türkiyənin Van şəhərində qırğın törədildi, şəhər tamamilə yandırıldı. Amerikalı tədqiqatçılar C. və K.Makkartilərin yazdığına görə, XX əsrin əvvəllərindən başlanan qanlı toqquşmalarda 2,5 milyon türk məhv edilmişdi. 2,5 milyon!!.

Türk soyqırımının həddi-hüdudu yox idi... Bu qırğınlar paralel şəkildə Azərbaycanda da davam etdirilirdi. 1918-ci ilin mart qırğınında təkcə Bakıda 30 mindən çox dinc sakin qətlə yetirilmişdi... Beləliklə də 1918-ci il mayın 28-də Azərbaycan şəhəri İrəvan torpaqlarımızdan qoparılaraq ermənilərə verildi. Ermənistan respublikası belə yaradıldı.

Amerikalı alim, professor C.Makkarti yazırdı: "XIX əsrin xəritələrində "Ermənistan" sözünə rast gəlinsə də, Osmanlı imperiyasında heç zaman "Ermənistan" olmamışdır..." Buradan belə bir nəticə çıxır ki, uzun illər boyu xələflərimizin - qədim Qafqaz albanlarının dövlətçiliyini, coğrafi mövqeyini, tarixini, memarlıq abidələrini mənimsəyib özününküləşdirsələr də, bunların erməni hayklarına heç bir dəxli yoxdur.

Yalnız ermənilər bir tərəfdən özlərini yazıq, zavallı, əzabkeş kimi qələmə verir, digər tərəfdən "böyük Ermənistan" ideyasının gerçəkləşdirilməsi naminə ən iyrənc hiylələrlə dəhşətli faciələrin, terror hadisələrinin ssenarisini "yazıb-yaradırlar".

Daha bir maraqlı fakt: "Daşnaksütyun" terror təşkilatının əsas liderlərindən biri, eyni zamanda üç il Ermənistan Nazirlər Sovetinin sədri vəzifəsində çalışan O.Kaçaznuninin yaddan çıxmayacaq bir çıxışından hissələrə nəzər yetirək: "1919-cu ilin yazında Parisdə olan respublika nümayəndə heyəti böyük dövlətlərə memorandumla müraciət etdi. Bu memoranduma əsasən Zaqafqaziya Respublikası genişləndirilmiş sərhədləri ilə; bütünlüklə İrəvan quberniyası, Ərdahanın şimal hissəsi olmadan Qars vilayəti (Türkiyə), Tiflis quberniyasının (Gürcüstan) cənub yarısı, Yelizavetpol quberniyasının (Gəncə, Azərbaycan) cənub-qərb hissəsi; Türkiyənin yeddi vilayəti: Van, Baqeş, Diyarbəkir, Xarberd, Sebastia, Karın, Trapezünd, həmçinin Türkiyənin cənubundakı dörd vilayəti: Maraş, Sle, Cəlal, Bərəkət, Aleksandretta ilə birlikdə Adana erməni dövlətinə daxil olmalıdır.

Qara dənizdən Aralıq dənizinə, Qarabağ dağlarından Ərəbistan səhralarınadək "böyük Ermənistan" dövlətinin geniş sahəsi layihələşdirilərək tələb olunur..."

Dünya müharibəsi dövründə Antantanın yüksək vəzifəli nümayəndələri tərəfindən erməni xalqına xüsusi vədlər verilməsi səbəbindən ingilislərin Qafqaza gəlişi də Ermənistanda xüsusi nikbinlik və "parlaq gələcəyə" yeni ümidlər yaratdı.

1918-ci ilin noyabr ayında Osmanlı İmperiyasının təslim olması erməni tarixində yeni bir dövrün yaradılması kimi görünür və Ermənistan liderlərinin başını döndərirdi. Onlar artıq Aralıq dənizindən Qara dənizə və Qara dənizdən Xəzərə qədər uzanan "böyük Ermənistan"ı görürdülər... Onların fantaziyaları Parisdə, Londonda və xüsusən də Vaşinqtonda təşviq edilirdi. Lakin erməniləri gerçək olmayan ümidlər və vədlərlə təlaşlandırırdılar.

Ermənistan rəhbərliyi ümid edirdi ki, qalib gələn müttəfiqlər onlara qonşu ölkələrin hər biri ilə ikitərəfli danışıqlar yolu ilə əldə etmək mümkün olduğundan daha çox ərazi təklif edəcəklər. Rusiya, İngiltərə, Fransa kimi dövlətlər tərəfindən dəstəklənən və "böyük Ermənistan" xülyasına tutulmuş ermənilər Türkiyədən əlləri çıxandan sonra aranı qarışdırmaq üçün başlarını hara gəldi soxurdular.

Ermənistanın Gürcüstana qarşı ərazi iddiaları da silahlı münaqişəyə yol açmışdı. Onlar burada da işğalçılıq əməliyyatlarını genişləndirir, bunun hesabına istəklərinə nail olmaq istəyirdilər.

1918-ci ilin noyabrında gürcü və erməni tərəfləri arasında danışıqlar başladı. Gürcüstan parlamentinin üzvü Semyon Mdivani "Ermənistan hökuməti ilə dostluq əlaqələri yaratmaq üçün" xüsusi səlahiyyətli nümayəndə kimi Tiflisdən İrəvana göndərildi. Eyni zamanda, Gürcüstan rəhbərliyi müstəqillik elan edən Cənubi və Şimali Qafqazın digər ölkələrinin hökumətlərini Tiflisdə "ortaq həyati vacib məsələlərin, o cümlədən sərhəd məsələsinin həlli" mövzusunda konfrans təşkil etməyə dəvət etdi.

Mdivani ilə danışıqlar zamanı erməni liderlər, Gürcüstan tərəfinin Azərbaycanın Dağlıq Qarabağ və Türkiyənin Şərq ərazilərinin bir hissəsinin (ermənilər bu əraziləri "Türkiyə Ermənistanı" adlandırırdı) Ermənistan Respublikasının ərazisinə qatılmasına verəcəkləri dəstək qarşılığında Borçalı və Axalkalaki uyezdləri məsələsində bir sıra güzəştlər etməyə hazır olduqlarını bildirdilər. Lakin Gürcüstan hökumətinin qonşuları ilə yeni münaqişə ocaqlarını nə yaratmağa gücü, nə də istəyi var idi, bu isə erməni və gürcü hökuməti arasında konsensus əldə etməyi çətinləşdirirdi. Praktiki olaraq uğursuz danışıqlar və uğursuz diplomatik səylər fonunda mübahisəli uezdlərdə vəziyyət narahat idi...

"Qoy erməni "vətənpərvərləri" törətdikləri əməllərə yalançı "milli mənlik" pərdəsi arxasında gizlənərək yox, sözün həqiqi mənasında qiymət versinlər. Qiymət versinlər və görsünlər ki, həmin əməllər nə qədər insana fəlakət gətirib..." Hələ 120 il əvvəl V.Veliçkonun "Qafqaz" kitabında yazdığı bu fikirlər erməni "əməlləri"nin əsasında məhz "erməni xəstəliyi"nin, "erməni məkri"nin əsas qolu olan "erməni faşizmi"nin dayandığını göstərirdi.

Son 100 ildə Azərbaycan türklərinin doğma ata-baba yurdlarından mərhələ-mərhələ çıxarılması, zorla qovulması erməni xislətinin əsas ideya məramını səciyyələndirir. Ermənilər heç zaman başlarına gələnlərdən dərs çıxara bilmədilər. Havadarlarına arxalanıb 30 ilə yaxın müddətdə işğalda saxladıqları Azərbaycan torpaqlarını məğlub vəziyyətdə tərk etmələri onlara dərsdir. "Biz onların dərsini verdik" deyən, qalib Azərbaycan ordusunun müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"u hələ aşağı düşməyib.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

# Hərbi cinayətlərdə ittiham olunan erməni hərbçilərlə bağlı növbəti məhkəmə iclası keçirilib

**Birinci Qarabağ müharibəsi zamanı əsir götürülmüş azərbaycanlılara qarşı amansız işgəncələr verməkdə ittiham olunan erməni hərbçilər Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviç ilə bağlı cinayət işi üzrə iyunun 16-da Yasamal Rayon Məhkəməsində növbəti məhkəmə iclası keçirilib.**





AZƏRTAC xəbər verir ki, ictimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında yerli və xarici media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Bakı Hərbi Məhkəməsinin hakimi Elbəy Allahverdiyevin sədrliyi ilə keçiriləcək prosesdə iş üzrə zərərçəkmişlər ifadə veriblər.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində qanunsuz fəaliyyət göstərən erməni separatçı rejiminin silahlı birləşmələrinin üzvləri, Ermənistan Respublikasının vətəndaşları Mkrtiçyan Lüdvik Mkrtiçoviç və Xosrovyan Alyoşa Aramaisoviçin Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində azərbaycanlılara qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətməsi və digər faktlara görə başlanmış cinayət işi üzrə təqsirləndirilirlər.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın azərbaycanlı əsirlərin və beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxslərin girov saxlanılması, onlara işgəncə verilməsi, qəddar və qeyri-insani rəftar edilməsi faktları müəyyən edilib. İstintaqla müəyyən olunub ki, Ermənistan Respublikasının vətəndaşı 1969-cu il təvəllüdlü Lüdvik Mkrtiçyan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan, habelə Ermənistandan gəlmiş millətçi ermənilərdən ibarət yaradılmış silahlı qrupların fəaliyyətində iştirak edib, onlarla qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əlaqəsinə girərək 1991-ci ilin iyulunda Xocalı şəhəri yaxınlığındakı "Ballıca" adlandırılan meşədə girov götürülərək azadlığı qanunsuz olaraq məhdudlaşdırılmış Azərbaycan vətəndaşına, habelə 1999-cu il sentyabrın 13-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi ərazisində girov götürülərək Ermənistan Respublikasının İrəvan şəhərinə gətirilmiş və həmin şəhərdə yerləşən hərbi hissələrin birində qanunsuz saxlanılan mülki şəxsə Ermənistan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən sorğu-sual edilən zaman tərcüməçi kimi iştirak edərkən işgəncə verib.

İstintaqla Lüdvik Mkrtiçyan tərəfindən daha 11 nəfər əsir götürülmüş Azərbaycan vətəndaşının müxtəlif vaxtlarda Xocavənd və Ağdərə rayonları ərazisində, Şuşa həbsxanasında və Ermənistanın İrəvan şəhərində qanunsuz saxlanıldığı yerlərdə döyülərək müxtəlif xarakterli işgəncələrə məruz qaldığı və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusunun avtomat silahdan atəş açılaraq öldürüldüyü müəyyənləşdirilib.

Lüdvik Mkrtiçyan 2020-ci il oktyabrın 20-də Füzuli rayonunun Məlikcanlı kəndi ərazisində Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən saxlanılaraq ələ keçirilib.

İstintaqla Alyoşa Xosrovyanın 5 azərbaycanlıya əsirlikdə olduqları müddətdə işgəncə verməsi, onlarla qəddar və qeyri-insani rəftar etməsi müəyyənləşdirilib. Belə ki, Alyoşa Xosrovyan 1994-cü ilin aprelində Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin əsir düşmüş sabiq əsgərini Xocavənd rayonunun Mısmına (Ağbulaq) kəndindəki yaşayış evlərinin birində qanunsuz olaraq saxlanılan zaman, qondarma "Dağlıq Qarabağ respublikası"nın "müdafiə naziri" Babayan Samvel Andranikoviç üçün həmin kənddə evin tikintisində ağır işlərin görülməsinə məcbur edib ona müxtəlif dərəcəli xəsarətlər yetirib.

Bundan başqa, Alyoşa Xosrovyan Azərbaycan Silahlı Qüvvələrinin 1993-1994-cü illərdə əsir düşərək Şuşa şəhər həbsxanasında qanunsuz saxlanılan əsgərlərinə qarşı da xüsusi qəddarlıq nümayiş etdirərək onlara mütəmadi qaydada döymə, ac-susuz saxlama, fiziki və psixi iztirablar yetirməklə işgəncə verib.

Alyoşa Xosrovyan Azərbaycan Respublikasının ərazilərində kəşfiyyat xarakterli hərəkətlər apararkən 2020-ci il oktyabrın 3-də Azərbaycan silahlı bölmələrinin hərbi qulluqçuları tərəfindən ələ keçirilib.

Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyanın Cinayət Məcəlləsinin 113-cü (işgəncə), 115.2-ci (müharibə qanunlarını və adətlərini pozma), 279.1-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə nəzərdə tutulan cinayətləri törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən onlara həmin maddələr üzrə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Mayın 20-də iş üzrə ittiham aktı təsdiq edilərək baxılması üçün Bakı Hərbi Məhkəməsinə göndərilib.

Növbəti məhkəmə iclası iyunun 23-nə təyin olunub.

**AZƏRTAC**

# Azərbaycan ərazisində terror-təxribat cinayətləri törədən erməni silahlı dəstələrinin üzvlərinin məhkəməsi keçirilib

**İyunun 16-da Bakı Ağır Cinayətlər Məhkəməsində 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin üzvlərinin cinayət işi üzrə məhkəmə iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə bu cinayət işi üzrə təqsirləndirilən 14 nəfərin - Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç, Baqasyan Armen Yegizari, Qasparyan Qor Vaqramini, Sefilyan Kamo Karenoviç, Hakobyan Volodiya Vaçaqani, Asetryan Gevorq Norairoviç, Yenqoyan Sisak Qrişai, Petrosyan Albert Kamoyeviç, Sedrakyan Romik Misakini, Minasyan Aram Qarnikoviç, Minosyan Mkrtıç Simonoviç, Matesyan Edqar Vaçaqanoviç və Karapetyan Yuri Tiqranoviçin anket məlumatları dəqiqləşdirilib.

Növbəti məhkəmə iclasının iyunun 25-nə təyin edildiyi elan olunub.

İctimaiyyətə açıq və şəffaf şəkildə keçirilən məhkəmə iclasında yerli və xarici media nümayəndələri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər.

Xatırladaq ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatla atəşkəsin elan olunmasından sonra Azərbaycan Respublikasının ərazisinə qanunsuz olaraq gizli yollarla keçib Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə mövqe tutaraq hərbi qulluqçularımıza və mülki şəxslərə qarşı terror-təxribat və digər cinayət əməlləri törədən erməni silahlı dəstələrinin Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il dekabrın 13-də keçirilmiş antiterror əməliyyatı nəticəsində tərk-silah edilmiş üzvləri barəsində cinayət işinin istintaqı DTX-nin İstintaq Baş İdarəsində aparılıb.

İstintaqla müəyyən edilib ki, Ermənistan Respublikasının vətəndaşlarından ibarət bir qrup şəxs qanunsuz şəkildə odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə edərək qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr yaratmışlar. Həmin birləşmələrin üzvləri 2020-ci il noyabrın 26-27-də Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq mütəşəkkil dəstə halında keçməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik və digər ərazilərində döyüş mövqeləri tutaraq 2020-ci il dekabrın 13-dək ölkə ərazisində yerləşən müəssisə, idarə, təşkilatlara, habelə ayrı-ayrı şəxslərə silahlı basqınlar edib, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, Azərbaycan Respublikasının dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər terror əməlləri törədiblər.

Bu faktlarla bağlı qanunsuz silahlı birləşmənin üzvləri Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç və digərlərinin, ümumilikdə 14 təqsirləndirilən şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214.2.1-ci, 214.2.3-cü (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 228.3-cü (mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, saxlama, daşıma və gəzdirmə), 279.2-ci (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların tərkibində müəssisələrə, idarələrə, təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunurlar.

**AZƏRTAC**

# Azercell-in dəstəyi ilə fəaliyyət göstərən “Uşaq Qaynar Xətt” xidmətinə son 5 ay ərzində 2 mindən çox müraciət daxil olub

**Ölkəmizin parlaq gələcəyi üçün bu gün uşaqların sağlam mühitdə böyüməsi əsas şərtlərdən biridir. Təəssüf ki, hər bir cəmiyyətdə təzyiqlə üzləşən, sıxılan, hüquqları pozulan uşaq və yeniyetmələrə rast gəlmək olur. On bir ildən artıqdır ki, Azercell-in, UNİCEF Azərbaycanın və “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin birgə əməkdaşlığı ilə fəaliyyət göstərən “Uşaq Qaynar Xətt” xidmətinin əsas məqsədi məhz müxtəlif çətinliklərlə üzləşən uşaqlara təmənnasız kömək etməkdir. Yarandığı ilk gündən etibarən bu xidmətin əməkdaşları həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlara dəstək verir, onların sosial mühitə uyğunlaşmalarına yardım edir.**

Xidmət cari ilin yanvar-may ayları ərzində 2386 müraciəti cavablandırıb. Müxtəlif sahələrlə bağlı daxil olan zənglərin böyük qismi (793 müraciət) təhsil sahəsinə aid olub. Beş ay ərzində qaynar xəttin ekspertləri hüquqi prosedurlara dair 481 müraciət qəbul ediblər. Yerdə qalan zənglər psixoloji (340 müraciət), sosial (236 müraciət), səhiyyə (137 müraciət) və digər məsələlərlə əlaqədar (399 müraciət) yardım istəyi olub.

“Uşaq Qaynar Xətt” xidmətinə yalnız uşaqlar deyil, onların valideynləri və yaxınları da müraciət edir. Belə ki, yanvar-may aylarında mərkəzə daxil olan zənglərin 1772-si 18 yaşdan yuxarı, 506-sı isə uşaq və yeniyetmələr tərəfindən edilib. Yardım istəyənlərin 1203 nəfəri qadın, 1075-i kişi olub. Həmçinin mərkəzə sosial şəbəkələr üzərindən anonim formada müraciətlər edənlər də olub. Son 5 ay ərzində qaynar xətt tərəfindən 34 ailə ilə görüş həyata keçirilib, 94 sosial-psixoloji reabilitasiya işi aparılıb.

Qeyd edək ki, bu ilin ilk 5 ayı ərzində “Azərbaycan Uşaq Qaynar Xətt” xidməti tərəfindən onlayn vebinar və canlı yayımlar təşkil edilib. “Yeniyetməlik dövrünün psixoloji və fizioloji aspektləri” mövzusunda canlı yayım, yeniyetmə və gənclər üçün “İntihara son deyək!”, “Özünü yalnız hissetmə sindromu” vebinarları sosial şəbəkə istifadəçiləri tərəfindən maraqla qarşılanıb.

Bu müddət ərzində uşaq və yeniyetmələr üçün “Klinik Müsahibələr”, eləcə də “Uşaqlar və Ailələrlə sosial iş və reabilitasiyanın təşkili” təlimləri baş tutub.




“Uşaq Qaynar Xətt” xidmətinin iştirakı ilə həm də ZOOM platformasında uşaq zorakılığına qarşı mübarizəyə həsr olunmuş 10 günlük beynəlxalq təlim keçirilib. Həmçinin sosial şəbəkələr üzərindən maarifləndirmə kampaniyaları da davam etdirilib.

Xatırladaq ki, 2017-ci ildə Azercell şirkətinin təşəbbüsü və dəstəyi ilə “Uşaq Qaynar Xətt” xidmətinin İOS və Android əməliyyat sistemləri üçün nəzərdə tutulan mobil tətbiqləri də istifadəyə verilib. “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt, Facebook və İnstagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və “uşaqqaynarxetti” mobil əlavəsi vasitəsilə müraciət etmək olar. ■

# Dövlət Sərhəd Xidməti Mətbuat Mərkəzinin məlumatı

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış fəaliyyətləri davam etdirilir.**

Dövlət Sərhəd Xidməti əməkdaşlarının həyata keçirdiyi əməliyyatlar nəticəsində cari ilin 14 iyun tarixində ümumi çəkisi 154 kiloqram 500 qram narkotik və psixotrop vasitələrə bənzər maddələrin İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınmışdır.

Həmin gün saat 03:00 radələrində Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Cəbrayıl rayonu Mahmudlu kəndi yaxınlığında yerləşən sərhəd zastavasının ərazisində içərisində 1 nəfər olan “Ford” markalı 99-ZL-240 dövlət nömrə nişanlı avtomobilin əraziyə yaxınlaşması, avtomobildəki şəxsin düşərək özünü şübhəli aparması sərhəd naryadının diqqətini cəlb etmişdir.

Şübhəli şəxs sərhəd naryadının “Dayan” əmrinə tabe olmayaraq ərazidən uzaqlaşmağa cəhd göstərmiş, onun avtomobili təqib olunaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi ərazisində saxlanılmışdır. Ağstafa rayon sakini 1993-cü il təvəllüdlü Musayev Samir Nəcəf oğlu olması müəyyənləşdirilmiş şəxsin idarə etdiyi avtomobilə baxış keçirilərkən 5 ədəd idman çantasının içərisində təxmini çəkisi 111 kiloqram 900 qram narkotik və psixotrop vasitəyə (70 kiloqram 120 qram heroin, 12 kiloqram 100 qram marixuana, 12 kiloqram 30 qram metamfetamin, 300 qram tiryək, 17 kiloqram 350 qram 4060 ədəd Metadon M-40 həbi və 2 ədəd 200 ml şüşədə narkotik tərkibli maye) bənzər maddələr aşkar olunaraq götürülmüşdür.

Narkotik maddələrin sifarişçilərinin müəyyənləşdirilməsi məqsədilə Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Göygöl rayonu ərazisində həmin rayon sakini 1996-cı il təvəllüdlü Abdullayev Anar Elman oğlu saxlanılaraq istintaqa cəlb edilmişdir.

Eyni tarixdə saat 05:55 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin Cəlilabad rayonu Məlikqasımlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən 1 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması müşahidə olunmuşdur.

